Xalqın qəzeti!

# Xalq qəzeti

№ 117 (30521) 5 iyun 2024-cü il, çərşənbə

Gündəlik ictimai-siyasi qəzet

1919-cu ildən çıxır | Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti | xalqqazeti.az

## Azərbaycan qazıntı yanacağından bərpaolunan enerjiyə keçidin önündə gedir

### Prezident İlham Əliyev Bakı Enerji Həftəsi çərçivəsində 29-cu "Caspian Oil&Gas" və 12-ci "Caspian Power" sərgilərinin rəsmi açılış mərasimində





**İyunun 4-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Bakı Ekspo Mərkəzində Bakı Enerji Həftəsi çərçivəsində keçirilən 29-cu Beynəlxalq Xəzər Neft və Qaz – "Caspian Oil&Gas" və 12-ci Xəzər Beynəlxalq Energetika və Yaşıl Enerji – "Caspian Power" sərgilərinin rəsmi açılış mərasimində iştirak edib.**

Tədbirin moderatoru, Böyük Britaniyanın "ICA Group" şirkətinin İdarə Heyətinin məsləhətçisi Stiven Murtay çıxış edərək dedi:

– Zati-aliləri cənab Prezident!

Hörmətli qonaqlar!

Xanımlar və cənablar!

Bakı Enerji Həftəsinə xoş gəlmisiniz. Artıq 30 ildir ki, biz bu tədbiri keçiririk. Dinamik inkişafı ilə fərqlənən Bakı şəhərində toplaşdığımız bir zamanda enerji sektorunda innovasiya, tərəqqi və əməkdaşlığın artıq üç onilliyini qeyd edirik.

Bu toplantı təkcə ötən nailiyyətlərimizi ifadə etməklə kifayətlənmir, həm də sənaye sektorunu və dünyanı şəkilləndirəcək gələcək nailiyyətlər üçün körpü rolunu oynayır. Bakı Enerji Həftəsinin dünya ictimaiyyəti üçün nə qədər vacib əhəmiyyətə malik olduğunu söyləsək, mübaliğə etmiş sayılmarıq. Bu, enerjinin inkişafına, dayanıqlılığa və bizi daha parlaq, daha səmərəli gələcəyə doğru istiqamətləndirən beynəlxalq tərəfdaşlığın inkişaf etdirilməsinə davamlı sadiqliyimizin təzahürüdür.

Otuz il öncə Bakı Enerji Həftəsi Xəzər Neft və Qaz Sərgisi kimi işə başlamış və müasir müstəqil Azərbaycanın enerji sektoruna səyahətinin ilk günləri kimi xatirələrdə qalmışdır. Göründüyü kimi, bu il 30 illiyi qeyd olunan məşhur "Əsrin müqaviləsi"nin imzalanmasından bir qədər əvvəl buna ilkin olaraq təşəbbüs göstərilmişdi. O vaxtdan bəri tədbir dünyanın hər bir guşəsindən enerji ekspertləri üçün əsas toplantı mərkəzinə çevrilib, geniş silsilə mövzuları və yenilikləri əks etdirməklə əhatə dairəsini daha da genişləndirib.

İqlim dəyişikliyinə qarşı qlobal mübarizədə beynəlxalq birliyi dəstəkləmək üçün 2024-cü ilin Azərbaycanda "Yaşıl dünya naminə həmrəylik ili" elan edilməsi cəsarətli bir addım olub. Bu mövzu Bakı Enerji Həftəsinin gündəliyində daha geniş yer tutacaq.

Azərbaycanın COP29-a evsahibliyi edən ölkə kimi seçilməsi bizi çox məmnun edib. Bu, ölkənin mütərəqqi siyasətinin və qlobal miqyasda artan nüfuzunun bir daha göstəricisidir, iqlim dəyişikliyi üzrə məsələlərin həlli, eləcə də dayanıqlılıqla bağlı təşəbbüslərdə ön sırada olmağın bizim üçün nə dərəcədə əhəmiyyətli olduğunu bir daha ortaya qoyur.

*(ardı 2-ci səhifədə)*

## "Lazerevçilər"in Ermənistana dəstək məntiqi

### Yaxud miskinlik mənzərəsi və cılız bəyanatın 5 məqamı

**Beynəlxalq Rusiya – Ermənistan "Lazarev klubu" bəyanat yayaraq "həyəcan təbili" çalıb. Sən demə, klubun üzvləri "Qafqazda və çoxəsrlik tarixə malik Rusiya – Ermənistan münasibətlərində" baş verənlərdən çox narahat imişlər. Narahatlıq onların yaydıqları bəyanatda əksini tapıb. Bəyanatda konkret olaraq nələrdən söz açılır, mövzumuz bu barədədir. Ancaq əvvəlcə iki məqamın üzərində dayanaq.**



Birincisi, Beynəlxalq Rusiya–Ermənistan "Lazarev klubu" 2018-ci ildə yaradılıb. O ildə Ermənistanda hakimiyyətə Nikol Paşinyan gəlmişdi. O Paşinyan ki, Rusiyaya yaxın olan "Qarabağ klanı"nı devirərək iqtidara yiyələnmişdi. Deməli, belə nəticəyə gələ bilərik ki, təşkilat Nikolun rəhbərliyə gəlməsinin Rusiya – Ermənistan münasibətlərinə təhlükə olduğuna dair ideyanı əsas götürülməklə formalaşıb.

Bəli, mənzərə tam təsvir etdiyimiz kimidir. Əks halda, "Qafqazda və çoxəsrlik tarixə malik" münasibətlərə hansısa sentimental baxışa ehtiyac qalmazdı. Nəzərə alaq ki, Paşinyana qədərki Ermənistan Rusiyanın vassalı idi. Yəni, zatulinlərin ağlından da keçmirdi ki, təşkilat yaradıb Ermənistan – Rusiya dostluğundan dəm vursunlar. Necə deyərlər, çərxi-fələk tərsinə dövran etdi.

İkincisi, "Lazarev Klubu"nun yaradılmasının ideya müəllifi Rusiyanın ən qatı ermənipərəsti, Dövlət Dumasının MDB ölkələri, Avrasiya inteqrasiyası və həmvətənlərlə iş komitəsinin sədr müavini Konstantin Zatulindir. Bu adın özü hər şeyi deyir. Yeri gəlmişkən, Zatulin Ermənistana giriş qadağası qoyulmuş şəxslərin sırasındadır. Yəqin, onun yaratdığı qurumun hazırkı mövqeyinin rəsmi İrəvanın əleyhinə olacağını təxmin etdiniz.

*(ardı 8-ci səhifədə)*

## Türkiyə şirkətləri Qarabağın dirçəlişi cəbhəsində



**Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında aparılan böyük quruculuq işlərində qardaş Türkiyə 20-dən çox şirkətlə 50-yə yaxın layihə icra edir. Bu bərpa – quruculuq işlərinin ümumi dəyəri 4 milyard ABŞ dolları təşkil edir.**

Türkiyənin "Kolin İnşaat" şirkətinin iştirak etdiyi layihələrdən biri Əhmədbəyli–Füzuli–Şuşa avtomobil yolunun tikintisidir. Bu yolun tikintisinin 2024-cü ilin ikinci yarısında yekunlaşması planlaşdırılır. Artıq layihənin böyük bir hissəsi həyata keçirilib. Bu barədə **"Geoexbert Consulting" MMC-nin direktor müavini Azad Məcidov deyib:**

– Sözügedən yol "Zəfər yolu"na paraleldir. Bu yolun çəkilməsində əsas məqsəd "Zəfər yolu"nda mövcud olan kəskin döngələrin böyük maşınlar və ağır texnikanın hərəkəti üçün təhlükəli olmasıdır. Yeni çəkilən yolda həmin həssas yerlər daha rahat formaya salınıb və 10 körpü tikilib. Yolda ümumi olaraq 35 keçid var və bu keçidlər heyvanların istifadəsi üçün də nəzərdə tutulub. Eyni zamanda, su axıntısı üçün suötürücü qurğular quraşdırılıb.

Layihə üzrə tikintisi nəzərdə tutulmuş 9 viadukun 8-də inşaat işləri tamamlanıb. 1-nin tikintisi isə davam edir. Viadukların 3-nün tikintisi zamanı Azərbaycanda ilk dəfə olaraq aşırım qəliblərin üfüqi sürüşdürülməsi üsulu ilə betonlama işləri yerinə yetirilib.

Ümumi uzunluqları (sağ və sol istiqamət) 12.7 kilometr təşkil edən 7 avtomobil tunelindən 6-da qazma işləri yekunlaşıb. Hazırda tuneldaxili işlər həyata keçirilir. Qeyd edək ki, tunellərdə qaya qruntlardan ibarət hissələrin kənarlaşdırılması qazma, partlatma və qırıcı üsullarla aparılıb. Yeni yol istifadəyə verildikdən sonra Şuşa şəhərinə cənub istiqamətdən daxil olmaq həm zaman, həm də təhlükəsizlik baxımından daha əlverişli olacaq.

Bundan başqa, "Zəfər yolu"nun çəkilişində Türkiyənin 2 şirkəti – "Kolin İnşaat" və "Özgün Yapı" şirkətləri iştirak edib.

*(ardı 9-cu səhifədə)*

## "Narahat" ABŞ konqresmenlərinə rahat cavab



Səhifə ⇨ 10

## Qarabağ tör-töküntüsü də Baqrata "yox!" dedi



Səhifə ⇨ 8

## "Açıq Büdcə İndeksi – 2023"də 21 pillə yüksəliş




Səhifə ⇨ 11

## İki məsələyə nöqtə qoyan bir müraciət



Səhifə ⇨ 10

## Nobel mükafatçısı Əziz Sancar Azərbaycanda



Səhifə ⇨ 7

## "Boksçu beşlik" Parisə inamla gedəcək




Səhifə ⇨ 15

## Xəzər sahilində beynəlxalq neft və qaz təntənəsi

Səhifə ⇨ 12

# Prezident İlham Əliyev Bakı Enerji Həftəsi çərçivəsində 29-cu “Caspian Oil&Gas” və 12-ci “Caspian Power” sərgilərinin rəsmi açılış mərasimində

*(əvvəli 1-ci səhifədə)*

Azərbaycan Respublikasının Prezidentinə, Azərbaycan Hökumətinə, Energetika Nazirliyinə göstərdikləri dəstəyə, habelə SOCAR-a səmimi təşəkkürümüzü bildiririk. Bakı Enerji Həftəsinə verdiyimiz dəstək bu tədbirin Azərbaycanın daha parlaq, daha səmərəli gələcəyə doğru strategiyasının əhəmiyyətli bir komponentinə çevrilməsinə kömək edəcəkdir.

Təşəkkür edirəm və tədbirdə xoş vaxt keçirməyi arzulayıram!

İndi isə sözü Zati-aliləri cənab Prezidentə verirəm. Buyurun, cənab Prezident!

* * *

Dövlətimizin başçısı açılış mərasimində çıxış etdi.



## Prezident İlham Əliyevin çıxışı

– Sabahınız xeyir xanımlar və cənablar!

Əvvəlcə bütün qonaqlarımızı salamlamaq istəyirəm. Azərbaycana xoş gəlmisiniz. Əvvəla, təşkilatçılara minnətdarlığımı bildirmək istəyirəm. Artıq qeyd edildiyi kimi, Xəzər Neft və Qaz Sərgisi otuz il bundan əvvəl 1994-cü ildə fəaliyyətə başlayaraq, Azərbaycanın enerji sektoruna birbaşa xarici investisiyaların cəlb edilməsində mühüm rol oynamışdır. O vaxtdan bəri bu tədbir daha böyük tədbirə çevrilib və enerji siyasətinin bütün əsas seqmentlərini – neft, qaz, kəşfiyyat və hasilat, emal və nəqliyyatı və əlbəttə ki, yaşıl enerjini əhatə etdiyinə görə indi onun adı Bakı Enerji Həftəsidir.

Otuz il bundan əvvəl Azərbaycan, əlbəttə ki, başqa bir ölkə idi. Biz müstəqillik yolunda ilk addımlarımızı atırdıq və bu, çətinliklər, çağırışlar və faciəvi hadisələrlə dolu olan bir dövr idi. Əfsuslar olsun ki, 1991-ci ilin oktyabrında müstəqilliyimizin bərpası qonşu Ermənistanın təcavüzü və torpaqlarımızın demək olar ki, iyirmi faizinin işğalı ilə müşayiət olundu.

Həmin dövrdə adambaşına düşən məcburi köçkünlərin sayına görə biz bəlkə də dünyada birinci yerdə idik və ya birincilərdən biri idik. Hər səkkiz nəfərdən biri məcburi köçkün idi. Bu, həqiqətən də çətin dövr idi və biz humanitar fəlakətlə üzləşdik. İrəliyə getmək üçün yol yalnız investisiyaların cəlb edilməsindən ibarət idi, lakin Azərbaycan çox riskli ölkə hesab olunurdu. Söhbət təkcə Birinci Qarabağ müharibəsi və işğaldan yox, həm də daxili münaqişələrdən gedir. 1993-cü ilin vətəndaş müharibəsi, əslində, ölkəni uçuruma aparırdı.

Buraya iqtisadi çətinlikləri, min faiz səviyyəsində olan inflyasiyanı, sənayemizin durğunluğunu və enerji resurslarının qıtlığını əlavə edə bilərik. Bizdə elektrik enerjisi və təbii qaz qıtlığı var idi – bir neçə onilliklər ərzində enerji resurslarına görə məşhur olan bir ölkədə. Çar Rusiyası və Sovetlər İttifaqı dönəmində Azərbaycan bu sahədə təkcə regional yox, qlobal miqyasda lider idi. Lakin müstəqillik böyük bir enerji böhranı ilə müşayiət olundu.

Beləliklə, 1993-cü il dönüş nöqtəsi oldu. Heydər Əliyevin 1993-cü ilin oktyabrında Prezident seçilməsi ölkənin tarixində yeni səhifə açdı və söhbət təkcə ölkənin enerji seqmentindən getmir. İrimiqyaslı iqtisadi islahatlar, yeni demokratik Konstitusiyanın qəbul edilməsi, senzuranın ləğvi və əlbəttə ki, iqtisadiyyatımızın ən cəlbedici sektoru olan enerji sektoruna investisiyaları cəlb etmək cəhdləri.

Bu tədbir, əslində, ölkənin potensialının ilk beynəlxalq təqdimatı idi. Artıq qeyd edildiyi kimi, birinci Xəzər Neft və Qaz Sərgisinin keçirilməsindən bir neçə ay sonra – 1994-cü il sentyabrın 20-də “Əsrin müqaviləsi” imzalandı. Bu da ölkənin transformasiyasında dönüş nöqtəsi oldu. Biz investorlarımızla çox məhsuldar münasibətlər qura bildik. Məhz bunun nəticəsidir ki, BP şirkəti otuz ildir bizim strateji tərəfdaşımızdır və bundan sonra da ən azından otuz il ərzində strateji tərəfdaşımız olaraq qalacaq. 1994-cü ildə Birləşmiş Krallıqdan BP və ABŞ-dan “Amoco” beynəlxalq neft şirkətləri konsorsiumuna rəhbərlik edirdilər və onlar bizə etibar etdilər.

Dediyim kimi, bura çox riskli bir ölkə idi, investorlar həmişə siyasi çətinliklərə və geosiyasətə qarşı həssasdırlar. Lakin onlar hökumətə və xalqa etibar etdilər. Qeyd etdiyim kimi, SOCAR və yaradılmış konsorsium arasında çox etibarlı əməkdaşlıq var idi.

Bu, məhz belə başladı və üç il müddətində “Çıraq” platformasından ilk neft hasil olundu. Bu, neft sahəsinin tarixində çox əlamətdar və rekord bir hadisə idi. Müqavilənin imzalanmasından hasilata qədər cəmi üç il vaxt ötdü və sonra Qara dəniz limanlarına gedən iki boru xətti istismara verildi. 1999-cu ildə onların hər ikisi artıq işlək idi. Sonra çox çətin relyef şəraitində və region ölkələrinin və şirkətlərinin güclü əməkdaşlığı ilə uzunluğu 1700 kilometrdən artıq olan Bakıdan Ceyhana gedən əsas neft ixrac boru kəməri ərsəyə gəldi.

Bu, bizim iqtisadiyyatımıza, sanki, bir nəfəs verdi və bizim iqtisadiyyatımızın necə inkişaf etməsinə nəzər salsanız, onun enerji siyasətimizlə koordinasiyasını görərsiniz. Sonra Azərbaycan özünü artıq etibarlı tərəfdaş kimi sübut etdi və iqtisadiyyatımızın müxtəlif sahələrinə və əlbəttə ki, enerji sektoruna əlavə investisiyalar yatırıldı.

Bu gün 4 iyun tarixi, sadəcə, iyirmi il bundan əvvəl neft və qaz sərgisində “Şahdəniz” müqaviləsinin imzalanması ilə yadda qalmayacaqdır. Bu gün, həmçinin qardaş BƏƏ-dən olan “Masdar” şirkəti tərəfindən inşa ediləcək üç günəş və külək enerjisi elektrik stansiyalarının təməlqoyma mərasiminin keçirilməsi ilə də yadda qalacaq. Bu, Azərbaycanın və onun beynəlxalq tərəfdaşlarının qazıntı yanacağından bərpaolunan enerji resurslarına transformasiyasını nümayiş etdirir və qazıntı yanacağının uzun illər ərzində təkcə bizim üçün yox, həm də tərəfdaşlarımız üçün mühüm əhəmiyyət kəsb edəcəyini bildirir.

Beləliklə, “Şahdəniz” Azərbaycanda qaz qıtlığına son qoydu. Çünki ondan əvvəl biz təbii qazı idxal edirdik, indi onu ixrac edirik və bizim ixracımız artır, çox güman ki, bu il 24 milyard kubmetrdən artıq olacaq. Səkkiz ölkə Azərbaycandan qaz alır və Azərbaycan qaz təchizatında etibarlı tərəfdaş olduğunu bir çox ölkələrə sübut etdi. Bir neçə ay bundan öncə keçirilmiş Cənub Qaz Dəhlizinin Məşvərət Şurasının toplantısında Avropa Komissiyası Azərbaycanı ümum-Avropa qaz təchizatçısı adlandırdı və bu, həqiqətdir. Çünki bizim təbii qazı alan səkkiz ölkədən altısı Avropa ölkəsidir. Qaz təchizatımızın coğrafiyası, əlbəttə ki, artacaq. Hazırda öz enerji təhlükəsizliyini təmin etmək üçün Azərbaycan təbii qazına ehtiyacı olan bir neçə əlavə ölkə ilə danışıqların aktiv fazası gedir.

Dəfələrlə dediyimiz kimi, enerji təhlükəsizliyi milli təhlükəsizliyin ayrılmaz hissəsidir. İdxaldan asılı olan ölkələr, əlbəttə ki, ən etibarlı və uzunmüddətli tərəfdaşlar və müqavilələr axtarır. Onlar Azərbaycanın simasında məhz bunu əldə edirlər. Bizim sözümüz imzamız qədər dəyərlidir. Son 30 il ərzində imzalanmış bütün müqavilələr tam şəkildə icra olunub. Onların hamısı parlament tərəfindən ratifikasiya olunub və qanun şəklində imzalanıb. Orada bir söz belə dəyişilməyib. Bu etibar onilliklər ərzində qazanılıb. Bunun nəticəsidir ki, biz bu gün bərpaolunan enerji sahəsində növbəti sürətli inkişafın şahidiyik.

Bir az sonra iştirak edəcəyimiz mərasim haqqında danışarkən qeyd etdim ki, bu, sadəcə, başlanğıcdır. Yeri gəlmişkən, ötən ilin oktyabrında “Masdar” şirkəti 230 meqavat gücündə günəş elektrik stansiyasını istifadəyə verib. İndi isə daha 1 qiqavat enerji həcmi əlavə edilir.

Hazırda iki layihə işlənilməkdədir – onlardan biri inşaat mərhələsindədir, digərinin tikintisi isə tezliklə başlanacaq. Bununla da Azərbaycanın bərpaolunan enerji potensialı 2 qiqavata yaxın olacaqdır. Buraya təkcə günəş və külək enerjisi daxildir. Qarabağ və Şərqi Zəngəzurda hidroelektrik stansiyalarla bağlı gördüyümüz işləri əlavə etsək görərik ki, 2027-ci ilədək 2 qiqavat həcmində bərpaolunan enerjinin əldə edilməsi tamamilə real hədəfdir. Bir daha təkrar edirəm ki, bu, sadəcə, başlanğıcdır.

Yeri gəlmişkən, Qarabağ və Şərqi Zəngəzurun azad olunmuş ərazilərinin nəhəng hidroelektrik potensialı var. 2020-ci ilin noyabrında həmin ərazilər azad ediləndən sonra orada 270 meqavat həcmində hidroelektrik stansiyalar istifadəyə verilib. 3-5 il ərzində bu rəqəm 500 meqavata çatacaqdır. Beləliklə, bərpaolunan enerjinin 1 qiqavat həcmi bizə yarım milyard kubmetr qaza qənaət etməyə imkan verəcək ki, bazarın bu qaza ehtiyacı var və bu ehtiyac davam edəcəkdir.

Bu gün, həqiqətən də, əlamətdar gündür. Bakı Neft və Qaz Sərgisində qaz müqaviləsinin imzalanmasından 28 il sonra, 1 qiqavat həcmində bərpaolunan enerji ilə bağlı artıq imzaladığımız müqavilələr nəticəsində bu gün təməlqoyma mərasimi baş tutacaqdır. Artıq qeyd etdiyim kimi, bu, sadəcə, başlanğıcdır, çünki potensialımız nəhəngdir. Bizim tərəfdaşlarımız qlobal səviyyədə aparıcı şirkətlərdir və dediyim ki, “Masdar” yaşıl enerjiyə keçid sahəsində ən öndə gedən şirkətdir.

Hesab edirəm ki, BƏƏ-dən bir il sonra Azərbaycanın COP29-a evsahibliyi etməsi heç də təsadüf deyil. BƏƏ-nin bizə ötürdüyü miras olduqca dəyərlidir. Birincisi, mən dostum nazir Sultan əl-Cabiri təbrik etmək istəyirəm və salamlarımı qardaşım, BƏƏ Prezidenti Şeyx Məhəmməd bin Zahid Əl-Nəhyana çatdırmağı xahiş edirəm. Həmçinin COP istiqamətində irəlilədiyimiz bu mürəkkəb yolda qardaşımın dostluğuna, tərəfdaşlığına və dəyərli tövsiyələrinə görə təşəkkürümü bildirirəm.

Bu, asan iş deyil, lakin biz buna hazırıq. Dəfələrlə dediyim kimi, neft və qaz ehtiyatlarına sahib olduğumuza görə bizi heç kəs günahlandıra bilməz. Bunu bizə Allah yetirib. Bizim işimizə bu ehtiyatların mövcudluğu əsasında deyil, onlardan hansı şəkildə istifadə etdiyimizə görə qiymət verilməlidir. Biz bu sərvəti müxtəlif vasitələrlə cəmiyyətə yönəltmişik, biz inklüziv cəmiyyət qura bilmişik, biz yoxsulluğu 50 faizdən 5 faizə endirə bilmişik, biz xarici borcumuzu təxminən 100 faizdən 7,7 faizə endirməyə müvəffəq olmuşuq.

Yəni, bizə qiymət verilən zaman bütün bu amillər nəzərə alınmalıdır. Bununla yanaşı, COP-a evsahibliyi etmək kimi məsuliyyətli vəzifəni üzərimizə götürərkən biz bunun həm üstünlüklərini, həm də müəyyən çətinliklərini tam şəkildə dərk edirik. Ancaq biz bu məsələyə sadiqik.

Azərbaycanda iqlim dəyişikliyi Xəzər dənizinin sahilinə nəzər salarkən görünür. İldən-ilə biz dənizin geri çəkildiyinin şahidi oluruq və bunun səbəbi iqlim dəyişikliyi və insanların qeyri-rasional fəaliyyətidir. Çünki Xəzər dənizini qidalandıran mənbə çaylar sərhədlərimizin hüdudları kənarındadır. Bizim bununla bağlı məsuliyyətimiz sıfra bərabərdir və heç bir ciddi tədbirlər görülməzsə, biz böyük bir fəlakətlə üzləşəcəyik. Biz dənizi əlavə su həcmləri ilə təmin etmək üçün yeni bəndlər və su toplanması üçün anbarlar inşa edirik. Lakin Xəzər dənizini qidalandıran əsas mənbələr Azərbaycanda deyil.

İqlim dəyişikliyi hər bir ölkə üçün çağırışdır. Biz proaktiv addımlar atdıq və hazırda tərəfdaşlarımızla birgə çalışırıq. Biz BƏƏ və növbəti COP-a evsahibliyi edəcək Braziliya ilə birlikdə “Troyka” təsis etmişik. Qoşulmama Hərəkatının keçmiş sədri qismində biz 120 ölkə ilə birlikdə bu təsisat və Avropa İttifaqı arasında körpülərin qurulmasına çalışırıq. Avropa İttifaqına 10 üzv dövlət ilə Azərbaycan arasında strateji tərəfdaşlıq haqqında bəyannamə imzalanıb. Biz hazırda inkişafda olan kiçik ada dövlətləri ilə fəal işləyirik. Onların dəstəklənməsi məqsədilə xüsusi fondun yaradılmasını planlaşdırırıq.

Azərbaycan üçün iqlim dəyişikliyi problemdir, onlar üçün isə bu, ekzistensional təhlükədir. Beləliklə, biz maksimal dərəcədə məsuliyyət nümayiş etdirməyə və eyni zamanda, beynəlxalq ictimaiyyətin müxtəlif komponentləri arasında körpülər qurmağa çalışırıq. Hesab edirəm ki, COP29 çərçivəsində maliyyə məsələləri ilə yanaşı, əldə edə biləcəyimiz ən böyük nəticə qarşılıqlı ittihamlara son qoyulması olacaqdır. Biz baş verənlərə görə bir-birimizi günahlandırmağı dayandırmalı, səylərimizi səfərbər etməli, iddialardan əl çəkməli və diqqətimizi övladlarımız və nəvələrimizin yaşamağa davam edəcəyi bu planetdəki həyatla bağlı gündəliyimizə yönəltməliyik.

Xanımlar və cənablar, bir daha Azərbaycana xoş gəlmisiniz. Bu gün həqiqətən tarixi bir gündür. Artıq qeyd etdiyim kimi, iyunun 4-ü tariximizdə “Şahdəniz” müqaviləsinin imzalanması, həmçinin yaşıl keçidlə bağlı təməlqoyma mərasimi ilə yadda qalacaqdır. Əlbəttə ki, bu vacib toplantı hər zaman yeni ideyalar, yeni təmaslar, yeni müqavilələr ilə nəticələnir və əminəm ki, budəfəki Bakı Enerji Həftəsində mühüm nəticələr əldə ediləcək.

Sizə ən xoş arzularımı çatdırır və fürsətdən istifadə edərək, hər birinizi bu ilin noyabrında COP29-da qonağımız olmağa dəvət edirəm.

Diqqətinizə görə sağ olun.

* * *

Sonra Türkiyə Respublikasının Energetika və Təbii Sərvətlər naziri Alparslan Bayraktar Prezident Rəcəb Tayyib Ərdoğanın Bakı Enerji Həftəsi ilə bağlı məktubunu oxudu.

* * *

**Tədbirdə çıxış edən Alparslan Bayraktar dedi:**

– Cənab Prezident Əliyev!

Xanımlar və cənablar!

Möhtərəm qonaqlar!

Bu gün burada sizin qarşınızda çıxış etmək böyük şərəfdir. Bu unikal tədbir, düşünürəm ki, bizim hamımız üçün xüsusi bir fürsət təklif edir, sıx əməkdaşlığı, dialoqu gücləndirir, eyni zamanda, daha dayanıqlı enerji gələcəyini təmin etməyə kömək edir. Eyni zamanda, mən Azərbaycan Prezidenti, Zati-aliləri cənab İlham Əliyevə, Azərbaycan hökumətinə, Energetika Nazirliyinə və SOCAR-a bu cür gözəl tədbiri təşkil etdiklərinə görə səmimi-qəlbdən təşəkkür edirəm.

Bu gün enerji aləmi, bildiyiniz kimi, çox mühüm istiqamətdə inkişaf etməkdədir. Hazırda dünyada bu sahədə dərin transformasiya getməkdədir. Buna istiqamət, təkan verən texnologiya sahəsindəki dəyişikliklər və inkişafdır. Buna iqlim dəyişikliyi ilə bağlı təxirəsalınmaz addımların atılması da kömək edir. Odur ki, enerji təchizatını təmin etmək hər gün getdikcə çətinləşməkdədir. Xüsusilə də davamlı mübarizələrin, risklərin olduğu dövrdə bu, belədir. İqlim dəyişikliyi, pandemiya, təchizatdakı fasilələr və əmtəə mallarının qiymətinin artması, xərclərin çoxalması – sərmayə xərcləri, geosiyasi risklər, regional münaqişələr – sadəcə son münaqişələrdən bir neçəsidir. Bütün bunların hamısı isə qlobal iqtisadiyyatın dekarbonizasiyaya ehtiyacı olduğu bir dövrdə baş verməkdədir. Düşünürəm ki, buna nail olmağın yeganə yolu fundamental dəyişikliklərin aparılması, siyasətlərin həyata keçirilməsi, əlbəttə ki, nəzərəçarpacaq miqdarda investisiyalar vasitəsilə mümkündür.

Türkiyə bu gün digər ölkələrdə olduğu kimi, bu sahədə də böyük addımlar atmaqdadır və enerji təhlükəsizliyini gücləndirməyə çalışır. Bizim enerji planımızda “2050-ci ilədək 0 itki” hədəflərinə çatmaqla bağlı maddələr yer almaqdadır. Bunların arasında ən böyük vəzifələrdən biri enerji resurslarımızı şaxələndirmək və enerji ilə bağlı yüksək tələbatı ödəmək, eyni zamanda, asılılığımızı azaltmaq və sıfır hədəflərinə doğru irəliləməkdir.

Bütün bunların öhdəsindən gəlmək üçün biz əsas diqqətimizi altı başlıca istiqamətə yönəltməkdəyik. Ən birincisi, bərpaolunan enerji potensialımızdan faydalanmaqdır. Belə ki, hazırda bu, bizim ümumi qoyuluş gücümüzün 53 faizini təşkil etməkdədir. Lakin bizim məqsədimiz bunu 60 qiqavata çatdırmaqdır. Buraya, eyni zamanda, kiçik paylaşımlı, miqyaslı və mərkəzləşdirilmiş layihələr aiddir.

İkincisi, bizdə enerji səmərəliliyidir. Bu yaxınlarda biz ikinci mili enerji səmərəliliyi üzrə tədbirlər planını 2030-cu illər üçün elan etmişik. Burada məqsədimiz 20 milyard dollar investisiyanı enerji səmərəliliyi



layihələrinə cəlb etməkdir. Biz təbii qazdan keçid yanacağı kimi istifadə etməyi qarşıya məqsəd qoymuşuq. Eyni zamanda, enerji balansımıza nüvə enerjisini, hidrogen, akkumulyator və digər enerji növlərini əlavə etmək istəyirik. Nəhayət, əsas məqsədimiz təmiz enerji ilə bağlı texnologiyanın inkişaf etdirilməsidir. Burada, eyni zamanda, bir-biri ilə əlaqəli olan üç sahəni qeyd etmək istəyirik. Bu sahələrə investisiyanın cəlb olunmasına ehtiyac var. Ən vacibi, güclü enerji infrastrukturu yaradılması çox önəmlidir. Bu, əsas etibarilə energetika, qaz, eyni zamanda, rəqabətədavamlı enerji bazarını rəqəmsallaşdırmaq üçün önəmlidir.

Enerji təhlükəsizliyinə nail olmaq bizim qarşımızda duran böyük məqsəddir. Heç bir ölkə bunu təkbaşına əldə edə bilməz. Bunun üçün dayanıqlı regional əməkdaşlıq zəruridir. Bildiyiniz kimi, regionda neft, qaz, bərpaolunan enerji sahələrində güclü potensial var. Biz birlikdə çalışmaqla, sinerji yaratmaqla, düşünürəm ki, bu resurslardan daha səmərəli şəkildə faydalana və bundan daha çox yararlana bilərik.

Türkiyə ilə Azərbaycan arasında əlaqələr bu baxımdan sıx əməkdaşlığa dair çox parlaq bir nümunədir və bu, göstərir ki, biz bu yolla necə böyük faydalar əldə edə bilərik. Bizim əlaqələrimiz tarixi, strateji əlaqələrə əsaslanır. Enerji sektoru, əlbəttə ki, bizim qarşılıqlı əlaqəmizin əsas dayağını təşkil etməkdədir. Bunların arasında Bakı–Tbilisi–Ceyhan boru kəmərini və digərlərini qeyd edə bilərəm. Əlbəttə ki, bu, qlobal neft bazarı üçün çox önəmlidir. Xüsusilə də Cənub Qaz Dəhlizi bu baxımdan regional əməkdaşlıq üçün çox önəmlidir. Bu strateji təşəbbüs nəinki Türkiyənin enerji təhlükəsizliyini artırıb, eyni zamanda, Avropanın enerji təhlükəsizliyini və xalqlarımız arasında geosiyasi əlaqələri gücləndirib.

Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi ilə bu yaxında imzalanan Saziş təbii qaz sahəsində əlaqələrimizi daha da gücləndirib. Biz mövcud təbii qaz təchizatını Türkiyə bazarına və Türkiyə vasitəsilə Avropa bazarına çatdırılması ilə bağlı müqavilə imzalamışıq. Bu gün səhər bununla bağlı kommersiya sazişi imzalamışıq.

Biz Azərbaycan Respublikasının Energetika Nazirliyi ilə sıx əməkdaşlıq edirik. Məqsədimiz burada – Naxçıvan ilə Türkiyə arasında qarşılıqlı enerji bağlantısı imkanlarını artırmaqdır. Bu investisiyaların yekunlaşdırılması ilə daha çox yeni yaşıl enerjini təmin edə və bunları Türkiyə bazarına nəql edə bilərik.

Çıxışımı yekunlaşdırmamışdan əvvəl bildirmək istəyirəm ki, Türkiyə bu istiqamətdə enerji layihələrinin regionda əsas vasitəçisi kimi çıxış edir. Belə ki, Türkiyə Şərq ilə Qərb arasında unikal mövqedə yerləşir. Düşünürəm ki, regional əməkdaşlığı daha da təşviq etməklə, enerji təhlükəsizliyini prioritet kimi görməklə biz dayanıqlı və dinamik enerji landşaftı qura bilərik ki, bu da gələcək nəsillərə xidmət edə bilər.

Sonda, cənab Prezident, mən tam əminəm ki, Azərbaycan qarşıdan gələn COP29 konfransına evsahibliyini yüksək şəkildə həyata keçirəcək, iqlim dəyişikliyi ilə bağlı məqsədə çatmaqda böyük uğurlar əldə edəcək.

Mən sizin hamınıza çox gözəl, uğurlu həftə arzu edirəm. Sağ olun.

* * *

**Birləşmiş Ərəb Əmirliklərinin Sənaye və Qabaqcıl Texnologiyalar naziri Sultan Əhməd Əl-Cabir çıxış edərək dedi:**



– Əssalamu əleykum. Sabahınız xeyirli olsun, hər kəsi salamlayıram!

Zati-aliləri, əziz həmkarlar, xanımlar və cənablar!

Həqiqətən də bu gün bu qədər sayda yaxın dostların, tərəfdaşların yanında – Bakıda olmaq bizim üçün böyük məmnuniyyətdir. Düşünürəm ki, bu, olduqca çox mühüm toplantıdır və bu fürsətdən istifadə edərək, mən sizin qarşınızda çıxış edirəm. Qeyd etdiyim kimi, xeyli sayda yaxın dostlarla, tərəfdaşlarla biz burada əhatə olunmuşuq.

İcazənizlə, Birləşmiş Ərəb Əmirliklərinin Prezidenti Zati-aliləri Şeyx Məhəmməd bin Zayed Al Nəhyanın ən xoş arzularını, salamlarını Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri İlham Əliyevə çatdırıram. Eyni zamanda, Azərbaycan xalqına onun salamlarını çatdırıram. Bu fürsətdən istifadə edərək, mən bizim SOCAR-dan olan həmkarlarımıza təşəkkür etmək istəyirəm. Eyni zamanda, Bakı Enerji Həftəsinin təşkilatçılarına öz təşəkkürümü bildirirəm. Olduqca mühüm bir həftədir. Eyni zamanda, bu mühüm tədbirdə iştirak fürsəti yaratdığınıza görə sizə təşəkkür etmək istəyirəm.

Bu il, əlbəttə ki, Azərbaycan üçün olduqca xüsusi əhəmiyyət kəsb edir. Belə ki, Azərbaycan COP29-a evsahibliyi etməyə hazırlaşır. Hazırkı COP prezidenti olaraq Birləşmiş Ərəb Əmirliyi COP29-un sədrliyi ilə sıx əməkdaşlıq etməyə davam edəcək. Əlbəttə ki, burada biz həmkarlarımızla və sədrlərlə daha yaxın əməkdaşlıq etməyə çalışacağıq. Biz bu fürsətdən istifadə edərək, bütün ölkələrə, maraqlı tərəflərə üzümüzü tutaraq deyirik ki, onlar COP29-un heç bir şübhəyə yer qoymayan orqan olmasını təmin etməyə dəstək versinlər. Əlbəttə, bunlar hamısı Dubayda əldə olunan nəticələrin davamı kimi təmin olunacaqdır.

Zati-aliləri, həmkarlar, mənim əziz dostlarım, COP28, həqiqətən də, Birləşmiş Ərəb Əmirliklərinin konsensusunda böyük bir tarix yazmışdır. Belə ki, Paris Sazişi imzalanandan indiyədək iqlim sahəsində böyük nailiyyətlərin əldə olunması ilə bağlı ətraflı ən mühüm nailiyyətlər dəstini ortaya qoymuşdur. Çox mürəkkəb, çətin geosiyasi fonda biz sübuta yetirdik ki, həqiqətən də çoxtərəflilik mövcudluğunu qoruyub saxlamaqdadır və biz nikbinliyi təşviq etmişik. Eyni zamanda, biz bir daha sübut etdik ki, çoxtərəflilik hələ də səmərəli şəkildə həyata keçirilə bilər. Faktiki olaraq deyərdim ki, çoxtərəflilik hələ də canlıdır.

Biz bu məqsədlə dünyanı bir araya gətirdik. Belə ki, temperatur artımını 1,5 dərəcədə normal səviyyədə saxlamaq üçün onun praktiki yolları ətrafında bütün dünyanı bir yerə topladıq. Buna paralel olaraq, dayanıqlılığı təmin etmişik, sosial-iqtisadi inkişafı hər kəs üçün təmin etməyi bacarmışıq. Biz proaktiv şəkildə sənayeni, xüsusilə də neft-qaz sənayesini buraya cəlb etmişik ki, onlar bu həllərə dəstək versinlər. Neft-qaz sektoru, sadəcə, bu həllin bir hissəsi deyil, mən deyərdim ki, faktiki olaraq bu həllərdə aparıcı rola malikdir. Bu məqsədlə biz çox aydın ambisiyalı hədəflər müəyyən etmişik. Məqsədimiz 2030-cu ilədək bərpaolunan enerji potensialını üç dəfə artırmaqdır. Böyük məmnuniyyətlə deyərdim ki, Zati-aliləri, cənab Prezident də qeyd etdiyi kimi, Birləşmiş Ərəb Əmirlikləri və Azərbaycan hazırda üç yeni bərpaolunan enerji layihəsinin təməlqoyma mərasimini qeyd edəcəkdir. Biləsuvar və Neftçala Günəş elektrik stansiyaları, Abşeron–Qaradağ külək layihəsi ilə birlikdə Azərbaycanın artmaqda olan enerji ehtiyaclarını təmin etmək məqsədilə 1 qiqavat təmiz enerji hasil edəcək.

Bütün bunlar faktiki olaraq, Birləşmiş Ərəb Əmirliklərinin tərəfdaşlıq tarixinə yazılmaqdadır. Belə ki, burada məqsəd bu ölkənin yaşıl inkişafını, artımını gücləndirmək və Dayanıqlı İnkişaf Məqsədlərini qlobal şəkildə təşviq etməkdədir. Qeyd etmək istəyirik ki, bu cür praktiki tərəfdaşlıqlar bizim bu sahə üzrə öhdəliyimizi bir daha nümayiş etdirir, eyni zamanda, bizim səmimi niyyətlərimizi və bu sahəyə olan həqiqi marağımızı bir daha ifadə edir. Məqsədimiz burada yaşıl artım gündəliyini inkişaf etdirməkdir.

Həmkarlar, biz əlbəttə ki, hər bir maraqlı tərəfi bu prosesə cəlb etməli və bu yolla maksimum enerji, fəallıq, səy göstərmələrini təmin etməliyik. Mən düşünürəm ki, bu, COP prezidentliyinin, “Troyka”nın əsasında duran bir düşüncədir. Belə ki, COP28, COP29 və COP30-u kompleks şəkildə bir araya gətirməkdə, əlaqə yaratmaqda məqsəd milli öhdəlikli töhfələrlə bağlı növbəti raundlarda hökumətin ambisiyalı fəaliyyətinə dəstək verməkdir. Burada məqsədimiz odur ki, bunları səmərəli şəkildə həyata keçirək. COP29-dan sonrakı məqsədimiz COP30 üçün körpü rolunu oynamaqdır.

*(ardı 3-cü səhifədə)*

# Prezident İlham Əliyev Bakı Enerji Həftəsi çərçivəsində 29-cu “Caspian Oil&Gas” və 12-ci “Caspian Power” sərgilərinin rəsmi açılış mərasimində

*(əvvəli 2-ci səhifədə)*

Hökumətlər tərəfindən həyata keçirilən fəaliyyətlərlə yanaşı, biz əlbəttə ki, özəl sektordan, sənaye sektorundan addımların atılmasını gözləyirik. Əlbəttə ki, burada heç kəs istisna oluna bilməz, heç kəs kənarda oturub gözləyə bilməz. Mən bu fürsətdən istifadə edərək, SOCAR-ın göstərdiyi səyləri alqışlamaq istəyirəm. Mən deyərdim ki, SOCAR COP28-də həyata keçirilən “Neft və Qazın Dekarbonizasiyası Xartiyası”na qoşulan ilk milli şirkətlərdən biridir. Biz bu gün “Neft və Qazın Dekarbonizasiyası Xartiyası”na baxdıqda görürük ki, hazırda bunlar böyük paya sahibdirlər. Hazırda sənayenin 40 faizindən çoxunun 2030-cu ilədək metan tullantılarının səviyyəsini sıfra, 2050-ci ilədək və ondan əvvəl isə xalis sıfra endirməsi öhdəliyini götürməsini təmin etmişik. Hələ də bunu imzalamayanları bu təşəbbüsə qoşulmağa dəvət edirəm. Qısa müddət ərzində kütləvi müsbət təsir yaratmaq üçün sizin gücünüz, resurslarınız və texnologiyalarınız var.

Zati-aliləri, xanımlar və cənablar, bu cür cəsarətli addımları atarkən biz hər zaman praqmatik, real və səmimi olmalıyıq. Bu, sırf bizim daxilimizdən gəlməlidir. Bu, bizim içimizdə olan bir şeydir ki, biz bunları, əlbəttə, COP28-də həyata keçirmişik. Məhz ona görə də bu cür gözlənilməz nəticələrə nail olmuşuq. Odur ki, mən hər kəsə üzümü tutaraq deyirəm ki, müsbət olmağa davam edin, eyni zamanda, praqmatik olmağa davam edin. Biz bunu da etiraf etməliyik ki, enerji keçidi müxtəlif yerlərdə müxtəlif templərlə baş verəcəkdir. Bu, faktiki olaraq bu şəkildə baş verməkdədir. Biz bu reallığı qəbul etməliyik. Qeyd etdiyim kimi, enerji keçidi müxtəlif məkanlarda müxtəlif templərlə baş tutacaqdır. Hər bir sənayenin özü üçün məxsusi həlləri olmalıdır. Əlbəttə ki, heç kəs üçün biz burada eyni həlli tətbiq edə bilmərik. Odur ki, artan enerji tələbatını qarşılamaq üçün bizim hər cür enerji mənbəyinə ehtiyacımız var. Məsələn, bu münasibətlə mən istərdim ki, məlumat mərkəzlərinin artımına diqqət yetirək. Belə ki, bunun genişlənməsinə təkan verən süni intellektin inkişaf etməsidir. Bildiyiniz kimi, hazırda 1600 məlumat mərkəzi mövcuddur. Lakin real proqnozlara əsasən, bu rəqəm 2030-cu ilədək 1600-dən 3000-nə çatacaq. Bütün bunlar, əlbəttə ki, əlavə olaraq minimum 150 qiqavat qoyuluş gücü tələb edir. Bunlar üçün, eyni zamanda, illik 200 milyard kubmetr təbii qaz tələb olunur. Bunlar, əlbəttə ki, bərpaolunan enerji ilə yanaşıdır. Məqsəd burada enerji ilə bağlı ortaya çıxan bu boşluğu aradan qaldırmaqdır.

Burada dəfələrlə praqmatik, real əsaslara qayıtmaq sözlərini ifadə etdik. Burada nəsillər, sadəcə, tənliyin bir hissəsidir. Biz, əlbəttə ki, onların ehtiyatlarını yaxşı başa düşürük. Dayanıqlı, sabit infrastrukturun olması, əlbəttə ki, çox önəmlidir. Belə ki, bunlar istehsal olunan enerjinin nəqli üçün böyük rola malikdir. Süni intellekt, hamımıza məlum olduğu kimi, enerji tələbatına böyük təkan verən amillərdən biridir. Eyni zamanda, süni intellekt emissiyaların azaldılması üçün səmərəliliyə təkan verən digər bir qüvvədir. Faktiki olaraq, süni intellektin inkişafı deyərdim ki, gələcəyimizi formalaşdıran meqatendensiyalardan sadəcə biridir.

Süni intellektin dinamik inkişafı enerjiyə keçid prosesini sürətləndirməklə yanaşı, bütün bunları məsuliyyətli və nizamlı şəkildə həyata keçirməklə ortaya yeni çıxan bazarların yüksəlişi fonunda olduqca çox önəmlidir. Bunlar, əlbəttə ki, meqakeçidlərdir, biz bunları daim nəzərdə saxlamalıyıq. Süni intellekt və enerji arasında əməkdaşlıq nə qədər sıx olarsa, bu o deməkdir ki, daha çox həllər olacaq. Bu həlləri kəşf etməklə dekarbonizasiya edilmiş inkişafı hər yerdə daha dərindən öyrənə bilərik.

Hörmətli həmkarlar, normal sürətlə gedən inkişaf ancaq maliyyə vasitələrinə çıxışla təmin oluna bilər. Burada, əlbəttə ki, mən xeyli həcmdə maliyyə vəsaitindən danışıram. Xüsusilə də qlobal mənbələrlə bağlı bunu qeyd etmək istəyirəm. Faktiki olaraq, mən belə bir faktdan qürurlanıram ki, 100 milyardlıq iqlim maliyyə öhdəliyi nəhayət qarşılanıb. Lakin mən düşünürəm ki, təminatlılıq, çıxış imkanlarının yaradılması, bütün qiymətlərin sərfəliliyinin təmin edilməsi üçün daha çox maliyyə vəsaitinə ehtiyac var. Bir daha təkrarlayıram ki, beynəlxalq maliyyə institutları, çoxtərəfli inkişaf bankları bu baxımdan böyük rol oynaya bilər. Belə ki, onlar yeni ortaya çıxan və inkişaf etməkdə olan bazarların daha çox investisiya cəlb olunması baxımından önəmlidirlər, o cümlədən bir daha qeyd edirəm ki, inkişaf etməkdə olan bazarların investisiya ehtiyaclarını qarşılamaq üçün çox güclü mexanizm rolunu oynayırlar. Düşünürəm ki, özəl sektor bu baxımdan öz səylərini gücləndirməli və milyardları trilyonlara çevirməyə səy göstərməlidir.

COP29 indiyədək digərlərindən fərqli olaraq bu məsələyə xüsusi diqqət yetirəcəkdir və Birləşmiş Ərəb Əmirlikləri yeni innovativ həllərin kəşf olunması prosesinə davam edəcək. “Altira”nı misal göstərmək istəyirəm, COP28 çərçivəsində 30 milyard dollarlıq katalitik iqlim investisiya fonduna start verilmişdir. Bu, sadəcə, həmin həllərdən biridir və innovativ həllərin nə cür nəticələrə gətirib çıxarmasına da bir nümunədir. Bu, xüsusi şəkildə hazırlanmış və ehtiyaclar nəzərə alınaraq yaradılmış fonddur. Belə ki, 200 milyard dollardan çox investisiya növbəti 6 il ərzində təmin olunacaqdır. Düşünürəm ki, bu fond özlüyündə bir örnəkdir və daha geniş maliyyə imkanlarına çıxış əldə etmək üçün bunları daha dərindən öyrənməliyik.

Zati-aliləri, nümayəndələr, həmkarlar, dostlar, xanımlar və cənablar, hazırda biz indiyədək gözlənilməyən çətinliklərlə üz-üzəyik. Bütün bunlara rəğmən, bu çətinliklər arasında bənzəri olmayan iqtisadi fürsətlər, imkanlar yatır. Bu, bizə imkan verir ki, gələcəyimizi yenidən müəyyən edək, dayanıqlılıq trayektoriyasına doğru işlərimizi daha düzgün tənzimləyək. Dayanıqlı iqtisadiyyata keçid, sadəcə, emissiyaların azaldılması ilə bağlı deyil, bu, özündə yeni iş yerlərinin yaradılması, sağlamlığın yaxşılaşdırılması və dünyanın bir çox yerlərində milyardlarla insanın həyat keyfiyyətinin yaxşılaşdırılması deməkdir. Bu, eyni zamanda, ədalət, bərabərlik və dünya üçün bir vəd deməkdir. Belə ki, burada yaşayan hər bir uşaq, – istər Şimalda, yaxud da qlobal Cənubda yaşasın, – onlara daha çox inkişaf etməyə imkan yaradır. Bu, həmrəylik, birlik deməkdir. Bu, sadəcə, ittiham etmək deyil. Kollektiv olaraq bizim üzərimizə böyük bir vəzifə düşür. Biz birləşməli, birlikdə çalışmalıyıq. Birlikdə çalışmalıyıq ki, hər bir uşaq harada doğulmasından asılı olmayaraq, istər Şimalda, yaxud da ki, qlobal Cənubda doğulsun, onların inkişaf etmək fürsətləri, imkanları olsun. Bizim üzərimizə düşən vəzifə, məsuliyyət, cavabdehlik budur ki, biz bunları təmin edə, gerçəkləşdirə bilək. Bu, hər bir xalqı addım atmağa çağıran, hər bir sənayeni, hər bir cəmiyyəti, icmanı və faktiki olaraq, hər bir fərdi daha çox səy göstərməyə, sərhədləri, nəsilləri aşan bu hədəfə xidmət göstərməyə edilən bir çağırışdır. Düşünürəm ki, bunu etməmək üçün heç bir səbəb yoxdur. Odur ki, biz yeni texnologiyaları qəbul etməli, əməkdaşlığı daha çox aşılamalı və transformativ siyasətliliklə bağlı öhdəliyimizə sadiq qalmalıyıq ki, yaşadığımız dünyanı qoruya bilək və hər kəs üçün firavanlığı təmin edək. Hamınızı cəsarətlə və yəqinliklə bu hədəf uğrunda hərəkətə dəvət edirəm. Yadda saxlamaq lazımdır ki, biz müştərək məqsəd üçün birləşirik və bütün bu çətinliklərin öhdəsindən yalnız bu yolla gələ bilərik. Biz COP28-də birləşdik, addımlar atdıq və məqsədlərimizə nail olduq. COP29-a gedərkən, gəlin, bütün bu məqsədlərə nail olmaq üçün səylərimizi daha da gücləndirək və konkret nəticələr ortaya qoyaq. Mən sizin hamınıza təşəkkür edirəm, hamınıza uğurlar arzulayıram. Çox sağ olun.

* * *

**Amerika Birləşmiş Ştatları Dövlət Departamentinin Enerji Ehtiyatları Bürosunun çoxtərəfli enerji diplomatiyası üzrə baş müşaviri Harri Kemian çıxış edərək dedi:**



– Cənab Prezident!

Hörmətli qonaqlar, dostlar və həmkarlar!

ABŞ Hökumətini Bakı Enerji Həftəsində təmsil etmək mənim üçün böyük şərəfdir. Birləşmiş Ştatlar və Azərbaycan güclü ikitərəfli əlaqələrə malikdir. Azərbaycan regionda və Avropada enerji təhlükəsizliyinin irəlilədilməsində etibarlı tərəfdaş olmağa davam edir. COP29-a ev sahibliyi edən ölkə olaraq Azərbaycan etibarlı enerji təchizatçısı kimi iqlim hədəflərinə nail olunması və qlobal enerjiyə keçidin sürətləndirilməsi üçün öz mövqeyindən istifadə edə bilər. Amerika Birləşmiş Ştatları COP tədbirinin uğurla keçirilməsi üçün qarşıdan gələn aylarda Azərbaycanla əməkdaşlıq etmək niyyətindədir. İndi isə Prezident Baydenin Prezident Əliyevə ünvanladığı məktubu diqqətinizə çatdırmaq istərdim.

* * *

**Harri Kemian Amerika Birləşmiş Ştatlarının Prezidenti Cozef Baydenin məktubunu oxudu.**

* * *

**Avropa Komissiyasının Energetika üzrə Baş İdarəsinin direktoru xanım Kristina Lobillo Borrero çıxış edərək dedi:**



– Zati-aliləri Prezident Əliyev!

Azərbaycan Hökumətinin möhtərəm nazirləri!

Bakı Enerji Həftəsinin hörmətli iştirakçıları!

Bizi mötəbər Bakı Enerji Həftəsinə təkrar dəvət etdiyinizə görə sizə Avropa Komissiyası adından təşəkkürümü bildirmək istəyirəm.

Avropa Komissiyasının Prezidenti xanım Ursula Fon der Lyayen, Avropa İttifaqının energetika məsələləri üzrə komissarı Kadri Simson enerji sahəsindəki strateji tərəfdaşlığımıza mühüm əhəmiyyət verirlər. Ortaq məqsədlərimizə nail olmaq üçün yorulmadan çalışdığımız ötən iki il ərzində birlikdə əldə etdiyimiz irəliləyişi həqiqətən təqdir edirlər.

Azərbaycandan Avropaya qaz ixracı 2020-ci ilin axırlarında Cənub Qaz Dəhlizi vasitəsilə başladı. 2021-ci ildən etibarən Azərbaycandan Avropaya qaz təchizatı 40 faizdən çox artmışdır. Məhz bu amil enerji böhranının səbəb ola biləcəyi pis aqibətdən qurtulmaqda və Rusiya yanacağından asılılıqdan digər istiqamətlərə şaxələnməkdə bizim üçün çox faydalı oldu.

Azərbaycan qazının Avropada daha çox istifadəçiyə çatmasını təmin etmək üçün Avropa İttifaqı məkanında infrastrukturu daha da inkişaf etdiririk.

Ölkələr arasındakı qarşılıqlı əməkdaşlıq yaşıl enerjiyə keçid prosesini daha da sürətləndirir. Bu baxımdan, Azərbaycanı yaxın vaxtlarda bütün dünya üzrə 2030-cu ilədək bərpaolunan enerji tutumunu 3 dəfə, enerji səmərəliliyini isə 2 dəfə artırmağa dair Qlobal Öhdəliyə və bütün dünya üzrə cari onillik ərzində metan emissiyalarını minimum 30 faizə qədər azaltmağa dair Qlobal Metan Öhdəliyinə qoşulması münasibətilə təbrik edirəm.

Mən inanıram ki, üzərinə öhdəlik götürən digər tərəfdaşlarımızla birlikdə noyabr ayında Bakıda baş tutacaq BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransında (COP29) bu mühüm öhdəlikləri daha da irəli səviyyəyə yüksəldə bilərik.

Bərpaolunan enerji sahəsində xüsusi əhəmiyyət kəsb edən iki konkret təşəbbüsü də qeyd etmək istəyirəm. Bunlardan birincisi bölgəmizdə yaşıl enerji dəhlizi yaratmaq üçün Azərbaycan, Gürcüstan, Rumıniya və Macarıstan arasında tərəfdaşlıqdır. Digər qonşu ölkələr də bu təşəbbüsə qoşulmağa maraq göstərirlər. Regional səviyyədə infrastrukturun inkişafı və bazarın inteqrasiyasından daha çox fayda əldə etmək üçün tərəfdaşları inklüziv yanaşma tətbiq etməyə çağırıram.

Digər mühüm təşəbbüs Azərbaycanın Energetika Nazirliyi yanında Bərpa Olunan Enerji Mənbələri Dövlət Agentliyi ilə Avropa Külək Energetika Kompleksləri Federasiyası (WindEurope) arasında Xəzər dənizində külək enerjisinin istehsalını inkişaf etdirməyə dair razılıqdır. Azərbaycanın nadir potensialı və ambisiyası ilə Avropa İttifaqının dənizdə külək energetika texnologiyaları sahəsindəki sektor üzrə qlobal liderliyinin olması mükəmməl bir uyğunluq təşkil edir.

Mən hesab edirəm ki, bu təşəbbüslər özündə nəhəng bir potensial daşıyır. Bütün tərəflərin ifadə etdiyi yüksək maraq bir daha göstərir ki, bunlar mümkündür və bunları reallaşdırmaq olar.

Bakının COP29-a evsahibliyi bu baxımdan xüsusi bir imkan daşıyır. Belə ki, enerji təhlükəsizliyimizi gücləndirmək, bərpaolunan enerji sahəsinə sərmayəni artırmaq, sənaye bazalarımızı gücləndirmək, bazar məkanlarında ticarəti təşviq etmək və əsrin ortalarınadək istilik effekti yaradan qazların miqdarını sıfır tullantıya çatdırmaq məqsədilə ölkə iqtisadiyyatlarını buna yönəltməyə dair irəli sürülən ideyaları COP29 çərçivəsində daha aydın şəkildə ifadə etmək olar.

Bütövlükdə, COP29-u ümumdünya uğuruna çevirməkdə Avropa İttifaqının tam dəstəyinə güvənə bilərsiniz.

Dəvətinizə görə bir daha sizə təşəkkür edirəm və hamınıza məhsuldar Bakı Enerji Həftəsi arzulayıram.

* * *

**Neft İxrac edən Ölkələr Təşkilatının (OPEC) Baş katibi Haysam Əl-Qays çıxış edərək dedi:**



– Mərhəmətli və rəhimli Allahın adı ilə başlayıram.

Zati-aliləri Prezident İlham Əliyev!

Zati-aliləri möhtərəm qonaqlar, xanımlar və cənablar!

Hamınızın gününüz xoş olsun. Həqiqətən də hər dəfə Bakı şəhərinə qayıtmaq bizim üçün xoş bir hissiyyatdır. Həqiqətən də bu gün Bakı Enerji Həftəsinin açılış mərasimində olmaq bizim üçün böyük şərəfdir. Azərbaycan Zati-aliləri cənab Prezident İlham Əliyevin rəhbərliyi ilə OPEC-in böyük dostudur, eyni zamanda, əməkdaşlıq bəyannaməsinin dəstəkçisidir. Həm OPEC, həm də qeyri-OPEC neft istehsal edən ölkələr arasında böyük dəstəkçidir. Faktiki olaraq, Zati-aliləri Prezident Əliyev deyərdim, azsaylı qlobal liderlərdən biridir ki, OPEC və qeyri-OPEC istehsalçılarını hələ 2016-cı ildə bir araya gətirmişdir. Belə ki, həmin vaxt əməkdaşlıq haqqında Bəyannamə imzalanıb və o vaxt bu, OPEC+ sazişi kimi tanınmışdır. Zati-aliləri, eyni zamanda, həmin dövrdən etibarən öz dəstəyini daim göstərmişdir. Belə ki, bütün bunların hamısının balanslı, sabit bazarların təmin olunmasında böyük rolu olmuşdur. Bu, sadəcə, neft istehsalçılarının marağında olan məsələ deyil, eyni zamanda, istehlakçıların marağında olan məsələdir. Nəticə etibarilə bunlar daha qlobal iqtisadiyyatın marağında olan məsələdir. Əlbəttə ki, Zati-aliləri fəal şəkildə dəstək vermişdir və mənim əziz dostum Pərviz Şahbazov – Azərbaycan Respublikasının energetika naziri yorulmadan bizim bu ümumi səylərimiz üçün çalışmışdır.

Cənab Prezident, icazənizlə mən istərdim ki, Sizin bu yaxınlarda söylədiyiniz çox əhəmiyyətli fikirlərə diqqət çəkim. Siz dediniz ki, təbii yanacağın zəngin olduğu bir ölkənin rəhbəri olaraq, bu ölkənin hüquqlarını müdafiə edəcəyik, investisiyanı və istehsalı gücləndirəcəyik. Zati-aliləri, əlavə etdiniz ki, bütün bu karbohidrogenlər hamısı Allahdan olan hədiyyədir, nemətdir. Bunlar olduqca çox önəmli sözlərdir. Bu qiymətli nemətlər, resurslar həqiqətən də Allah tərəfindən bizə verilmiş hədiyyədir, nemətdir. Bunlar insanlıq üçün böyük fayda gətirir. Gəlin, bunu unutmayaq.

Neft və ondan hazırlanan məhsullar maşınların, gəmilərin, təyyarələrin, – bizi Bakıya gətirən təyyarələrdir, – onların işləməsini təmin edir, evlərin isidilməsində böyük rol oynayır. Eyni zamanda, neft plastik məhsulların, əczaçılıq məhsullarının, hətta tibbi təchizatların hazırlanmasında böyük rol oynayır. Belə ki, biz çox vaxt bunları ciddi qəbul etmirik. Bu, hələ uzun siyahıda olanların bəziləridir. Bütün bunlar neftin bizim gündəlik həyatımızda rolunu göstərməkdədir. Bu, əlbəttə ki, enerji təhlükəsizliyi baxımından həyati əhəmiyyət daşıyır. Neft həyati əhəmiyyət daşıyır və enerji azlığını aradan qaldırmağa kömək edir və düşünürəm ki, dayanıqlı inkişaf üçün də gələcəkdə də həyati əhəmiyyətini saxlayacaq. Bütün tərəflərin, bunu mən xüsusilə vurğulamaq istəyirəm ki, bütün insanların ehtiyaclarını qarşılamağa kömək edəcək. Bu məsələlər hər zaman aktual olmuşdur. Mən əziz dostum Muxtar Babayevlə görüşəndə bu məsələləri bir daha qeyd etmişdik. Azərbaycan Respublikasının ekologiya və təbii sərvətlər naziri ilə iki həftə əvvəl Vyanada OPEC-in katibliyində görüşmüşdük. Bu möhtərəm komanda ilə yanaşı, OPEC və qeyri-OPEC ölkələrindən olan üzvlərin iştirakı ilə Azərbaycanın inklüziv yanaşma qəbul etməsi bizi həqiqətən də sevindirir. Belə ki, bu inklüziv yanaşma bütün fikirləri, rəyləri, eyni zamanda, neft sektoru ilə yanaşı, digər tərəflərin də fikirlərini əks etdirir.

Fürsətdən istifadə edərək, Zati-aliləri, bir daha Sizi təbrik etmək istəyirəm və COP28-də əldə edilən uğurlara görə Birləşmiş Ərəb Əmirliklərini təbrik etmək istəyirəm.

Zati-aliləri Prezident Əliyev!

Möhtərəm qonaqlar!

Aydın şəkildə qeyd etmək istəyirəm ki, biz OPEC-də Azərbaycanın konstruktiv rolunu yüksək qiymətləndiririk. İnşallah, COP29-un da uğurlu olacağına tam inanırıq. Mən hələ də COP28 deyirəm. Biz Azərbaycanın bu istiqamətdə konstruktiv rolunu yüksək qiymətləndiririk, hər kəsi dinləyirsiniz, praqmatik olursunuz, eyni zamanda, mütərəqqi yanaşmalar ortaya qoyursunuz. Düşünürəm ki, Sizin uzaqgörən siyasətinizin nəticəsində və komandanızla bu, böyük bir uğur olacaqdır və biz bu işdə sizə daim dəstək verməyə hazırıq.

Beynəlxalq əməkdaşlığın və iqlim fəaliyyətinin gücləndirilməsinə diqqət yetirilməsi bu məqsədlərə, prinsiplərə nail olunması baxımından əlbəttə ki, çox önəmlidir. Biz hər bir ölkəyə imkan verməliyik ki, onlar milli şərtləri nəzərə alaraq öz yolunu, trayektoriyasını seçə bilsin və bu zaman bərabərlik və ümumi məsuliyyətləri nəzərə alaraq bunu həyata keçirsinlər. Bütün bunları əlbəttə ki, nəzərə almaq çox vacibdir. Düşünürəm ki, bu trayektoriyadır, yoldur. Biz milyardlarla insanın fərqli şəraitini, ayrı-ayrı xalqların fərqli şəraitlərini, kontekstlərini nəzərə almalıyıq. Milyardlarla insan hələ də enerji çatışmazlığından əziyyət çəkir. Bildiyiniz kimi, milyardlarla insanın hələ də təməl, müasir enerji xidmətlərinə çıxışı yoxdur. Bundan ən ağrılısı isə çoxunun hətta nə nəqliyyat vasitəsi var, yaxud da yaşadığı ölkədən başqa ölkəyə heç vaxt səfər etməyiblər. Odur ki, gələcək enerji trayektoriyasında da bu məsələlər nəzərə alınmalıdır və onun əhəmiyyəti vurğulanmalıdır. Bütün insanlar, bütün enerjilər, bütün texnoloji yanaşmalar burada ehtiva olunmalıdır. OPEC-də biz bu yanaşmanı tam dəstəkləyirik. Neft sahəsinə investisiya yatırmaqla yanaşı, bizim ölkələrimiz, o cümlədən Birləşmiş Ərəb Əmirlikləri və tərəfdaş ölkələrimiz, həmçinin Azərbaycan qaz sahəsinə, bərpaolunan enerji sahəsinə və bildiyimiz kimi, karbon emissiyalarının azaldılması texnologiyalarına investisiya yatırırlar.

Həmçinin biz Azərbaycanın ambisiyalı planını alqışlayırıq, bu sahədə təşəbbüslərini yüksək dəyərləndiririk. Eyni zamanda, dənizdə külək enerjisi, günəş elektrik stansiyaları kimi təşəbbüsləri yüksək qiymətləndiririk. Düşünürəm ki, bu, olduqca çox vacibdir. Nəzərə alsaq ki, 2040-cı ilədək qlobal enerji tələbatında 23 faiz artım olacaqdır.

Zati-aliləri, möhtərəm qonaqlar, xanımlar və cənablar.

Biz OPEC olaraq inanırıq və mən bir daha sitata istinad etmək istəyirəm ki, bu enerji Allahdan olan bir nemətdir. Cənab Prezidentin sözlərini burada bir daha xatırlatmaq istəyirəm. Odur ki, hər birimiz gələcək enerji ilə bağlı ən ədalətli yolu seçməliyik. Bu, elə bir yol olmalıdır ki, enerji təhlükəsizliyini təmin etsin və sosial-iqtisadi inkişafın qarşısında maneə, əngəl təşkil etməsin. O, həmçinin zəruri investisiyaların bütün enerji sahələrinə, texnologiyalara yatırılmasına və əlbəttə ki, emissiyaların qarşısının alınmasına kömək etsin.

Cənab Prezidentin çox hikmətli sözlərini nəzərə alaraq, mən əminəm ki, Azərbaycan bütün bu məsələlərin əhəmiyyətini yaxşı anlayır. Xüsusilə nəzərə alsaq ki, bu ölkə, Bakı şəhəri, bildiyiniz kimi, müasir neft sənayesinin beşiyi hesab olunur. Neft sənayesində bir çox inqilablar, inkişaflar burada baş verib. İlklərə imza atan bir ölkə olaraq burada böyük dühalar, dahi insanlar yetişmişdir və dünyanın inkişafına böyük töhfə vermişdir. Bütün bunlara şahid olmaq üçün, sadəcə, Bakıda gəzmək məncə, kifayət edir. Azərbaycan neftin qədrini bilir, dəyərini bilir və eyni zamanda, dünyaya indiyədək verdiyi faydaları yaxşı başa düşür.

Zati-aliləri, möhtərəm qonaqlar, xanımlar və cənablar, çox uğurlu Bakı Enerji Həftəsinə görə təşkilatçılara və nümayəndələrə təşəkkür edirəm. Cənab Prezident, məni dinlədiyinizə görə Sizə təşəkkür edirəm.

* * *

**Beynəlxalq Bərpaolunan Enerji Agentliyinin (IRENA) Baş direktoru Françesko La Kamera çıxış edərək dedi:**



– Cənab Prezident, əziz Zati-aliləri!

Hörmətli qonaqlar, cənab nazirlər!

Xanımlar və cənablar!

Sabahınız xeyir olsun!

Bu gün Bakı Enerji Həftəsində sizin sıralarınıza qoşulmaq mənim üçün xüsusi şərəfdir. Bugünkü müzakirələr mühüm əhəmiyyət kəsb edir, belə ki, biz birlikdə dayanıqlı enerji gələcəyinin kursunu müəyyən edirik.

COP28 bizim ortaq missiyamızın nə dərəcədə vacib olduğunu bir daha vurğulamışdır. 2030-cu ilədək bərpaolunan enerji tutumunu 3 dəfə və enerji səmərəliliyini 2 dəfə artırmağa dair öhdəliklər ambisiyalı olmaqla yanaşı, sıfır tullantıya nail olmaq yolunda mühüm mərhələləri özündə ehtiva edir.

Əgər biz hər kəs üçün təhlükəsiz iqlimli və enerji təminatlı gələcək istəyiriksə, onda bərpaolunan enerji tətbiqi mümkün yeganə effektiv həlldir.

Qeyd edəcəyim dayaqlar bərpaolunan enerjidən istifadəni sürətləndirməyi dəstəkləmək və strukturla bağlı zəruri dəyişiklikliyə təkan vermək üçün özül formalaşdırır. Bunun üçün əvvəlcə yeni istehsalat məntəqələrini yerləşdirmək, ticarət imkanları və tələbat mərkəzlərini formalaşdırmaq, eləcə də regionlar və ölkələr arasında qarşılıqlı bağlantılar qurmaq üçün zəruri infrastruktur yaradılmalı, şəbəkələr, quru və dəniz marşrutlarına sərmayə yatırılmalıdır.

İkincisi, nəzərdə tutulan sərmayələri yatırmağa kömək edən inkişaf etməkdə olan siyasəti və tənzimləyici qanun arxitekturasını daha da təkmilləşdirməkdir.

Nəhayət, qurulmasını planlaşdırdığımız enerji sistemi ilə bacarıq və qabiliyyətlər arasında uzlaşmanı təmin etməyə kömək məqsədilə institusional potensial imkanları strateji baxımdan təkrar tənzimləməliyik.

Enerjiyə keçid özü ilə mühüm sosial-iqtisadi faydalar, o cümlədən, ümumi daxili məhsulda (ÜDM) artım, yeni iş yerlərinin yaradılması və əhalinin rifahının yüksəldilməsi kimi faydalar gətirir.

Enerji səmərəliliyi, elektroenergetika sistemləri və enerji elastikliyi (manevr imkanları), nəqliyyat vasitələrinin elektrik enerjisi ilə yüklənməsi infrastrukturu və hidrogenə sərmayənin yatırılması iş imkanlarının xeyli artması ilə nəticələnə bilər. Hazırda mövcud olan 15 milyon iş yeri sayını 81 milyona çatdıra bilər.

Bununla belə, buna nail olmaq üçün düşüncələrdə dəyişikliyin olması zəruridir. Belə ki, ənənəvi yanaşmalardan əmtəə hesab edilən enerji təhlükəsizliyinə və sənaye təmərküzlü yanaşmadan daha çoxistiqamətli yanaşmaya keçid olmalıdır. Bu çoxistiqamətli yanaşmada enerji təhlükəsizliyinin tələb aspekti, regional ticarət, infrastrukturun təhlükəsizliyinin təmin olunması və yüksək bərpaolunan elektrik enerjisi sistemləri ətrafında konsentrasiya olmalıdır.

Aydın məsələdir ki, bu yeni enerji sisteminə keçiddə energetika müəssisələri aparıcı rol oynayacaq.

Elə bu səbəbdən ötən il IRENA Sıfır Tullantı Alyansında Energetika Müəssisələrini (UNEZA) təsis etdi. UNEZA Afrika, Yaxın Şərq və Asiyadan 27 qlobal energetika və enerji şirkətlərindən təşkil olunub, 2030-cu ilin qabaqcıl məqsədlərinə və 2050-ci ilə kimi isə sıfır tullantılı gələcəyə nail olmaq üçün elektrikləşdirmə, bərpaolunan enerjini qəbula hazır şəbəkələr və təmiz enerjinin tətbiqi sahələrini inkişaf etdirmək ətrafında birləşiblər. UNEZA beynəlxalq əməkdaşlıq, biliklərin paylaşımı və enerjiyə keçid prosesində mövcud maneələri aradan qaldırmaq üçün həllərin müəyyən olunması baxımından mühüm bir platforma kimi çıxış edir.

Azərbaycanda yaşıl enerjiyə keçid prosesinə dəstək vermək üçün COP29-un ilk həftəsində Bakıda Mərkəzi Asiya üzrə İnvestisiya Forumu təşkil edəcəyik. Bu forum özündə ikili məqsəd daşıyacaq.

*(ardı 4-cü səhifədə)*

# Prezident İlham Əliyev Bakı Enerji Həftəsi çərçivəsində 29-cu “Caspian Oil&Gas” və 12-ci “Caspian Power” sərgilərinin rəsmi açılış mərasimində



*(əvvəli 3-cü səhifədə)*

Birincisi, bərpaolunan enerji sahəsinə investisiya yatırmaq üçün əlverişli qanunvericilik mühitinin formalaşması, ikincisi isə uzlaşdırma proqramı vasitəsilə layihəçilərlə potensial maliyyəçilər arasında əlaqələrin yaradılması məqsədidir. Sözügedən Forum bərpaolunan enerjinin 3 dəfə artırılması və Milli Səviyyədə Müəyyən Edilmiş Töhfələrin icrası istiqamətində sürətli və konkret bir addım kimi xüsusiyyət daşıyacaq.

Biz enerjinin planlaşdırılması zamanı aşağıdan yuxarıya yanaşmanı aşılamaq, ən yaxşı investisiya layihələrini müəyyən etmək üçün hökumətlər və investorlarla sıx işləmək və Enerjiyə Keçidin Sürətləndirilməsi üzrə Maliyyə Platforması (ETAF) vasitəsilə maliyyələşdirməyə dəstək vermək istəyirik. Bunun üçün hökumətlərlə və eyni zamanda, investorlarla sıx əməkdaşlığın əhəmiyyətini aşılayırıq. Dediyim kimi, bunlar bu prosesin maneəsiz həyata keçirilməsinə kömək edir və bu xüsusi gündə digər bir mərasim qeyd olunur.

Mərkəzi Asiya IRENA üçün prioritetdir. Ayrı-ayrı ölkələrdə enerjiyə keçid prosesinə dəstək vermək üçün hökumətlər və şirkətlərlə sıx əməkdaşlıq etmək istəyirik. Yeni enerji sisteminin qurulması, sadəcə, texniki vəzifə deyil, bu, bütün maraqlı tərəflərin davamlı öhdəliyini və əməkdaşlığını zəruri edən kollektiv bir səydir.

Diqqətinizə görə təşəkkür edirəm, çox sağ olun.

* * *

Sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Birləşmiş Ərəb Əmirliklərinin sənaye və qabaqcıl texnologiyalar naziri Sultan Əhməd Əl-Cabir tədbir çərçivəsində Neftçala, Biləsuvar Günəş elektrik stansiyalarının və Abşeron–Qaradağ Külək Elektrik Stansiyasının təməlini qoydular.

Yeni stansiyalar barədə videoçarx nümayiş olundu.

* * *

Daha sonra dövlətimizin başçısı Bakı Enerji Həftəsi çərçivəsində 29-cu Beynəlxalq Xəzər Neft və Qaz – “Caspian Oil&Gas” və 12-ci Xəzər Beynəlxalq Energetika və Yaşıl Enerji – “Caspian Power” sərgiləri ilə tanış oldu.

Azərbaycan Respublikası Dövlət Neft Şirkəti – SOCAR sərgidə geniş təmsil olunur. Dünyada tanınmış və regionun ən böyük neft şirkətlərindən olan SOCAR-ın əsas missiyası Azərbaycan Respublikasının yanacaq-enerji təhlükəsizliyini və neft-qaz, neft-kimya sənayesinin inkişafı üzrə strateji maraqlarını təmin etmək, qabaqcıl və ekoloji təmiz texnologiyalardan istifadə edərək ölkənin elmi-texniki, iqtisadi və intellektual potensialının artırılmasına dəstək olmaq, regional və beynəlxalq enerji layihələrində həlledici mövqe tutmaq, karbohidrogen ehtiyatlarının və emal məhsullarının daxili və xarici bazarlarda satışından maksimal mənfəət əldə etməkdir. Şirkət, həmçinin Azərbaycan ərazisindəki neft və qaz yataqlarının axtarışını, kəşfiyyatını və işlənməsini, neftin, qazın və qaz kondensatının hasilatını, emalını və nəqlini, neft və neft-kimya məhsullarının, qazın daxili və xarici bazarlarda satışını, habelə ölkə ərazisində sənayenin və əhalinin təbii qazla təchizatını həyata keçirir.

Prezident İlham Əliyev “BP–Azərbaycan”ın stendinə baxdı. BP şirkəti dünyanın ən tanınmış enerji təchizatçılarından biridir. Mühüm enerji mənbələrinin təhlükəsiz işlənilməsi və hasilatı ilə məşğul olan BP insanlara enerji təminatı istiqamətində müxtəlif həllər təklif edir. 2020-ci ilin fevral ayında BP öz yeni məramını, “xalis sıfır” hədəfini və məqsədlərini elan etdi, insanlar və planetimiz üçün enerji haqqında təsəvvürləri yeniləmək planları olduğunu bildirdi. BP şirkəti Azərbaycanda 31 ildən çoxdur ki, fəaliyyət göstərir və beş böyük enerji layihəsinin operatorluğunu təhlükəsiz və etibarlı şəkildə həyata keçirir. Bu vaxtadək BP öz tərəfdaşları ilə birlikdə ölkədəki layihələrə təxminən 84 milyard dollar sərmayə qoyub və on minlərlə iş yeri yaratmaqla və genişmiqyaslı sosial sərmayə fəaliyyətləri həyata keçirməklə yerli icmalara müsbət təsir göstərib.

Dövlətimizin başçısı “TotalEnergies”in stendi ilə də tanış oldu. “TotalEnergies” şirkəti Azərbaycanda 1996-cı ildən fəaliyyət göstərir, “Abşeron” qaz-kondensat yatağında 35 faiz və BTC boru kəmərində 5 faiz paya sahibdir. “Abşeron” qaz-kondensat yatağının işlənilməsinin birinci fazasının hasilatına 2023-cü il iyul ayının əvvəlində başlanılıb. Gündəlik hasilat gücü 4 milyon kubmetr qaz və 12 min barel kondensat həcmindədir. Qaz Azərbaycanın daxili bazarında satılır.

Çin Xalq Respublikasının “Jınko Solar” şirkəti də sərgidə təmsil olunur. Şirkətin stendi ilə tanışlıq zamanı bildirildi ki, “Jinko Solar Co., Ltd” günəş texnologiyası sahəsində dünyada məşhurdur. Şirkət günəş enerjisi panellərinin hərtərəfli tədqiqi, inkişafı və istehsalı üzrə ixtisaslaşıb və təmiz enerji sahəsində hərtərəfli həllər təqdim edir. “Jinko Solar” məhsullarını dünyanın 190-dan çox ölkəsinə ixrac edir. Beş ildir ki, şirkət modul tədarükü sahəsində dünya liderliyini qoruyur.

Dövlətimizin başçısı Amerika Birləşmiş Ştatlarının “Schlumberger” (SLB) şirkətinin stendi ilə tanış oldu. Bildirildi ki, SLB enerji sahəsində texnologiya şirkətidir. SLB qlobal enerji sənayesinin məhsuldarlığını, davamlılığını təmin etmək üçün qabaqcıl rəqəmsal həllər, innovativ texnologiyalar tətbiq edir və şirkətdə 160-dan çox millətin nümayəndəsi çalışır. Şirkət 120-dən çox ölkədə iş təcrübəsi ilə ümumi mənafe və yeni texnologiya yaratmaq üçün əməkdaşlıq edir.

İtaliyanın “Tenaris” şirkəti isə qlobal enerji sənayesi və bir sıra digər sənaye tətbiqləri üçün boruların və əlaqəli xidmətlərin aparıcı istehsalçısıdır. Şirkət 16 ölkədə polad məhsullarının istehsalı ilə məşğuldur.

“Uzbekneftegaz" ASC-nin stendi ilə tanışlıq zamanı bildirildi ki, müəssisə neft və qazın hasilatı, saxlanması, emalı və satışı ilə məşğuldur və Özbəkistanın ən böyük dövlət şirkətidir. ASC təbii qaz hasilatına görə dünyada 11-ci yerdədir. Neft və qaz sənayesinin fəaliyyəti geoloji kəşfiyyat, neft və qaz yataqlarının işlənilməsi, qazma, hasilat, karbohidrogenlərin emalı, neft məhsulları, neft və qaz, kimya avadanlıqlarının istehsalına qədər bütün neft və qaz əməliyyatları zəncirini əhatə edir və istehlakçıları neft məhsulları ilə təmin edir.




Birləşmiş Ərəb Əmirliklərinin ADNOC şirkəti sabahın təmiz enerji sistemlərinə sərmayə qoyarkən, bu günün enerjisini daha təmiz etmək üçün transformativ addımlar atan mütərəqqi beynəlxalq enerji şirkətidir. Tam inteqrasiya olunmuş müəssisələrdən ibarət ADNOC şəbəkəsi enerji dəyər zəncirində fəaliyyət göstərir və daim dəyişən enerji bazarının tələblərini məsuliyyətlə qarşılamağa kömək edir.

Birləşmiş Ərəb Əmirliklərinin “Masdar” şirkətinin stendi ilə tanışlıq zamanı bildirildi ki, “Masdar” ölkənin təmiz enerji çempionu və qlobal davamlılıq problemlərini həll etmək üçün bərpaolunan enerji və yaşıl hidrogen texnologiyalarının inkişafını və tətbiqini genişləndirərək dünyada öz sahəsinin ən böyük şirkətlərindən biridir. 2006-cı ildə yaradılan “Masdar” bu gün 40-dan çox ölkədə fəaliyyət göstərir və onlara təmiz enerji məqsədlərinə nail olmaqda və davamlı inkişaf etməkdə kömək edir. Şirkət Azərbaycanda ümumi gücü 10 qiqavatadək olan bərpaolunan enerji mənbələri layihələri üzrə müqavilələr imzalayıb. Hazırda gücü 230 meqavat olan Qaradağ Günəş Elektrik Stansiyasının inşası layihəsini icra edir. “Masdar” ən azı 100 qiqavatlıq bərpaolunan enerji portfelini hədəfləyir.

Prezident İlham Əliyev Səudiyyə Ərəbistanı Krallığının “ACWA Power” şirkətinin stendi ilə tanış oldu. Məlumat verildi ki, “ACWA Power” 13 ölkədə istismarda, tikintidə və ya təkmil inkişafda olan 82 aktivə sahib enerji istehsalı və duzsuzlaşdırılma üzrə su stansiyalarının tərtibatçısı, investoru və operatorudur. “ACWA Power”də 4000-dən çox işçi çalışır. “ACWA Power”in portfeli 55,1 qiqavat enerji istehsalı və gündə 8 milyon kubmetr duzsuzlaşdırılmış su istehsal gücünə malikdir. Şirkət bu il fevralın 29-da Cənubi Qafqaz regionunda ən böyük külək enerjisi layihəsi olan 240 MVt-lıq Xızı-Abşeron Külək Elektrik Layihəsi üzrə saziş imzalayıb. Şirkət bu il mayın 3-də 200 MVt Batareya Enerji Saxlama Sazişi də imzalayıb. Bu, Cənubi Qafqaz regionunda ilk Batareya Enerji Saxlama layihəsidir. Həmçinin “ACWA Power” SOCAR



ilə 2024-cü ilin aprelində yaşıl gübrələrlə bağlı əməkdaşlıq sazişi imzalayıb.

Rusiya Federasiyasının “Tatneft” şirkəti neft və qaz hasilatı, neft emalı, neft-kimya, şin biznesi, yanacaqdoldurma məntəqələri şəbəkəsi, kompozit klaster, elektrik enerjisi sənayesi, neft və neft üçün avadanlıqların hazırlanması və istehsalı sahələrində dinamik inkişaf edən qabaqcıl şirkətlərdən biridir. Şirkət qaz sənayesi və xidmət strukturları bloku üzrə ixtisaslaşıb.

Sərgidə Qazaxıstan Respublikası tərəfdən Trans-Xəzər Beynəlxalq Nəqliyyat Marşrutu stendi də qurulub. Beynəlxalq Trans-Xəzər Nəqliyyat Marşrutu qədim “İpək yolu” dövründə olduğu kimi, indi öz fəaliyyətinə başlayan yeni “İpək yolu” üzərində bu gün bir sıra ölkələrin və şirkətlərin maraqlarını təmsil edən birləşdirici təşkilatdır. Baş ofisi Qazaxıstanda yerləşən assosiasiyanın üzvləri arasında Azərbaycanın Dəmir Yollarını, Xəzər Dəniz Gəmiçiliyini, Bakı Ticarət Limanını qeyd etmək olar.



Builki sərgidə Almaniya Milli Pavilyonla iştirak edir. Pavilyonda alman şirkətləri ilə əlaqələr yaratmaq, peşəkar vasitəçi xidmətləri almaq mümkündür. Həmçinin mühüm biznes məkanı kimi Almaniya barədə kompleks məlumatlar əldə etmək olar.

“Türkiyə Petrolları A.O.” (TPAO) 70 illik təcrübə ilə öz biznes fəaliyyətini – kəşfiyyat və hasilatı genişləndirməkdədir. Milli neft şirkəti olaraq TPAO-nun əsas məqsədi “Enerjidə müstəqil Türkiyə” ideyasına töhfə verməkdir. Bu məqsədə çatmaq üçün TPAO bir sıra ölkələrdə, o cümlədən Azərbaycan, Şimali Kipr, İraq, Əfqanıstan və Rusiyada fəaliyyət göstərir. TPAO 1994-cü ildən Azərbaycanda investordur və “Şahdəniz” (19 faiz), CQBK (19 faiz) “Azəri-Çıraq-Günəşli” (5,73 faiz), BTC (6,53 faiz) layihələrində iştirak payına malikdir.

* * *

Prezident İlham Əliyev sərginin xatirə kitabını imzaladı.

Dövlətimizin başçısına xatirə hədiyyəsi təqdim edildi.

Sonda birgə foto çəkdirildi.

* * *

Regionun enerji sahəsində mühüm hadisəsi olan Bakı Enerji Həftəsi iyunun 6-dək davam edəcək. “Caspian Oil&Gas” və “Caspian Power” sərgilərini özündə birləşdirən Bakı Enerji Həftəsi bütün dünyanın enerji sənayesi sahəsində mövcud olan liderlərini bir araya gətirir və bununla da diqqəti Azərbaycana cəmləşdirir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Bakı Enerji Həftəsinin açılış mərasimində iştirakı bu tədbirin yüksək statusunu təsdiqləyir.

Bakı Enerji Həftəsi çərçivəsində keçirilən tədbirlərə Azərbaycan Respublikasının Energetika Nazirliyi dəstək göstərir, Azərbaycan Respublikası Dövlət Neft Şirkəti (SOCAR) isə baş tərəfdaş qismində çıxış edir.

Bakı Enerji Həftəsində 37 ölkədən 300-dək şirkət iştirak edir. Bu ölkələr arasında İsveç, Hindistan və Sloveniyadan olan şirkətlər ilk dəfədir tədbirə qatılırlar. Builki sərginin tərkibi iştirakçıların ümumi sayının 15 faizini təşkil edən yeni şirkətlər hesabına yenilənib. Onların əksəriyyəti Azərbaycanın yaşıl enerji sahəsinə yüksək maraq göstərən iştirakçılardır. Sərgi sahəsinin 40 faizi isə tanınmış şirkətlərə, bu mühüm tədbirin daimi iştirakçılarına məxsusdur.

Bu il Bakı Enerji Həftəsi əhəmiyyətli bir hadisəyə təsadüf edir. Belə ki, bu il respublikanın neft tarixində yeni dövrün əsasını qoymuş “Əsrin müqaviləsi”nin imzalanmasından 30 il ötür. Bu mühüm tədbir Bakı Enerji Həftəsinin proqramında da öz əksini tapıb. “Əsrin müqaviləsi” görkəmli siyasi və dövlət xadimi, ümummilli lider Heydər Əliyevin banisi olduğu Azərbaycanın energetika strategiyasının əsas istiqamətini müəyyən edən və Azərbaycanı dünyanın neft ixracatçılarından birinə çevirən təməl hesab edilir. Məhz “Əsrin müqaviləsi” ilə müstəqil Azərbaycanın neft strategiyasının əsası qoyulub.

Eyni zamanda, bu il Beynəlxalq Xəzər Neft və Qaz (“Caspian Oil&Gas”) sərgisinin təsis edilməsindən 30 il ötür. Azərbaycanda beynəlxalq sərgilərin keçirilməsi təşəbbüsü müstəqil Azərbaycan dövlətinin qurucusu Heydər Əliyev tərəfindən irəli sürülüb. 1994-cü ildə ümummilli lider Heydər Əliyev Azərbaycanın neft-qaz sənayesində ilk ixtisaslaşdırılmış sərginin keçirilməsi təşəbbüsünü dəstəkləyib və həmin dövrdən etibarən “Caspian Oil&Gas” sərgisi neft, qaz və energetika sahəsində aparıcı peşəkarların görüş yerinə çevrilib.

Ənənəvi enerji resursları sənayesini inkişaf etməkdə olan yaşıl enerji istiqamətləri ilə birləşdirən Bakı Enerji Həftəsi bu sahədə irəliləyişlərə və ən yaxşı təcrübələrə zəmin yaradır. Belə ki, 2024-cü ildə Bakı Enerji Həftəsi daha bir əhəmiyyətli hadisəyə təsadüf edir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərəncamı ilə 2024-cü il Azərbaycanda “Yaşıl dünya naminə həmrəylik ili” elan edilib. Bu əlamətdar hadisə Bakı Enerji Həftəsinin tədbirlər proqramında yer alıb.

BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası – COP29 kimi mötəbər tədbirin təşkilinin Azərbaycana həvalə edilməsi ölkənin dünyada beynəlxalq və genişmiqyaslı təbirlərin uğurlu təşkilatçısı statusunu bir daha təsdiqləyir.

Xəzər regionunun əsas neft-qaz layihələri və regionda enerji təhlükəsizliyi “Caspian Oil&Gas” sərgisində müzakirə olunacaq. Sərginin əhatə etdiyi mühüm bölmələrə neft və qaz yataqlarının işlənməsi, neft və qazın nəqli və hasilatı, telekommunikasiya və İT, neft və qaz emalı, enerji sektorunda tikinti-quraşdırma işləri, innovativ texnologiyalar və s. daxildir. Sərgidə süni intellekt, qazma sahəsi, eləcə də neft və qeyri-qaz məhsullarının istehsalı və saxlanması ilə bağlı yeniliklər də təqdim ediləcək.

Xəzər Beynəlxalq Energetika və Yaşıl Enerji (“Caspian Power”) sərgisində isə beynəlxalq və yerli şirkətlərin energetika və bərpaolunan enerji mənbələrinin inkişafı və istifadəsi sahəsindəki yeniliklər və bununla bağlı təkliflər gündəmdə olacaq. Sərgidə günəş enerjisi, külək enerjisi, geotermal enerji, istilik energetikası, nüvə enerjisi, maşınqayırma və enerji avadanlıqları, elektrik nəqliyyat vasitələri və elektromobillər, enerji və resurslara qənaət edən texnologiyalar və digər sektorlar üzrə məhsul və xidmətlər, eləcə də yeni layihələr nümayiş olunacaq. Sərgi çərçivəsində bir sıra sessiyalar və panel müzakirələri də təşkil ediləcək.

Bakı Enerji Həftəsi çərçivəsində təşkil ediləcək daha bir mötəbər tədbir isə Bakı Enerji Forumudur. Forumda həm Azərbaycan, həm də Xəzər regionu üçün vacib olan enerji məsələləri gündəmdə olacaq. Foruma 600-dən çox nümayəndənin qatılacağı gözlənilir. COP29 ərəfəsində Bakı Enerji Forumunun proqramına “Yaşıl dünya naminə. COP29 strateji inkişaf yolları” adlı xüsusi sessiya da əlavə edilib. Sessiyada məruzəçi qismində iştirak etmək üçün digər ölkələrdən xüsusi qonaqlar dəvət olunub.

Onu da qeyd edək ki, Bakı Enerji Həftəsi çərçivəsində baş tutacaq tədbirlər zamanı ikitərəfli işgüzar görüşlər (B2B, B2G) keçiriləcək.

***AZƏRTAC***

# Türkiyə ilə enerji əməkdaşlığının gündəliyi genişdir



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 4-də Türkiyə Respublikasının Energetika və Təbii Sərvətlər naziri Alparslan Bayraktarı qəbul edib.**

Görüşdə Bakı Enerji Həftəsi çərçivəsində keçirilən 29-cu Beynəlxalq Xəzər Neft və Qaz və 12-ci Xəzər Beynəlxalq Energetika və Yaşıl Enerji sərgilərinin önəmi qeyd edildi.

Dövlətimizin başçısı 1996-cı il iyunun 4-də "Şahdəniz" yatağına dair Sazişin imzalandığını xatırlayaraq, məhz bu gün Azərbaycan Respublikası Dövlət Neft Şirkəti – SOCAR ilə Türkiyənin BOTAŞ şirkəti arasında təbii qaz təchizatı, nəqli və tranziti sahəsində bir sıra müqavilələr imzalanmasının böyük önəm daşıdığını dedi.

Alparslan Bayraktar qeyd etdi ki, Azərbaycan və Türkiyə dövlət başçılarının liderliyi ilə ölkələrimiz bir çox mühüm layihələr həyata keçirib və əməkdaşlığımız genişlənir. O, xüsusilə enerji sahəsinə toxunaraq, Türkiyə Petrolları (TPAO), BOTAŞ və SOCAR-ın əməkdaşlığının həm Türkiyənin daxili bazarı, həm də sənayesinin inkişafı üçün əhəmiyyətini vurğuladı. Qonaq SOCAR-ın Türkiyədə böyük sərmayədar olduğunu deyərək, Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin qardaş ölkədəki fəaliyyətini məmnunluq hissi ilə qeyd etdi. O, Avropanın enerji təhlükəsizliyində Azərbaycanın roluna toxundu.

Alparslan Bayraktar ölkəmizin Prezident İlham Əliyevin rəhbərliyi ilə böyük inkişafa nail olduğunu deyərək, Azərbaycanın enerji, o cümlədən, bərpaolunan enerji sahəsində də uğurlar qazandığını qeyd etdi, ölkələrimizin bu istiqamətdə əməkdaşlığının bundan sonra da genişlənəcəyinə əminliyini bildirdi.

Qonaq Azərbaycan və Türkiyə prezidentlərinin iştirakı ilə ötən il Naxçıvanda Azərbaycanda və Türkiyədə bərpaolunan enerji mənbələrindən istehsal edilən elektrik enerjisinin ötürülməsi sahəsində əməkdaşlığa dair Anlaşma Memorandumunun imzalanmasını və İğdır–Naxçıvan qaz kəmərinin təməlinin qoyulmasının önəmini bir daha qeyd etdi və bu layihənin 2024-cü ildə yekunlaşacağına ümidvar olduğunu dedi.

Dövlətimizin başçısı Türkiyə Prezidentinin bugünkü tədbirlə bağlı məktubuna görə minnətdarlığını bildirdi.

Prezident İlham Əliyev İğdır–Naxçıvan qaz kəmərinin təməlinin qoyulmasından qısa müddət sonra Naxçıvanda boru kəmərinin hazır vəziyyətdə olacağını məmnunluqla qeyd etdi. Dövlətimizin başçısı bu layihənin Naxçıvanın elektrik enerjisi istehsalı və təbii qazla təchizatı baxımından çox önəmli layihə olduğunu dedi.

Enerji sahəsində əməkdaşlığımızın geniş gündəliyə malik olduğunu qeyd edən Azərbaycan Prezidenti bu gündəliyin təbii qaz, neft, bərpaolunan enerji növləri, Türk Prezidenti SOCAR ilə birlikdə başqa ölkələrdə birgə fəaliyyəti və digər sahələri əhatə etdiyini vurğuladı.

Ölkələrimiz arasında enerji sahəsində nəhəng layihələrin həyata keçirildiyini deyən dövlətimizin başçısı Azərbaycan–Türkiyə birliyinin bütün sahələrdə olduğu kimi, enerji məsələsində də özünü göstərdiyini qeyd etdi.

Prezident İlham Əliyev hazırda Azərbaycan təbii qazının 8 ölkəyə ixrac edilməsinin əhəmiyyətinə toxundu və bu sahədə əməkdaşlığın gələcəkdə daha da genişlənəcəyinə əminliyini bildirdi.

# Bərpaolunan enerji ilə bağlı BƏƏ-nin ölkəmizə dəstəyi önəmlidir



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 4-də Birləşmiş Ərəb Əmirliklərinin Sənaye və Qabaqcıl Texnologiyalar naziri Sultan Əhməd Əl-Cabiri qəbul edib.**

Dövlətimizin başçısı ölkələrimiz arasında ikitərəfli münasibətlərin müxtəlif sahələrdə uğurla inkişaf etdiyini qeyd edərək, Birləşmiş Ərəb Əmirliklərinin Prezidenti Şeyx Məhəmməd bin Zayed Əl Nəhyanın bu ilin əvvəlində Azərbaycana rəsmi səfərinin əhəmiyyətinə toxundu. Prezident İlham Əliyev bu gün Neftçala, Biləsuvar Günəş elektrik stansiyalarının və Abşeron–Qaradağ Külək Elektrik Stansiyasının təməlinin qoyulmasını dostluq və qardaşlıq münasibətlərimizin nümayişi kimi dəyərləndirdi. Dövlətimizin başçısı təməlqoyma mərasiminin iyunun 4-də keçirilməsinin rəmzi xarakter daşıdığını deyərək, məhz 1996-cı ilin bu günündə "Şahdəniz" yatağına dair sazişin imzalandığını qeyd etdi. Azərbaycan Prezidenti günəş və külək stansiyalarının təməlinin qoyulmasının təkcə enerji sahəsində deyil, ümumilikdə, ölkəmizin inkişafında yeni bir mərhələ olacağına əminliyini bildirdi.

Dövlətimizin başçısı əməkdaşlığımızın genişlənməsində şəxsən Prezident Şeyx Məhəmməd bin Zayed Əl Nəhyanın və Birləşmiş Ərəb Əmirlikləri Hökumətinin verdiyi töhfəni yüksək qiymətləndirdi.

Prezident İlham Əliyev bərpaolunan enerji sahəsində Birləşmiş Ərəb Əmirliklərinin Azərbaycanla əməkdaşlıq etməsinin önəmini vurğuladı, qazıntı yanacağı layihələri və COP29 ilə bağlı Birləşmiş Ərəb Əmirliklərinin verdiyi dəstəyə görə minnətdarlığını bildirdi. Azərbaycan Prezidenti bütün bunların ölkələrimiz arasında güclü tərəfdaşlıq işinə xidmət etdiyini və dostluq əlaqələrimizin göstəricisi olduğunu dedi.

Sultan Əhməd Əl-Cabir Bakıya səfərindən, 29-cu Beynəlxalq Xəzər Neft və Qaz və 12-ci Xəzər Beynəlxalq Energetika və Yaşıl Enerji sərgilərində iştirak və burada çıxış etməsindən, həmçinin təməlqoyma mərasimində iştirakından böyük məmnunluq hissi keçirdiyini vurğuladı. Qonaq qeyd etdi ki, Birləşmiş Ərəb Əmirliklərinin Prezidenti həmişə bildirir ki, o, ölkələrimiz arasında tərəfdaşlıq əlaqələrini daha da möhkəmləndirmək əzmindədir. Sultan Əhməd Əl-Cabir ölkəsinin daim Azərbaycan ilə bir yerdə olacağını dedi.

**AZƏRTAC**

# Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın Bakı Enerji Həftəsi ilə bağlı məktubu

**Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan Bakı Enerji Həftəsi ilə bağlı məktub ünvanlayıb. AZƏRTAC məktubu təqdim edir:**

*"Əziz iştirakçılar!*

*Hörmətli qonaqlar!*

*Hamınızı səmimi-qəlbdən salamlayıram.*

*Bakı Enerji Həftəsi çərçivəsində təşkil olunan bütün tədbirlərin müsbət nəticələrə yol açmasını diləyirəm. Bu mühüm tədbirin əməkdaşlığımızın dərinləşməsinə səbəb olmasını, bölgəmizdəki sülhə və sabitliyə töhfələr verməsini arzu edirəm.*

*Can Azərbaycan ilə yaxın münasibətlərimiz bütün sahələrdə olduğu kimi, enerji sahəsində də güclüdür. Uzun illərə əsaslanan və Bakı–Tbilisi–Ceyhan, Bakı–Tbilisi–Ərzurum boru kəmərləri və TANAP kimi infrastruktur layihələri ilə taclandırdığımız əməkdaşlığımız təkcə Türkiyə və Azərbaycana fayda verməyib, bölgənin və Avropanın enerji təhlükəsizliyinə də önəmli töhfələr verib.*

*Türkmənistan qazının ortaq səylərimizlə Türkiyəyə və Avropaya çatdırılması, TANAP-ın imkanlarının genişləndirilməsi artıq zaman məsələsidir. Bu sahələrdəki fəaliyyətlərimizin çox yaxında bəhrə verməsi, şübhəsiz, Türkiyə və Azərbaycanın daha bir ortaq uğuru olacaq.*

*Türk dünyası olaraq ölkələrimizi arasında siyasi, iqtisadi, ticari, təhlükəsizlik, hərbi, müdafiə sənayesi, nəqliyyat, səhiyyə, təhsil və mədəniyyət sahələrində olduğu kimi, enerji sahəsində də əməkdaşlığımızı daha yüksək səviyyəyə çatdırmaq və dərinləşdirmək arzusundayıq. Türk Dövlətləri Təşkilatının növbəti Zirvə görüşünün önümüzdəki ay Can Azərbaycanın ev sahibliyi ilə Şuşada keçirilməsindən məmnunluq duyduğumu da fürsətdən istifadə edərək bildirmək istəyirəm.*

*Tarixi "İpək yolu"nu relslər üzərində həyata keçirən Orta Dəhlizin onurğa sütunu olan Bakı–Tbilisi–Qars dəmir yolunun modernləşdirmə işləri tamamlanaraq, yenidən tam fəaliyyətə başlaması ilə yükdaşımalarda təmin ediləcək altı dəfəlik qabiliyyət artımı regional nəqliyyat şəbəkəsinin inkişafı baxımından strateji əhəmiyyətə malikdir.*

*Bərpaolunan enerjidə, yeni texnologiyalarda və enerji mənbələrinin şaxələndirilməsində iki ölkə olaraq əməkdaşlığımızı gücləndiririk. Naxçıvan vasitəsilə elektrik enerjisi ixracı və İğdır–Naxçıvan təbii qaz boru kəməri layihələrini ən yaxın zamanda başa çatdırmağı hədəfləyirik. Cənubi Qafqazda davamlı sülh və sabitlik əsasında yüksələcək əmin-amanlığın və rifahın təmin olunması üçün fəaliyyətimizi qətiyyətlə davam etdiririk. Azərbaycan və Ermənistan arasında son dövrlərdə əldə edilən müsbət yenilikləri məmnunluqla qarşılayır və imzalanacaq sülh müqaviləsini bölgənin gələcəyi baxımından tarixi fürsət olaraq gördüyümüzü bir daha bildirmək istəyirəm.*

*Fürsətdən istifadə edərək, 2024-cü il 11-22 noyabr tarixlərində Bakıda keçiriləcək BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasına – COP29-a evsahibliyi münasibətilə qardaş Azərbaycanı bir daha təbrik edir, konfransa hazırlıq prosesində hər cür dəstəyi verməyə hazır olduğumuzu xüsusi ifadə edirəm.*

*Enerji sahəsindəki bu dinamik mühit və proseslərin yaxından diqqət mərkəzində saxlanacağı Bakı Enerji Həftəsinin bütün iştirakçılarına uğurlar diləyir, qardaşım Prezident İlham Əliyevə təşəkkürlərimi bildirir, hamınızı ən səmimi hisslərimlə salamlayıram.*

***Rəcəb Tayyib ƏRDOĞAN,***
***Türkiyə Prezidenti"***

# Amerika Birləşmiş Ştatlarının Prezidenti Cozef Bayden Azərbaycan Prezidenti İlham Əliyevə məktub ünvanlayıb

**AZƏRTAC məktubu təqdim edir:**

***"Hörmətli cənab Prezident!***

***Şadam ki, Azərbaycanın qlobal enerji məkanında transformasiyaya yol açan rolunu nümayiş etdirən Bakı Enerji Həftəsinə yenidən ev sahibliyi edirsiniz. Builki tədbirlər Bakının noyabr ayında həlledici COP29 tədbirinə ev sahibliyi etməyə hazırlaşdığı dönəmdə xüsusi əhəmiyyət kəsb edir. Temperatur artımının 1,5 dərəcədə saxlanılması hədəfinə nail olunması istiqamətində birgə işlədiyimiz bir vaxtda COP29 neft və qaz sektorunda metan tullantılarının məhdudlaşdırılması və təmiz enerji keçidinin irəlilədilməsi kimi əsas qlobal təşəbbüslərin inkişafı baxımından Azərbaycan üçün misilsiz imkan təqdim edir.***

***Azərbaycan xüsusilə Avropada qlobal enerji təhlükəsizliyinin mühüm sütunu olaraq qalır. Xəzər qazı getdikcə çoxsaylı ölkələrə ixrac edilir və bu da Avropa ölkələrinə enerji mənbələrinin şaxələndirilməsinə, kömürdən imtinanın sürətləndirilməsinə yardım edir. Azərbaycan öz enerji tarixində yeni səhifə açarkən təmiz enerji və metan tullantılarının azaldılmasına artan diqqət və sadiqlik məndə məmnunluq doğurur. Xəzərin sahib olduğu əhəmiyyətli külək enerjisi potensialı Azərbaycanın təmiz enerji ixracının neft və qaz ixracını üstələyəcək gələcəyə gətirib çıxara bilər.***

***Regional sabitlik və əlaqələr Birləşmiş Ştatlar üçün prioritet məsələlərdir. Onilliklərlə davam etmiş münaqişəyə son qoyacaq möhkəm və ləyaqətli sülh sazişi Cənubi Qafqazı transformasiya edəcək və Azərbaycanın regiondakı rolunu fundamental şəkildə dəyişəcək. Birləşmiş Ştatlar bu nəcib iddianı dəstəkləməyə hazırdır. Biz sülh və firavanlığın təmin edilməsinin əsas prinsiplər olaraq qəbul olunmasını gələcək nəsillərə borcluyuq.***

***Mən möhkəm ikitərəfli əlaqələrimizə yeni təkan vermək imkanını alqışlayıram və COP tədbirinin uğurla keçirilməsi üçün qarşıdakı aylarda birgə əməkdaşlıq etmək arzusundayam. Bakı Enerji Həftəsinin uğurla keçməsini diləyirəm.***

***Cozef BAYDEN,***
***Amerika Birləşmiş Ştatlarının Prezidenti"***

# Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyevə

**Zati-aliləri.**

Azərbaycan Respublikasının milli bayramı – Müstəqillik Günü münasibətilə Sizə Gürcüstan xalqı adından və şəxsən öz adımdan səmimi təbriklərimi çatdırıram.

Bu tarix Azərbaycan xalqının müasir, güclü və inkişaf etmiş dövlətin formalaşmasına gətirib çıxaran müstəqillik və suverenlik yolunda əzmkarlığını və sarsılmaz ruhunu əyani şəkildə nümayiş etdirir.

Qəti şəkildə inanıram ki, biz birgə səylərimiz sayəsində Gürcüstan ilə Azərbaycan arasında dostluğu və strateji tərəfdaşlığı daha da möhkəmləndirəcəyik və beləliklə, firavanlığın, sabitliyin gücləndirilməsinə, regionun inkişafına təkan verilməsində ölkələrimizin rolunu artıracağıq.

Zati-aliləri, Sizə bir daha dərin hörmətimi bildirir, ölkənizə xidmət işində uğurlar, dost Azərbaycan xalqına isə sülh və firavanlıq arzulayıram.

**Hörmətlə,**

***Salome ZURABİŞVİLİ,***
***Gürcüstanın Prezidenti***

* * *

**Zati-aliləri.**

Əlamətdar bayram – Azərbaycan Respublikasının Müstəqillik Günü münasibətilə Sizə və qardaş Azərbaycan xalqına ən səmimi salamlarımı və təbriklərimi çatdırmaqdan böyük məmnunluq duyuram.

Banqladeşlə Azərbaycan arasında ikitərəfli six dostluq əlaqələri mövcuddur. Qəti şəkildə inanıram ki, xalqlarımız iki ölkə arasındakı dostluq və qardaşlıq əlaqələrini gələcəkdə da möhkəmləndirmək istiqamətində birlikdə işləməyə davam edəcəklər.

Sizə möhkəm cansağlığı, uzun ömür, xoşbəxtlik, dost Azərbaycan xalqına isə davamlı sülh, tərəqqi və firavanlıq arzulayıram.

Zati-aliləri, ən yüksək ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

**Hörmətlə,**

***Məhəmməd ŞAHABUDDİN,***
***Banqladeş Xalq Respublikasının Prezidenti***

* * *

**Cənab Prezident!**

Qardaş və dost Azərbaycan xalqı milli bayramının ildönümünü qeyd etdiyi bu günlərdə Sizə səmimi təbriklərimi çatdırmaqdan böyük şərəf duyuram. Cibuti xalqı və hökuməti də ölkənizə tərəqqi, əmin-amanlıq və inkişaf arzulamaqda mənə qoşulur.

Sizin müdrik rəhbərliyinizlə Azərbaycan inkişaf yolunda daha da fəal irəliləyir.

Cənab Prezident, əmin ola bilərsiniz ki, Siz ölkələrimiz arasında dostluq və əməkdaşlığın möhkəmləndirilməsi naminə həmişə Cibuti xalqı və hökumətinin dəstəyini hiss edəcəksiniz.

Ölkəmiz bütün dünyada sülhün və sabitliyin möhkəmləndirilməsi üçün Azərbaycanla birgə yorulmadan səy göstərəcəkdir.

Cənab Prezident, Sizə bir daha səmimi təbriklərimi çatdırır və qardaşlıq salamlarımı qəbul etməyinizi xahiş edirəm.

**Hörmətlə,**

***İsmail Ömər QELLE,***
***Cibuti Respublikasının Prezidenti***

## "Ədliyyə orqanlarının inkişafı haqqında" Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 17 avqust tarixli 446 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə

# *Azərbaycan Respublikası Prezidentinin Fərmanı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

"Ədliyyə orqanlarının inkişafı haqqında" Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 17 avqust tarixli 446 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006, № 8, maddə 671 (Cild I) aşağıdakı dəyişikliklər edilsin:

**1.** 4-cü hissədə "420" rəqəmləri "455" rəqəmləri ilə əvəz edilsin.

**2.** Həmin Fərmanla təsdiq edilmiş 1 nömrəli Əlavə – "Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin strukturu" üzrə:

2.1. 1-ci hissənin ikinci–yeddinci abzasları müvafiq olaraq 1.1–1.6-cı bəndlər hesab edilsin;

2.2. 2-ci hissə aşağıdakı redaksiyada verilsin:

"2. Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Aparatı

2.1. Strateji planlaşdırma və monitorinq baş idarəsi

2.2. Qanunvericilik baş idarəsi

2.3. Notariat, qeydiyyat və reyestr baş idarəsi

2.4. İcra xidməti (baş idarə səlahiyyətli)

2.5. Probasiya xidməti (baş idarə səlahiyyətli)

2.6. Beynəlxalq əməkdaşlıq baş idarəsi

2.7. Bələdiyyələrlə iş baş idarəsi

2.8. Cəzaların icrasına nəzarət baş idarəsi

2.9. İstintaq idarəsi

2.10. İnsan resursları idarəsi

2.11. Sənəd dövriyyəsi və vətəndaşların müraciətləri ilə iş idarəsi

2.12. Ədliyyə sahəsində rəqəmsallaşma və innovasiyalar idarəsi

2.13. Maliyyə və təminat idarəsi

2.14. Mətbuat xidməti (idarə səlahiyyətli)";

2.3. 3-cü hissə üzrə:

2.3.1. ikinci–yeddinci abzaslar müvafiq olaraq 3.1–3.6-cı bəndlər hesab edilsin;

2.3.2. 3.5-ci bənd ləğv edilsin.

**3.** Həmin Fərmanla təsdiq edilmiş 2 nömrəli Əlavə – "Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Kollegiyasının tərkibi"ndə "Ədliyyə sahəsində xidmətlər" sözləri "Notariat, qeydiyyat və reyestr" sözləri ilə və "İcra baş idarəsinin" sözləri "İcra xidmətinin" sözləri ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 4 iyun 2024-cü il**

## Azərbaycan Respublikası Prezidentinin “Azərbaycan Respublikası Əhalisinin Dövlət Reyestrinin aparılması qaydası haqqında Əsasnamə”nin təsdiq edilməsi barədə” 2004-cü il 14 oktyabr tarixli 134 nömrəli, “Azərbaycan Respublikası Əhalisinin Dövlət Reyestri haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” 2006-cı il 2 avqust tarixli 438 nömrəli, “Qüvvədən düşmüş sənədlərin dövlət reyestrinin yaradılması haqqında” 2007-ci il 12 mart tarixli 543 nömrəli, “İnzibati xətalar haqqında işlərə baxmağa səlahiyyəti olan vəzifəli şəxslərin Siyahısı”nın təsdiq edilməsi barədə” 2017-ci il 23 fevral tarixli 1256 nömrəli və “Rayon (şəhər) məhkəmələrinin baxdığı inzibati xətalar haqqında işlər üzrə protokol tərtib etmək səlahiyyəti olan vəzifəli şəxslərin Siyahısı”nın təsdiq edilməsi barədə” 2017-ci il 3 may tarixli 1361 nömrəli fərmanlarında dəyişiklik edilməsi haqqında

### *Azərbaycan Respublikası Prezidentinin Fərmanı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1.** Azərbaycan Respublikası Prezidentinin 2004-cü il 14 oktyabr tarixli 134 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004, № 10, maddə 790 (Cild I) ilə təsdiq edilmiş “Azərbaycan Respublikası Əhalisinin Dövlət Reyestrinin aparılması qaydası haqqında Əsasnamə”də aşağıdakı dəyişikliklər edilsin:

1.1. 4-cü hissədə “yanında Azərbaycan Respublikası Əhalisinin Dövlət Reyestri Xidməti (bundan sonra – “Dövlət Reyestri Xidməti”)” sözləri “(bundan sonra – Ədliyyə Nazirliyi)” sözləri ilə əvəz edilsin;

1.2. 8.2-ci bənddən “Azərbaycan Respublikası” sözləri çıxarılsın;

1.3. 17-ci, 18-ci, 23-cü hissələrdə, 24-cü və 27-ci hissələrin ikinci cümlələrində ismin müvafiq hallarında “Dövlət Reyestri Xidməti” sözləri ismin müvafiq hallarında “Ədliyyə Nazirliyi” sözləri ilə əvəz edilsin;

1.4. 26-cı hissənin ikinci cümləsində “Dövlət Reyestr Xidməti” sözləri “Ədliyyə Nazirliyi” sözləri ilə əvəz edilsin.

**2.** “Azərbaycan Respublikası Əhalisinin Dövlət Reyestri haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 2 avqust tarixli 438 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006, № 8, maddə 664 (Cild I) 3-cü hissəsində aşağıdakı dəyişikliklər edilsin:

2.1. 3.3-cü bəndə “4.5-ci,” sözlərindən sonra “7.1-ci, 8.2-ci, 9.2-ci, 10.1-ci, 10.5-ci, 10.7-ci,” sözləri əlavə edilsin;

2.2. 3.4-cü bənd ləğv edilsin.

**3.** “Qüvvədən düşmüş sənədlərin dövlət reyestrinin yaradılması haqqında” Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 12 mart tarixli 543 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007, № 3, maddə 222 (Cild I) aşağıdakı dəyişiklikər edilsin:

3.1. 2-ci hissədən “yanında Azərbaycan Respublikası Əhalisinin Dövlət Reyestri Xidməti” sözləri çıxarılsın;

3.2. 5-ci hissədə “Nazirliyi yanında Azərbaycan Respublikası Əhalisinin Dövlət Reyestri Xidmətinə” sözləri “Nazirliyinə” sözü ilə əvəz edilsin;

3.3. həmin Fərmanla təsdiq edilmiş “Qüvvədən düşmüş sənədlərin dövlət reyestrinin aparılması qaydası haqqında Əsasnamə” üzrə:

3.3.1. 5-ci hissədə “yanında Azərbaycan Respublikası Əhalisinin Dövlət Reyestri Xidməti” sözləri “(bundan sonra – Ədliyyə Nazirliyi)” sözləri ilə əvəz edilsin;

3.3.2. 6-cı və 15-ci hissələrdə “Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi yanında Azərbaycan Respublikası Əhalisinin Dövlət Reyestri Xidməti” sözləri “Ədliyyə Nazirliyi” sözləri ilə əvəz edilsin;

3.3.3. 22-ci hissədə “Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi yanında Azərbaycan Respublikası Əhalisinin Dövlət Reyestri Xidməti və Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin” sözləri “Ədliyyə Nazirliyi və onun” sözləri ilə əvəz edilsin;

3.3.4. 24-cü hissədə “Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi yanında Azərbaycan Respublikası Əhalisinin Dövlət Reyestri Xidmətinin və Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin” sözləri “Ədliyyə Nazirliyi və onun” sözləri ilə əvəz edilsin;

3.3.5. 26-cı hissədən “Azərbaycan Respublikasının” sözləri çıxarılsın.

**4.** Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 23 fevral tarixli 1256 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 2, maddə 200 (Cild I); 2024, № 2, maddə 157) ilə təsdiq edilmiş “İnzibati xətalar haqqında işlərə baxmağa səlahiyyəti olan vəzifəli şəxslərin Siyahısı”nın 3.1-ci, 3.2-ci və 3.4-cü bəndlərində “Ədliyyə sahəsində xidmətlər” sözləri “Notariat, qeydiyyat və reyestr” sözləri ilə, “ədliyyə sahəsində xidmətlər üzrə” sözləri “notariat, qeydiyyat və reyestr üzrə” sözləri ilə əvəz edilsin.

**5.** Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 3 may tarixli 1361 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 5, maddə 765 (Cild I); Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 15 aprel tarixli 34 nömrəli Fərmanı) ilə təsdiq edilmiş “Rayon (şəhər) məhkəmələrinin baxdığı inzibati xətalar haqqında işlər üzrə protokol tərtib etmək səlahiyyəti olan vəzifəli şəxslərin Siyahısı”nda aşağıdakı dəyişikliklər edilsin:

5.1. 9-cu hissədə, 36.2-ci, 44.2-ci və 70-3.2-ci bəndlərdə “Ədliyyə sahəsində xidmətlər” sözləri “Notariat, qeydiyyat və reyestr” sözləri ilə, “ədliyyə sahəsində xidmətlər üzrə” sözləri “notariat, qeydiyyat və reyestr üzrə” sözləri ilə əvəz edilsin;

5.2. 57.1-ci bənddə “İcra baş idarəsinin” sözləri “İcra xidmətinin” sözləri ilə əvəz edilsin;

5.3. 65-ci hissədə birinci halda “Bələdiyyələrlə iş mərkəzinin” sözləri “Bələdiyyələrlə iş baş idarəsinin” sözləri ilə, “Bələdiyyələrlə iş mərkəzinin rəisi” sözləri “bələdiyyələrlə iş sahəsində müvafiq səlahiyyətli struktur qurumunun rəhbəri” sözləri ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***
**Bakı şəhəri, 4 iyun 2024-cü il**

## Əli Əsədov Minskdə Avrasiya Hökumətlərarası Şurasının iclasında





**İyunun 4-də Minskdə Avrasiya Hökumətlərarası Şurasının geniş tərkibdə iclası keçirilib.**

İclasda Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov qonaq qismində iştirak edib.

İclasda çıxış edən Ə.Əsədov bildirib ki, Azərbaycanın Avrasiya İqtisadi İttifaqı (AİI) üzrə tərəfdaş dövlətlərlə ikitərəfli formatda sıx əlaqələri mövcuddur.

“Ən yüksək səviyyədə etibarlı və intensiv siyasi dialoq bunun bariz sübutudur. Bu ilin əvvəlindən Qazaxıstan, Qırğızıstan və Belarus prezidentləri Azərbaycana dövlət səfərinə gəliblər, Azərbaycan Prezidenti isə Rusiyaya işgüzar səfər edib”, – deyə Baş nazir bildirib.

Vurğulanıb ki, Azərbaycanın tərəfdaş ölkələrin hər biri ilə qarşılıqlı faydalı əməkdaşlığın bütün spektri üzrə qarşılıqlı münasibətlərin mütərəqqi inkişafını təmin edən çox möhkəm ikitərəfli müqavilə-hüquq bazası yaradılıb.

İqtisadi-ticari əməkdaşlıq sahəsini qarşılıqlı fəaliyyətin prioritet istiqaməti adlandıran Ə.Əsədov qeyd edib ki, 2023-cü ilin yekunlarına görə Azərbaycanın AİI üzrə tərəfdaşlarla ticarət dövriyyəsi, təxminən, 9 faiz artıb.

Bildirilib ki, dövlət başçılarının tapşırıqlarını yerinə yetirmək üçün hökumətlərin xətti üzrə ikitərəfli formatda iqtisadi-ticari əməkdaşlığın hələ istifadə olunmamış potensialının həyata keçirilməsi üçün müxtəlif variantlar işlənib hazırlanır.

Qarşılıqlı investisiya fəaliyyətinin müsbət dinamikasına diqqət çəkən Baş nazir qeyd edib ki, gündəmdə uzunmüddətli perspektivə yönəlmiş bir sıra yeni ikitərəfli investisiya layihələri var.

Çıxışında nəqliyyat-tranzit sahəsindəki əməkdaşlığa toxunan Ə.Əsədov vurğulayıb ki, bu gün Azərbaycanın səyləri ölkənin tranzit potensialının gücləndirilməsinə və onun ərazisindən keçən beynəlxalq dəhlizlər üzrə yük axınının artırılmasına yönəlib.

Etibarlı və müasir nəqliyyat infrastrukturu sayəsində Azərbaycan beynəlxalq nəqliyyat dəhlizlərinin (BND), xüsusilə Şimal–Cənub və Şərq–Qərb BND-lərin inkişafına öz töhfəsini verir.

Yaşıl enerji sahəsində əməkdaşlığın və iqlim dəyişikliyinin fəsadlarına qarşı mübarizənin aktuallığını vurğulayan Baş nazir iclas iştirakçılarına Azərbaycanın bərpaolunan enerji resursları sahəsində uğurla həyata keçirdiyi layihələr barədə məlumat verib.

Qeyd olunub ki, Azərbaycan AİI üzrə tərəfdaşlarla regional və beynəlxalq təşkilatlar çərçivəsində də çoxtərəfli formatda əməkdaşlıq edir.

“Hesab edirəm ki, ölkələrimizin üzv olduğu və geniş spektrli istiqamətlər üzrə səmərəli qarşılıqlı fəaliyyət göstərdiyi Müstəqil Dövlətlər Birliyi platformasını qeyd etmək yerinə düşər”, – deyə Ə.Əsədov əlavə edib.

**XQ**

## Baş prokurorluq TDT ölkələri ilə əməkdaşlığı inkişaf etdirir

**Bu sözləri Baş prokuror Kamran Əliyev “Türk Dövlətlərinin hüquq tətbiqetmə fəaliyyətlərində rəqəmsallaşma və inteqrasiya” mövzusunda keçirilən beynəlxalq konfransda deyib.**

Bildirilib ki, tarixi bağlarımız, ortaq dinimiz və dilimizlə qardaşlıq münasibətləri olan Türk Dövlətləri Təşkilatına üzv ölkələrin hüquq mühafizə orqanları ilə əməkdaşlıq əlaqələrinin daha da inkişaf etdirilməsi prioritet məsələlərdəndir.

Qeyd edilib ki, 1 noyabr 2021-ci il tarixində Bakıda Türk Dövlətləri Təşkilatının



Baş Prokurorlar Şurasının yaradılması bu istiqamətdə atılan mühüm addımlardan biri idi. Bu şura üzv ölkələrin hüquq mühafizə orqanları arasında əməkdaşlığı daha da dərinləşdirəcək və effektiv fəaliyyət göstərmələrinə imkan verəcəkdir.

“Sahəvi dövlət qurumlarını birləşdirən şuralar türk dövlətləri arasında effektiv əməkdaşlığın inkişaf etdirilməsi üçün təqdirəlayiq platformadır. Bu şuralar vasitəsilə türkdilli ölkələr arasında bütün sahələrdə əməkdaşlıq daha da irəli gedəcəkdir” – deyə Baş prokuror əlavə edib.

# Prezident İlham Əliyevin çıxışı xarici mediada

**Prezident İlham Əliyevin Bakı Enerji Həftəsi çərçivəsində keçirilən 29-cu Beynəlxalq Xəzər Neft və Qaz – “Caspian Oil&Gas” və 12-ci Xəzər Beynəlxalq Energetika və Yaşıl Enerji – “Caspian Power” sərgilərinin açılış mərasimində çıxışı xarici mediada geniş işıqlandırılıb.**




Türkiyənin aparıcı media qurumları – Anadolu Agentliyi, “TRT”, “Haber Global” media qurumları, “Yirmidört.tv”, “Haberler.com”, “Ekovitrin”, “Son dakika” və digər onlayn media qurumlarında, “Akşam” və digər qəzetlərdə tədbir barədə silsilə məqalələr dərc edilib.

“Prezident Əliyev: Azərbaycanın təbii qaz qıtlığı aradan qaldırılıb”, “Bakıda 29-cu Beynəlxalq Xəzər Neft və Təbii Qaz Sərgisi işə başlayıb”, “Azərbaycan larda Azərbaycanın dövlət başçısının qaz ixracının coğrafiyasının genişləndirilməsi ilə bağlı bəyanatına xüsusi diqqət yetirilib. Azərbaycan lideri vurğulayıb ki, bu gün bizim təbii qazı alan səkkiz ölkədən altısı Avropa ölkəsidir. “Hazırda öz enerji təhlükəsizliyini təmin etmək üçün Azərbaycan təbii qazına ehtiyacı olan daha bir neçə ölkə ilə danışıqların aktiv fazası gedir”, – TASS Agentliyi Prezident İlham Əliyevin çıxışından sitat gətirib.

“PRIME” İqtisadi İnformasiya agentliyi dövlət başçısının bu il Azərbaycandan qaz ixracının həcminin 24 milyard kubmetrdən çox olacağı barədə dediklərinə istinad edib.

“Neft i kapital” nəşri yazıb ki, Azərbaycan 5 ildən sonra bərpaolunan enerji gücünün 2 qiqavatını təqdim edəcək. Nəşrin Azərbaycan Prezidentinin çıxışına həsr olunmuş materialında, həmçinin bildirilib ki, Qarabağ və Şərqi Zəngəzur regionları böyük hidroenergetika potensialına malikdir.

“Vestnik Kavkaza” agentliyi Azərbaycan Prezidentinin çıxışından çıxarışlar dərc edərək Azərbaycanın son 30 ildə imzaladığı bütün razılaşmaların tam şəkildə yerinə yetirildiyini xüsusi vurğulayıb.

İspandilli mediada da Bakı Enerji Həftəsinə və dövlətimizin başçısının çıxışına dair məqalələr yayımlanıb. İspaniyanın “Invest.com”, “El Periódico de la Energía” nəşrlərində, eləcə də İsveç-




Prezidenti Əliyev: Azərbaycan qaz təchizatı məsələlərində özünü etibarlı tərəfdaş kimi artıq sübut edib”, “Prezident Əliyev Bakı Enerji Həftəsində çıxış etdi: Azərbaycan Avropanın qaz təchizatçısıdır” və digər sərlövhələrlə yayımlanan xəbərlərdə Azərbaycan Prezidentinin tədbirdəki çıxışı xüsusilə diqqət mərkəzində saxlanılıb.

Dövlətimizin başçısının fikirlərinə istinadla bildirilib ki, “Şahdəniz” layihəsi Azərbaycanda qaza olan qıtlığı aradan qaldırdı. Bu gün 8 ölkə Azərbaycan qazını idxal edir. Bunlardan 6-sı Avropa ölkəsidir və Avropa Komissiyası Azərbaycanı ümum-Avropa qaz təchizatçısı adlandırır: “Bu il 24 milyard kubmetrdən artıq olacaq. Səkkiz ölkə Azərbaycandan qaz alır və Azərbaycan qaz təchizatında etibarlı tərəfdaş olduğunu bir çox ölkələrə sübut etdi”.

Türkiyə mətbuatında Prezident İlham Əliyevin işğaldan azad edilən ərazilərdə bərpaolunan enerji potensialı barədə fikirləri xüsusilə diqqət mərkəzində saxlanılıb: “2027-ci ilədək 2 qiqavat həcmində bərpaolunan enerjinin əldə edilməsi tamamilə real hədəfdir. Bir daha təkrar edirəm ki, bu, sadəcə, başlanğıcdır”.

Yazılarda ildən-ilə miqyası genişlənərək Bakı Enerji Həftəsi adlandırılan bu tədbirin ilk dəfə 1994-cü ildə keçirildiyi və o vaxtdan bəri Azərbaycanın enerji sektoruna birbaşa xarici sərmayənin cəlb edilməsində çox vacib rol oynadığı qeyd olunub.

Rusiya mediası da Prezident İlham Əliyevin çıxışını geniş işıqlandırıb. Bu ölkə mətbuatında yayımlanan materiallarda Azərbaycanın dövlət başçısının ... (see above) İsveçrənin ispan dilində yayımlanan “Swissinfo” portalında yer alan yazılarda bu gün Azərbaycan qazının altısı Avropada yerləşən səkkiz ölkəyə ixrac olunmasından, Azərbaycanın qaz ixracının coğrafiyasını genişləndirməyi planlaşdırmasından və enerji təhlükəsizliyini təmin etmək üçün Azərbaycan qazına ehtiyacı olan bir neçə ölkə ilə fəal danışıqların aparılmasından söz açılıb.

Enerji məsələləri ilə bağlı ərəb dilində yayımlanan nüfuzlu “Attaqa.net” nəşri də dövlətimizin başçısının çıxışında səsləndirdiyi fikirlər, Bakı Enerji Həftəsi çərçivəsində keçirilən tədbirlər, Azərbaycanın yaşıl enerji siyasəti barədə xəbərlər dərc edib. Xəbərlərdə dünyada enerji böhranının yaşandığı bir dövrdə Azərbaycanın ev sahibliyi etdiyi bu mötəbər tədbirdə 30-dan çox ölkədən 300-dək şirkətin qatıldığı və mühüm müzakirələrin aparıldığı, eləcə də ABŞ və Türkiyə prezidentlərinin tədbirlə bağlı təbrik məktubları ünvanladıqları bildirilib. Nəşrdə dövlətimizin başçısının Azərbaycanın qaz ixracını artırması planları ilə yanaşı, ölkəmizin bərpaolunan enerji potensialından istifadə istiqamətində atdığı addımlar barədə də məlumat verilib və Prezident İlham Əliyevin çıxışında Qarabağ və Şərqi Zəngəzurun azad olunmuş ərazilərinin nəhəng hidroelektrik potensialı, həmin ərazilərin azad edilməsindən sonra orada 270 meqavat həcmində hidroelektrik stansiyaların istifadəyə verilməsi və 3-5 il ərzində bu rəqəmin 500 meqavata çatacağı barədə fikirləri əksini tapıb

**XQ**

## Kiberdələduzluq barədə xəbərdarlıq

**Son günlər elektron informasiya resurslarında auditoriyanı çaşdırmaq məqsədilə yaradılmış hiperlinklər vasitəsilə yalan məlumatların tirajlanması halları müşahidə olunmaqdadır.**

Belə ki, Azərbaycan Respublikasının Prezidentinin adından istifadə olunmaqla hazırlanan saxta müraciətdə istifadəçilərə maddi yardım vəd edilir və elektron hesab yaradaraq qeydiyyatdan keçməklə bu yardımdan faydalanmaq təklif edilir.

Bu barədə Medianın İnkişafı Agentliyindən məlumat verilib.

Bildirilib ki, qeyd olunan müraciət bütün dünyada yeni təhdid növü kimi qiymətləndirilən kiber dələduzluq nümunəsidir.

Agentlik Azərbaycan vətəndaşlarını, o cümlədən, media nümayəndələrini və ictimai fəalları bu kimi hallarla bağlı hər zaman prinsipiallıq nümayiş etdirməyə, saxta və yalan məlumatlara söykənən kampaniyalara qarşı sayıq olmağa çağırıb.

***XQ***

# Qırğızıstanın parlament nümayəndə heyəti Milli Məclisdə



**Milli Məclisin Sədri Sahibə Qafarova iyunun 4-də ölkəmizdə rəsmi səfərdə olan Qırğız Respublikası Joqorku Keneşinin sədri Nurlanbek Şakiyevin başçılıq etdiyi parlament nümayəndə heyəti ilə görüşüb.**

Qonaq əvvəlcə Milli Məclisin plenar iclas zalı ilə tanış olub. Sonra o, parlamentdə Heydər Əliyev Muzeyində olub və Xatirə kitabını imzalayıb.

Görüşdə xalqlarımızın ortaq tarixinin, mədəniyyətinin, dil və dininin ölkələrimiz arasında əlaqələrin əsasını təşkil etdiyi qeyd olunub. Bildirilib ki, müstəqillik əldə etdikdən sonra ölkələrimiz arasındakı əlaqələr məhz bu möhkəm təməl üzərində qurulub.

İkitərəfli münasibətlərin inkişafında dövlət başçıları səviyyəsində qarşılıqlı səfərlərin və görüşlərin müstəsna rolu qeyd edilərək vurğulanıb ki, prezidentlərimiz arasında qarşılıqlı hörmət və etimada əsaslanan münasibətlər, fəal siyasi dialoq iki ölkə arasında əlaqələrin dinamikasına çox mühüm təsir edir.

Görüşdə Azərbaycan–Qırğızıstan münasibətlərində qarşılıqlı etimadın yaradılması və inkişaf etdirilməsində ümummilli lideri Heydər Əliyevin xidmətləri xüsusi qeyd olunub.

Söhbət zamanı ölkələrimizin beynəlxalq təşkilatlar çərçivəsində də fəal əməkdaşlıq etmələrindən razılıq ifadə olunub. O cümlədən, Türk Dövlətləri Təşkilatının ölkələrimiz arasında çoxtərəfli əməkdaşlıqda xüsusi əhəmiyyəti vurğulanıb. Qanunvericilik orqanlarımız arasında səmərəli əməkdaşlığın qurulmasından danışılıb və bu əməkdaşlığın daha da dərinləşdirmək üçün yaxşı imkanlar olduğu qeyd edilib.

Nurlanbek Şakiyev ötən il Milli Məclisin ümummilli lider Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş xüsusi iclasında iştirak etmək məqsədilə ölkəmizə səfər etdiyini xatırladaraq, Ulu öndərin bütün Türk dünyasının qüruru olduğunu və bu tədbirdə iştirak etməklə dahi liderin xatirəsinə hörmət və ehtiramlarını ifadə etdiklərini söyləyib.

Qonağa regiondakı vəziyyət haqqında məlumat verilib.

***Ə.BƏDƏLOV***
***XQ***

# Azərbaycan – Səudiyyə Ərəbistanı: "yaşıl enerji" əməkdaşlığı





**İyunun 4-də xarici işlər naziri Ceyhun Bayramov ilə Səudiyyə Ərəbistanı Krallığının xarici işlər naziri şahzadə Feysəl bin Fərhan Al Səud arasında telefon danışığı baş tutub.**

İki ölkə arasında ikitərəfli və çoxtərəfli əməkdaşlıq gündəliyinin müxtəlif aspektləri müzakirə edilib. Nazirlər iki ölkə arasında dost münasibətlərin daha da inkişaf etdirilməsi üçün geniş potensialın mövcud olduğunu qeyd ediblər.

Ceyhun Bayramov postmünaqişə dövründə Səudiyyə Ərəbistanının ölkəmizə göstərdiyi dəstəyin əhəmiyyətini qeyd edib, Azərbaycanın işğaldan azad edilmiş ərazilərində minalarla çirklənmənin mümkün mənfi təsirlərinin aradan qaldırılması və ölkəmizin minatəmizləmə fəaliyyəti istiqamətində göstərilən 3 milyon ABŞ dolları məbləğində dəstəyə görə minnətdarlıq bildirib.

Bununla yanaşı, BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasına (COP29) Azərbaycanın prezidentliyi və ev sahibliyinə hazırlıq prosesi çərçivəsində Səudiyyə Ərəbistanı ilə əməkdaşlıqdan məmnunluq ifadə edilib, ölkələrimiz arasında yaşıl enerjiyə keçid istiqamətində əməkdaşlığın cari vəziyyəti və perspektivləri ətrafında fikir mübadiləsi aparılıb.

***

**Həmin gün xarici işlər naziri Ceyhun Bayramov Birləşmiş Ərəb Əmirliklərinin xarici işlər naziri Abdullah bin Zayed Əl Nəhyan ilə də telefonla danışıb.**

Ölkələrimiz arasında strateji tərəfdaşlıq çərçivəsində görülən işlər, həm ikitərəfli, həm də çoxtərəfli çərçivədə əməkdaşlıq perspektivləri, habelə regional və beynəlxalq məsələlər müzakirə olunub.

Bununla yanaşı, ərazilərimizin minalanması problemi ilə mübarizə istiqamətində BƏƏ tərəfindən ANAMA-ya bu yaxınlarda 5 milyon ABŞ dollarında yardım göstərilməsinə görə qarşı tərəfə təşəkkür edilib.

Bakı Enerji Həftəsi çərçivəsində iyunun 4-də Neftçala və Biləsuvar elektrik stansiyasının və Abşeron-Qaradağ Külək Elektrik Stansiyasının təməlinin qoyulmasının, eləcə də SOCAR və BƏƏ-nin "Masdar" şirkəti arasında imzalanan üç bərpaolunan enerji layihələri üzrə Səhmdarlar Sazişinin iki ölkə arasında sərmayə sahəsində əməkdaşlığının genişlənməsinə müsbət töhfə verdiyi qeyd edilib.

***XQ***

# XİN Türkiyəyə başsağlığı verdi

**Azərbaycan Xarici İşlər Nazirliyi Kayseridə hərbi təyyarənin qəzaya uğraması ilə bağlı Türkiyəyə başsağlığı verib.**

Bu barədə Azərbaycan XİN-in "X" hesabında paylaşım edilib:

"Qardaş Türkiyənin Kayseri şəhərində baş vermiş təyyarə qəzası xəbəri bizi son dərəcə kədərləndirdi. Qəza zamanı həlak olmuş pilotların ailələrinə və yaxınlarına, qardaş Türkiyə xalqına dərin hüznlə başsağlığı veririk. Allah rəhmət eləsin!"

Xatırladaq ki, qəza nəticəsində 2 pilot həlak olub.

# Nobel mükafatçısı Əziz Səncər Azərbaycanda






**Dünyaşöhrətli türk alimi, ABŞ-nin Şimali Karolina Universiteti biokimya və biofizika fakültəsinin professoru, kimya üzrə Nobel mükafatı laureatı Əziz Səncər Naxçıvana səfəri çərçivəsində Muxtar Respublikada Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli ilə görüşüb.**

Səlahiyyətli nümayəndə Əziz Səncəri sevgi-sayğı ilə qarşılayıb, dünya şöhrətli alimi Naxçıvanda salamlamaqdan məmnunluğunu bildirib. Qonaq əvvəlcə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin binası ilə tanış olub. Fuad Nəcəfli Ali Məclisin iclas salonunda məlumat verib ki, burada ümummilli lider Heydər Əliyevin rəhbərliyi ilə tarixi qərarlar qəbul edilib. Ötən il Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyip Ərdoğanın Naxçıvana səfərini xatırladan səlahiyyətli nümayəndə diqqətə çatdırıb ki, dövlət başçılarımızın iştirakı ilə İğdır–Naxçıvan qaz kəmərinin təməlinin qoyulması mərasimi də burada keçirilib.

Sonra Fuad Nəcəfli ulu öndər Heydər Əliyevin siyasi fəaliyyətinin Naxçıvan dövrü barədə məlumat verib. Xüsusilə vurğulayıb ki, görkəmli dövlət xadimi Heydər Əliyevin rəhbərliyi ilə 1991–1993-cü illərdə Naxçıvan Muxtar Respublikası Azərbaycanda müstəqil dövlətçiliyin böyük məktəbinə çevrilib. Müstəqil Azərbaycan Respublikasının dövlət bayrağı ilk dəfə Naxçıvanda qəbul edilib, müstəqil Azərbaycanın dövlətçilik sisteminin konturları, gələcək inkişafının istiqamətləri məhz burada müəyyənləşdirilib.

Heydər Əliyevin Ali Məclisin Sədri seçilməsi Naxçıvan–Türkiyə münasibətlərinin qurulmasında da yeni mərhələyə təkan verib. Məhz o dövrdə Türkiyənin nümayəndə heyəti ilə danışıqlar aparılıb və əməkdaşlıq haqqında protokol imzalanıb. Həmin təmələr üzərində qurulan Azərbaycan–Türkiyə qardaşlıq və dostluq münasibətləri hazırda dövlət başçılarımızın rəhbərliyi altında möhkəm və sarsılmaz xarakter daşıyır.

Nobel mükafatı laureatı Əziz Səncər göstərilən qonaqpərvərliyə və səmimi qəbula görə təşəkkür edib, Naxçıvanda olmaqdan məmnunluğunu ifadə edib.

Sonda qarşılıqlı hədiyyələr təqdim olunub, xatirə fotosu çəkdirilib.

* * *

**ADA Universitetində də AMEA-nın fəxri üzvü, ABŞ-ın Şimali Karolina Universitetinin professoru Əziz Səncərlə görüş keçirilib.**

ADA Universitetinin rektoru Hafiz Paşayev çıxış edərək bu nadir və unudulmaz görüşün ali təhsil ocağının tarixində əlamətdar hadisə olduğunu bildirib.

Universitetin prorektoru Fariz İsmayılzadənin moderatorluğu ilə keçirilən görüşdə professor Əziz Səncər tələbələrə gələcəklə bağlı qərarlarında onlar üçün maraqlı olan sahəni seçməyi tövsiyə edib. Dünyaşöhrətli alim uğur qazanmağın sirrinin çoxlu çalışmaq olduğunu qeyd edib.

Tələbələrə orqanizmi cavan saxlamaq üçün düzgün qidalanmağın önəmli olduğunu vurğulayan Əziz Səncər özünün vegetarian olmasına baxmayaraq qida rasionuna, az da olsa, ət əlavə etməyin vacib olduğunu söyləyib.

Görüşdə tələbələrin sualları cavablandırılıb.

Tədbirin sonunda rektor Hafiz Paşayev Əziz Səncərə ADA Universitetinin medalını təqdim edib.

* * *

**Ölkəmizdə səfərdə olan Nobel mükafatı laureatı, professor Əziz Səncər Azərbaycan Tibb Universitetində də olub. ATU-nun rəhbər şəxsləri ilə keçirilən görüşdən sonra professor Əziz Səncər universitetin tələbə və müəllim heyəti qarşısında mühazirə ilə çıxış edib.**

ATU-nun rektoru professor Gəray Gəraybəyli qonağa universitetin yaranma tarixi, strukturu, tədris proqramı və təhsil prosesi barədə ətraflı məlumat verib. O, artıq 90 yaşını geridə qoyan qocaman universitetin Azərbaycanda yüksəkixtisaslı həkimlərin, elmi araşdırmaçıların yetişdirilməsində böyük rolu olduğunu vurğulayıb. Rektor dünyaşöhrətli alimin ATU-da qonaq olmasını universitet kollektivi, tələbələr və gənc tədqiqatçılar üçün mühüm hadisə kimi dəyərləndirərək Əziz Səncərə minnətdarlığını bildirib.

ATU-nun onkologiya kafedrasının müdiri, Tədris Onkoloji Klinikanın müdiri, akademik Əhliman Əmiraslanov ölkəmizdə elmin inkişafı istiqamətində dövlət səviyyəsində görülən işlərdən danışıb. Təhsilin və səhiyyənin bütün istiqamətləri üzrə müvəffəqiyyət qazanmaq üçün elmi tədqiqatların önəmini vurğulayıb.

Nobel mükafatçısı Əziz Səncər ATU-da olmaqdan məmnunluğunu ifadə edib. O, universitetində mövcud təhsil prosesi, tələbələrin və rezidentlərin elmi tədqiqatlarını aparması üçün yaradılmış şəraitlə maraqlanıb. Dünyaşöhrətli alim savadlı nəslin yetişdirilməsi üçün gənclərdə elmə maraq oyatmağın, fizika, kimya, biologiya və texnologiya sahələrini təşviq etməyin əhəmiyyətindən danışıb.

Sonra Nobel mükafatçısının universitetin akt zalında tələbə və müəllim heyəti üçün "Xərçəng xəstəliyinin müalicəsində EdU-nun (5-ethynyl-2'-deoxyuridine) tətbiqi" mövzusunda mühazirəsi dinlənilib. Mühazirədə EdU-nun insan genomuna təsiri, mədəaltı vəzin, mərkəzi sinir sistemi xərçənginin müalicəsində effekti ilə bağlı elmi araşdırmaların nəticələrinə istinad olunub.




Görüşdə görkəmli elm xadimi tələbə və müəllimlərin çoxsaylı suallarını cavablandırıb.

* * *

**Kimya üzrə Nobel mükafatı laureatı, ABŞ-ın Şimali Karolina Universitetinin professoru Əziz Səncər dünən AMEA-da keçirdiyi mətbuat konfransında Azərbaycana səfərinin yekunu barədə məlumat verib.**

Türk xalqlarının öyünc mənbəyi sayılan dünyaşöhrətli alim bildirib ki,

Azərbaycana ilk gəldiyim zaman Qarabağ işğal altında idi. Bütün danışıqlarımızda bu məsələ hər kəsin düşüncəsinə hakim idi. İkinci səfərimdə Qarabağ işğaldan azad olunsa da, Xankəndi düşmənin əlində idi və bunun narahatlığı var idi: "Bu səfərimdə isə ünsiyyətdə olduğum insanlarda bir rahatlıq olduğunu hiss etdim. İnsanlar gələcəyə ümidlə baxırlar, indi torpaq dərdimiz yoxdur. "Bundan sonra həyatımıza normal davam edəcəyik" fikirləri müşahidələrimin nəticəsi oldu".

Professor Əziz Səncər Naxçıvana səfərindən də söz açıb: "Naxçıvana getmək mənim üçün çox vacib idi. Hər zaman oraya getməyi istəmişəm. Deyərdim ki, Naxçıvanın havası Bakıdan daha gözəldir, oranı çox sevdim. Böyük diqqət gördüm".






***XQ***

# “Lazerevçilər”in Ermənistana dəstək məntiqi

(əvvəli 1-ci səhifədə)

Digər tərəfdən, başlıca məqsədi Rusiya və Ermənistan xalqları arasında qarşılıqlı etimadı və müttəfiqlik münasibətlərini gücləndirməkdən ibarət olan “Lazarev klubu” adını hazırkı Moskva Dövlət Beynəlxalq Münasibətlər İntitutunun sələfi olan və XIX əsrdə formalaşmış Şərq Dilləri İnstitutunun yaradıcısı Lazerevler ailəsinin adından götürüb. Klub 2018-ci ildən bəri Moskva və İrəvanda beş əsas tematik sessiya keçirib. 2018-ci ilin dekabr ayında təşkilatın üzvləri Qafqaz regionunda müdafiə və təhlükəsizlik məsələlərini müzakirə ediblər. 2019-cu ilin martında keçirilən görüşdə iqtisadiyyat, sahibkarlıq və investisiyaların cəlbi məsələləri qaldırılıb. 2019-cu ilin dekabrında müttəfiqlik münasibətlərinin formalaşmasında Rusiya və Ermənistan mediasının qarşılıqlı əlaqəsi və iki ölkənin müsbət imici diskussiya predmetinə çevrilib.

Klubun dördüncü iclası 2021-ci ilin iyununda İrəvanda keçirilib. Müzakirə zamanı 44 günlük müharibədən sonra Ermənistanda parlament seçkiləri ərəfəsindəki və Qarabağdakı ictimai-siyasi vəziyyət nəzərdən keçirilib. 2022-ci ilin oktyabrında isə klubun Moskva – İrəvan telekörpüsü formatında “Rusiya – Ermənistan münasibətlərinin tarixi keçmişi və bu günü” mövzusuna həsr olunmuş beşinci iclası olub.

Qeyd edək ki, Ermənistan daxilində və ölkənin xarici arenadakı durumunu izləyən “Lazarev klubu”, həmçinin xeyriyyəçilik, maarifləndirmə və nəşriyyat fəaliyyəti ilə də məşğuldur. Ən əsası isə təşkilatın səyləri ilə Ermənistanda bir sıra rusdilli media orqanlarının fəaliyyəti dəstəklənir.

***

Göründüyü kimi, “Lazerev klubu”, kifayət qədər, geniş fəaliyyət spektrinə malikdir. Elə qurumun haqqında söz açacağımız bəyanatında da onun iş diapazonunun ayrı-ayrı istiqamətləri nəzərə alınıb. Ümumən, klubun bəyanatında beş məqama diqqət yetirilib.



**Birinci məqam** Rusiya – Ermənistan münasibətlərini gözdən salmaq cəhdlərinin mövcudluğunun vurğulanmasıdır. Bildirilib ki, Ermənistanda hökumətin uğursuz daxili və xarici siyasət kursu nəticəsində ölkənin varlığı üçün təhlükə yaranıb. 2023-cü ildə Qarabağda on minlərlə erməni öz evlərini, kilsələrini və ata-baba məzarlarını tərk etmək məcburiyyətində qalıb. Buna görə hazırda Rusiya–Ermənistan xalqları arasında münasibətlərin qorunub saxlanılmasına ehtiyac böyükdür.

Deməli, əgər Ermənistan hakimiyyəti yaramaz siyasət yeritməsəydi, hazırkı xoşagəlməz durum alınmayacaqdı. “Zaman, şübhəsiz ki, qarşılıqlı etimadın itirilməsində, müttəfiqlik öhdəliklərindən imtinada, itkilərdə və qurbanlarda “günahkar kimdir?” qiymətləndirməsi baxımından hər şeyi öz yerinə qoyacaq. İnanır və ümid edirik ki, xalqların və vətəndaş cəmiyyətlərinin ən yaxşı nümayəndələrinin geniş əsasda cəlb olunması ilə “nə etməli?” sualına cavab tapılacaq” kimi fikirlərin yer aldığı bəyanatda Ermənistan iqtidarına qarşı hədə-qorxu tonu da seçilib: “Amma bu gün biz artıq “nə etməməyimizi” qəti şəkildə bilirik: rus və erməni xalqlarının, Rusiya və Ermənistanın birliyinin əsasında duran inamı, tarixi və coğrafiyanı, iqtisadiyyatı və mədəniyyəti şübhə altına almağa cəsarət etməyin”.

**İkinci məqam.** “Lazerevçilər”in bəyanatında bildirilir ki, qurum Ermənistanda güclənən vətənpərvərlik hərəkatının yüksəlişini dəstəkləyir və rəğbətini bildirir. Sənəddən gəlinən nəticə budur ki, Paşinyan iqtidarı xalqı azdırmaq, onun bir hissəsini uzun müddət aldatmaq istəyib: “Ümid edirik ki, baş verən hadisələr erməni xalqının şərəf və ləyaqətinə xələl gətirməyəcək. Buna görə biz Ermənistan Respublikasının polisinə, təhlükəsizlik orqanlarına və digər qüvvələrinə müraciət edirik ki, ölkənin şəhər və rayonlarında dinc etiraz aksiyalarının iştirakçılarına qarşı zorakılıqdan əl çəksinlər”.

**Üçüncü məqam.** Heç şübhəsiz, kilsə amili qabardılmalı idi. “Lazerevçilər” “Ermənistan hakimiyyət orqanlarının Erməni apostol kilsəsini ləkələmək və aşağılamaq üçün başlatdığı kampaniyanı” pislədiklərini açıqlayıblar. Mövcud xüsusda Paşinyan iqtidarının təmsilçilərinin mənəvi keyfiyyətlərinin aşağı olduğu vurğulanıb. “Biz Ermənistanda və bütün dünyada vicdanlı insanları dövlətin Erməni apostol kilsəsinin həyatına kobud müdaxiləsinə, onun iyerarxlarına və ruhanilərinə münasibətdə qarşı öz sözünü deməyə çağırırıq. Ermənistanın “xristiansızlaşdırılması” erməni xalqına qarşı cinayətdir” fikirlərinin yer aldığı bəyanatda dini zəmində təxribat yaratmaq istənildiyi, insanların mənəvi duyğuları ilə spekulyasiya edildiyi ortadadır.

**Dördüncü məqam.** “Lazerevçilər” sərsəm məntiqə güc verərək, qondarma “erməni soyqırımı” üzərində dayanıblar. Onlar bəyanatlarında Qarabağ ermənilərinin bölgəni tərk etmələrini də həmin qondarma məntiqlə əsaslandırmağa çalışıb və bildiriblər ki, bu, onilliklər ərzində çoxtərəfli danışıqların mövzusu olan Qarabağ münaqişəsinin həlli sayıla bilməz. Yəni, “Lazerevçilər” hesab edirlər ki, bölgənin erməni əhalisi geri qayıtmalıdır. Ən əsası isə psevdoermənipərəstlər bu fikirdədirlər ki, Qarabağdakı sabiq separatçı rejimin oyuncaq rəhbərləri Bakı həbsxanalarından qurtulmalı, azadlıqlarına qovuşmalıdırlar. Görəsən, onların başqa istək və arzuları yoxdur ki?!

Daha bir diqqətçəkən məqam budur ki, “Lazerevçilər” Ermənistan iqtidarının Qarabağ ermənilərinin geri qayıtmaları ilə bağlı heç bir iş görmədiklərini düşünür, Paşinyan və tərfdarlarını buna görə qınayırlar. “Biz Qarabağ liderlərinin və Azərbaycan həbsxanalarında qalan erməni məhbusların azad edilməsi tələbi ilə imza toplayan Lemkin adına Soyqırımın Qarşısının Alınması İnstitutunun təşəbbüsünə qoşuluruq”, – deyə bəyanatda vurğulanıb.

**Beşinci məqam** “Lazerevçilər” Qarabağda erməni dini və mədəni abidələrinin, kilsə və monastırların mövcudluğuna təhlükənin yarandığı” fikrindədirlər. Qeyd edək ki, belə bir əndişəni haqqında söz açdığımız ermənipərəst deputat K.Zatulin bir neçə gün əvvəl də dilə gətirmişdi. O bildirmişdi ki, Qarabağda erməni monastırlarının adı dəyişdirilir, onlardakı erməni izləri silinir. Zatulin çıxışında daha çox Kəlbəcərdəki Xudavəng monastrı ilə bağlı məsələni qaldırmışdı. Tarixi təhrif yolu tutan Rusiyanın baş ermənipərəsti onu da bildirmişdi ki, guya, alban kilsəsi erməni kilsəsinin tabeliyində olub. İndi “Lazerev klubu”nun bəyanatında da oxşar motiv qabardılıb və erməni mədəni-tarixi kimliyinə təhlükənin qarışısını almaq üçün qurumun xüsusi ekspert qrupunun yaradılması və fəaliyyətinin təşkili üzərində dayanılıb. Sən demə, belə bir qrup Azərbaycana təsir göstərəcəkmiş.

Sonda onu da deyək ki, Beynəlxalq Rusiya–Ermənistan “Lazarev klubu”nun bəyanatı Rusiya ermənipərəstlərinin Ermənistan hakimiyyətinin ölkəni Moskvanın orbitindən çıxarmaq istəklərinə qarşı olduqca miskin təsir bağışlayan müqavimətinin bariz nümunəsidir. Heç şübhəsiz, belə bəyanatların heç bir təsiri olmayacaq. Həm də ona görə ki, Ermənistan əhalisi, ümumən, Paşinyan hakimiyyətindən narazı olsa da, heç bir halda keçmişin qalıqlarına söykənmək istəmir. Yəni, zatulinlər və onların yaratdıqları bu sayaq qurumlar hazırda ölü qurumlardır. Onların nə Rusiyanın ictimai rəyində təsiri var, nə də Ermənistanda ciddi qarşılanırlar.

***Ə.RÜSTƏMOV***
***XQ***

# Qarabağ tör-töküntüsü də Baqrata “yox!” dedi

**Azərbaycanla sərhədlərin delimitasiya və demarkasiyasının aparılmasına etiraz edən erməni revanşistlər yenə də öz ampluasındadır. Aprelin sonlarından indiyədək keçirdikləri aksiyalarda kütləviliyin olmamasına, xalqın onları rədd etməsinə, sıralarının getdikcə seyrəlməsinə, nəhayət, havanın temperaturunun xeyli yüksəlməsinə baxmayaraq, etirazçılar yenə də təxribatçı hərəkətlərindən əl çəkmirlər. Onlar iyunun 9-da yenidən mitinq keçirmək həvəsinə düşüblər.**

Erməni apostol kilsəsinin Tavuş yeparxiyasının rəhbəri, arxiyepiskop Baqrat Qalstanyanın rəhbərlik etdiyi “Vətən naminə Tavuş” hərəkatının tərəfdarları dünən səhər İrəvandakı Müqəddəs Anna kilsəsinin həyətinə toplaşıb. Bundan bir gün əvvəl isə arxiyepiskopun qeyri-adekvat danışıq tərzi, dediyi anlaşılmaz sözlər diqqəti cəlb etmişdi. Baqrat demişdi: “Sabah saat 10:30-da mən Müqəddəs Anna kilsəsinin həyətində olacağam. Oradan çox vacib bir insanla görüşə gedəcəyəm. Kiminlə görüşəcəyimi demirəm, çünki dünən polisin istintaq komitəsinin qarşısını necə kəsdiyini gördünüz. Bizim polislər yazıqdırlar, onlar dincəlmirlər...”

Bundan sonra aksiya iştirakçıları yenidən İrəvanın mərkəzində yürüş etməyə başlayıblar. Artıq paytaxtdakı, demək olar ki, bütün inzibati binaların qarşısında etiraz aksiyaları keçirən revanşistlərin bu dəfə üz tutduqları ünvan ölkənin insan hüquqları üzrə müvəkkilinin (ombudsman) aparatının ofisi olub. Bu yürüş də Müqəddəs Anna kilsəsindən başlanıb. Ancaq etiraz hərəkatının rəhbəri yürüşün məqsədini açıqlamaq istəməyib. Baqrat sadəcə olaraq, getdikləri məkanın “çox vacib bir yer” olduğunu söyləyib.

“Biz insan hüquqları üzrə müvəkkilin ofisinə ona görə gəlmişik ki, onlar bizim suallarımıza cavab versinlər. Eyni zamanda, ombudsmanın insan hüquqlarının müdafiəsi işinə xidmət edib-etmədiyini desinlər. Biz bura ona görə toplaşmışıq ki, ombudsman bütün bu müddət ərzində insan hüquqlarına xidmət edib, yoxsa kənardan gələn göstərişlərə?!” – deyə Qalstanyan artıq ombudsman aparatında olarkən deyib.

Ombudsman Anait Manasyan isə Baqratı jurnalistlərin iştirakı ilə qəbul etməkdən imtina edib. Eyni zamanda, insan hüquqları üzrə müvəkkil bildirib ki, Qalstanyanı və onunla birlikdə daha 4 nəfərə yaxın şəxsi jurnalistlərsiz qəbul etməyə hazır olması barədə təklifi qüvvədə qalır. Ombudsman aparatının ictimaiyyətlə əlaqələr şöbəsinin rəhbəri Artur Aslanyan bunu qurumun binası yaxınlığında jurnalistlərlə söhbətində deyib.

Öz növbəsində Nikol Paşinyan iqtidarının radikal müxalifətin aksiyalarından heç də narahat olmadığı görünür. Baş nazir aparatının rəhbəri Arayik Arutyunyanın keçirilən etiraz aksiyaları barədə fikirləri belə deməyə əsas verir. Ölkənin dövlət informasiya agentliyi – “Armenpress”in məlumatına görə, Arutyunyan jurnalistlər üçün keçirdiyi brifinqdə “etiraz aksiyaları yolu ilə hakimiyyətə gələn qüvvə nə üçün indi eyni metodla hansısa dəyişikliyə nail olmaq istəyən insanlara qarşı kobudluq edir?” sualına cavab olaraq deyib: “Biz küçədə cərəyan edən proseslərin qətiyyən əleyhinə deyilik. Siz görürsünüz ki, bizim hakimiyyətimiz dövründə küçələrdə çoxlu siyasi proses gedir. Hüquq-mühafizə orqanları isə yalnız ictimai asayişin pozulması halında prosesə müdaxilə edərək müvafiq qiymət verirlər”. Onun sözlərinə görə, dinc itaətsizlik aksiyaları keçiriləndə və ictimai qayda pozulmayanda polis həmin hərəkətləri tam dəstəkləyir.

Ermənistan istintaq komitəsi sədrinin müavini Arsen Ayvazyan isə jurnalistlərə açıqlamasında etirazçıların bu quruma ünvanladıqları ittihamlara cavab olaraq deyib: “Biz cinayət işləri düzüb-qoşmaqla məşğul olmuruq, cinayət işlərinə baxılması ilə məşğul oluruq”. O, cəmiyyəti əmin edib ki, qondarma cinayət işləri açılmır. Ayvazyan hüquq-mühafizə orqanlarının apolitik (siyasətdən uzaq) olduğunu xüsusi vurğulayıb: “İstintaq komitəsi əmrləri yerinə yetirmir, öz işini görür”.



Bu arada “Hraparak” qəzeti yazıb ki, Qarabağdan gedən haylar “Vətən naminə Tavuş” hərəkatına dəstək vermirlər. Qeyd edilib ki, onlar hərəkatın hansısa uğur qazanmasını mümkünsüz hesab etdikləri üçün ona maraq göstərmirlər. Özlərinin separatçılıq əməlləri üzündən 2023-cü ilin sentyabrında Qarabağdan getməyə məcbur qalmış şəxslərin siyasiləşmiş təbəqəsi isə “Vətən naminə Tavuş”un əleyhinə fəaliyyət göstərir. “Hraparak”ın özəl mənbələrinə istinadən yazdığına görə, hətta, qondarma “dqr”in “təhlükəsizlik şurası”nın keçmiş katibi Samvel Babayanın rəhbərlik etdiyi “Vahid vətən” partiyası Baqratın hərəkatına qarşı fəaliyyət göstərir: “Samvel Babayan arxiyepiskopla görüşündə etiraz hərəkatını dəstəklədiyini bildirsə də, Babayanın adamları gizli şəkildə baş nazir Nikol Paşinyan üçün işləməkdə davam edirlər”.

Qəzet daha sonra yazıb: “Onlar təsirləri altında olan media orqanları vasitəsilə “Artsax xalqı”nı inandırırlar ki, arxiyepiskopun rəhbərlik etdiyi hərəkatın Qarabağdan köçüb gedənlərə aidiyyatı yoxdur və “artsaxlılar” onun qələbəsindən yararlana bilməyəcəklər. Babayan özü müsahibələrində hakimiyyəti tənqid edir. Eyni zamanda, daxili siyasi böhrandan çıxış yolunun növbədənkənar parlament seçkilərinin keçirilməsi ilə tapılacağını bildirir. Yeri gəlmişkən, seçkilər hakimiyyət tərəfindən təşkil edildiyi üçün onun necə bitdiyi də heç kimə sirr deyil”.

Ermənistandakı etirazlarla bağlı “Armenian Report”da dərc olunmuş “Boşboğazlığın günahı: bir populisti digəri ilə dəyişməyə dəyərmi?” sərlövhəli məqalədə isə bildirilib ki, artıq bir aya yaxındır “yorulmaz” Baqratın bəzən kortəbii, bəzən də süni şəkildə dəstəklənən “Vətən naminə Tavuş” hərəkatı davam edir. N.Paşinyanın siyasətindən narazı vətəndaşlar etirazçılara qoşulurlar: “Ermənistanda bir çoxları birbaşa qeyd edirlər ki, vətənpərvərlik şüarlarından istifadə edən Tavuş hərəkatı “köhnə” qüvvələrdən – Paşinyanın 6 il əvvəl devirdiyi şəxslərdən dəstək alır. Əgər hərəkatın liderlərindən biri – deputat Qarnik Danielyan Robert Koçaryanın “Ermənistan” fraksiyasının nümayəndəsidirsə, onun fraksiyadakı həmkarı – sabiq prezidentin oğlu Levon bu qədər səylə hərəkata dəstək verirsə, əksini inkar etmək çətindir. Ötən həftənin cümə günü isə Ermənistanın digər eks-prezidenti Serj Sarkisyan birmənalı olaraq baş nazir postuna Baqrat Qalstanyanı dəstəklədiyini bəyan edib. Beləliklə, biz çox gözəl başa düşürük ki, “köhnə rejim”in Baqrat “srbazan”ın hərəkatında iştirakı faktdır. Rusiyanın bu qüvvələrə rəğbət bəsləməsi ehtimalı isə yüksəkdir”.

Yazıda qeyd edilib ki, “Vətən naminə Tavuş” hərəkatı ilə N.Paşinyanın “məxməri inqilabı” arasında müəyyən oxşarlıq var. Məsələn, Nikolun 2018-ci ildə yaratdığı və “Serji devir” şüarı altında fəaliyyət göstərən “Mənim addımım” hərəkatı kimi, Baqratın tərəfdarları da yolları, küçələri və dövlət əhəmiyyətli magistralları bağlayırlar. Bununla da tıxac yaranır və erməni cəmiyyətinin müəyyən hissəsinin haqlı qəzəbinə səbəb olur. “Baqratçılar” açıq populizmdən qaça bilmirlər.

Bildirilib ki, Baqrat son vaxtlar xalqın adından danışmağa cəhd edir. Halbuki, o heç parlamentin deputatı da deyil. Onun din xadimi kimi xidməti də dayandırılıb: “O, xalqın adından, hətta, daha çox dini, mənəvi, əxlaqi deyil, dünyəvi və siyasi mühakimələr səsləndirə bilərmi? Məncə, yox”.

Göründüyü kimi, Ermənistanda media qurumlarında çalışanlar da vətəndaş mövqeyi ortaya qoyaraq “Vətən naminə Tavuş” hərəkatı ilə bağlı sərt tənqidi yazılar yazırlar. **Hayastanda cərəyan edən proseslərlə bağlı fikirlərini “XQ” ilə bölüşən Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin şöbə müdiri, politoloq Cavid Vəliyev bildirdi ki,** İkinci Qarabağ müharibəsindən sonra Azərbaycan və Ermənistan arasındakı



sülh danışıqları ilə bağlı iki ciddi məsələ var idi. Bunlardan birincisi müharibəni uduzan, eyni zamanda, Azərbaycanla diplomatik müzakirələri davam etdirən Nikol Paşinyanın hakimiyyətdə qalmağı bacarıb-bacarmayacağı, ikincisi isə Ermənistan cəmiyyətinin ölkəmizlə sülhə hazır olub-olmayacağı, bunu qəbul edib-etməyəcəyi idi: “Əlbəttə, burada üçüncü sual da ortaya çıxırdı. Bu da beynəlxalq qüvvələrin davam edən prosesdə mövqeyinin nədən ibarət olacağı idi. Ermənistan–Azərbaycan sülh prosesi son 3 il yarım ərzində hər üç baxımdan çox təlatümlü proseslərdən keçdi. Çünki bunlar iki ölkə arasında həqiqi sülhün əldə olunması baxımından vacib məqamlar idi. Aprelin 19-da Bakı və İrəvan arasında sərhədlərin delimitasiyası və demarkasiyası ilə bağlı əldə olunan razılaşmadan sonra Ermənistanda başlanan bu proses qeyd olunan üç məqamı test etmək baxımından da vacib idi”.

C.Vəliyev qeyd etdi ki, revanşistlərin mövqeyi əvvəlkitək zəif olaraq qalır. Onlar uğur qazana bilmədilər: “İkincisi, Paşinyan mövqeyini, hakimiyyətini qoruya bilir. Üçüncüsü, Ermənistanda müəyyən bir kütlə – revizionist (əldə edilmiş hər hansı razılığın yenidən nəzərdən keçirilməsinin zəruriliyini bəyan edən qruplar–S.H.) və revanşist qüvvələr olsa da, biz bu cür yanaşmanın mənasızlığını, Azərbaycanla yeni müharibənin daha böyük mənfi nəticələr doğuracağını düşünənlərin də çoxluq təşkil etdiyini gördük. Son hadisələrdə biz bunun şahidi olduq. Bu səbəbdən onlar nə ölkə daxilində böyük xalq kütlələrindən, nə də xaricdən dəstək ala bildilər. Nəticədə hakimiyyəti devirmək də mümkün olmadı”.

Müsahibimiz hesab edir ki, bunun başlıca səbəblərindən biri də Paşinyanın son 3 il ərzində həm polisdə, həm də orduda öz lehinə etdiyi dəyişikliklərdir. Əgər polisdə, orduda, hətta, məhkəmə sistemində revanşistləri dəstəkləyənlər üstünlük təşkil etsəydi, hazırda vəziyyət Paşinyanın əleyhinə ola bilərdi.

***Səxavət HƏMİD***
***XQ***

# Regional təhlükəsizlik Azərbaycan multilateralizmi kontekstində

### V məqalə

### Milli və regional problemlərin həlli

Azərbacyan multilaterallığının uğurlu olmasını təmin edən faktor kimi Prezidentin milli maraqları region kontesktində mövcud olan problemlərin həlli ilə üzvi surətdə əlaqələndirə bilməsini göstərmişdik. O mənada ki, Azərbaycan yalnız özünün daxili milli məsələlərini həll etmədi, əksinə, onu regionda mövcud olan problemlərin həlli ilə uyğunlaşdırdı. Bizim Asiya – Sakit okean regionunda multilaterallığın çatışmayan başlıca cəhətinin bundan ibarət olması ilə bağlı təhlilimiz də tezisimizə əlavə sübutdur. Orada İndoneziya, Tailand, Kambocanın nə ayrılıqda, nə də bir yerdə regional problemləri multilateral prinsiplər çərçvəsində həll edə bilmədikləri vurğulanmışdır.

Bundan başqa, Cənubi Qafqazda böyük geosiyasi güclərin maraqları daha kəskin şəkildə toqquşur. Azərbaycan üçün bu da başqa bir çətinlik yaradırdı. Lakin Prezident İlham Əliyev bütün bunların öhdəsindən gələrək geosiyasi aspektdə həqiqi mənada inqilab etdi. II Qarabağ savaşı onun yüksək zirvəsidir. Bu tarixi Zəfərin prizmasında Azərbaycanın regional siyasətinin bir sıra mühüm cəhətinə multilaterallıq kontekstində nəzər salmaq faydalı olardı.

Davamlı olaraq enerji siyasəti, regional təşkilatlanma və təhlükəsizliyin yeni formatının yaradılması istiqamətlərinin sintezində Azərbaycan güclü siyasi-diplomatik fəaliyyət göstərmişdir. Onun bir əlaməti cəmiyyətdə multikultural dəyərlərin inkişaf etdirilməsi idi. Digər əlaməti regional əməkdaşlıq və təhlükəsizlik formatlarının yeniləşməsi ilə bağlı idi.

İlham Əliyev Cənubi Qafqazda ikitərəfli və üçtərəfli əməkdaşlıq formatlarının təşəbbüskarıdır. Bir neçə il davamlı olaraq müxtəlif kombinasiyalarda region dövlətləri və ona yaxın olan böyük dövlətlər arasında XXI əsrin şərtlərinə uyğun əməkdaşlıq formatları ideyasını irəli sürən Azərbaycan Prezidenti, onların reallaşması üçün də kifayət qədər fəallıq göstərmişdir. Həmin formatlar çoxdur və faktiki olaraq şəbəkə təşkil edir. Multilaterallıq kontekstində onların bir neçəsi üzərində dayanaq.

İlham Əliyev Azərbaycan–Türkiyə, Azərbaycan–Rusiya–Türkiyə, Azərbaycan–Türkiyə–Gürcüstan, Azərbaycan–Türkiyə–İran formatlarında əməkdaşlıq formalarını irəli sürərək, Cənubi Qafqazın sabitliyi və təhlükəsizliyi istiqamətində mövcud ab-havanı ciddi surətdə dəyişmişdir. Çünki məsələ yalnız ideya ilə məhdudlaşmadı, onun konkret layihələr əsasında reallaşdırılması üzrə əsaslı addımlar atıldı. Onun nümunələrindən biri məlum Rusiya – Türkiyə böhranı zamanı Azərbaycan Prezidentinin fəallğıdır. İlham Əliyev regionun iki güclü dövləti arasında yaradılmış süni ixtilafın aradan qaldırılması üçün təsirli addımlar atdı ki, indi onu diplomatik dairələrdə ayrıca vurğulayırlar. Əgər, bu, baş tutmasaydı, indi Cənubi Qafqazda sülh, sabitlik və ya təhlükəsizlikdən danışmaq mümkün deyildi. Nümunə kimi, Ukraynadakı vəziyyəti göstərə bilərik. Rusiya ilə Ukrayna arasında münasibətlərin sivil yolla tənzimlənməsini üzərinə götürüb real həll edən lider olmadı. İndi tərəflər bir-birinə qarşı çox aqressiv davranmaqdadırlar və bütövlükdə, Avropanın təhlükəsizliyi müzakirə mövzusudur.

Azərbaycan Rusiya və Türkiyə ilə yanaşı, Gürcüstanın da regional proseslərdə konstruktiv iştirakına maksimum şərait yaratdı. Ayrıca, Azərbaycan–Türkiyə–Gürcüstan əməkdaşlıq formatı yüksək səmərə verməkdədir. Bu üç ölkə bütün sferalar üzrə faydalı əməkdaşlığı davam etdirirlər. Cənubi Qafqazda bir neçə dəfə böhranlı vəziyyət yarananda məhz həmin üç ölkənin əməkdaşlığı proseslərə müsbət təsirini göstərdi.

İndi də Azərbaycan–Türkiyə–Gürcüstan əməkdaşlıq formatı enerji, nəqliyyat, loqistika və təhlükəsizlik istiqamətlərində öz səmərəsini nümayiş etdirməkdədir. Xüsusilə, Avropanın eneji təhlükəsizliyi kontekstində həmin formatın Xəzər dənizi–Qara dəniz məkanında rolu çox müsbətdir. Məsələn, Azərbaycan enerji strategiyasının üçüncü mərhələsində – bərpaolunan və "yaşıl enerji" üzrə əməkdaşlığın inkişaf etdirilməsi mərhələsində, həmin formatdan maksimum dərəcədə istifadə edir. Bütün layihələrdə Türkiyə və Gürcüstanın iştirakı təmin edilir. Üstəlik, hər iki dövlətlə enerji strategiyasının üçüncü mərhələsində geniş nəqliyyat-loqistika layihələri reallaşdırılır. Bu, faktiki olaraq yeni səviyyədə geniş bir məkanda Azərbaycanın ciddi rol oynadığı əməkdaşlıq və təhlükəsizlik şəbəkəsinin yaradılması prosesinin özünün yeni keyfiyyət səviyyəsinə yüksəldilməsi deməkdir.

### Regional təşkilatlanma və multilaterallığın 4 aspekti

Vurğulanan istiqamətdə aktual və maraqlı bir məqamı da unutmamalıyıq. Biz, Azərbaycan–Türkiyə–Gürcüstan əməkdaşlıq formatının Orta dəhliz kontekstində daha geniş məkanda əməkdaşlıq formatlarına müsbət təsir etməsini nəzərdə tuturuq. Burada konkret olaraq üç istiqamətdən söhbət gedir.

Birincisi, Azərbaycan–Türkiyə–Gürcüstan əməkdaşlıq formatı İranla münasibətlərin inkişaf etməsində təsirli rol oynayır.

İkincisi, həmin format Mərkəzi Asiya dövlətləri ilə üçtərəfli, dördtərəfli əməkdaşlığın inkişafına təkan verir.

Üçüncüsü, Azərbaycan–Türkiyə–Gürcüstan əməkdaşlıq formatı Avropa ölkələri ilə müxtəlif formatlarda əməkdaşlığın reallaşmasında ciddi rol oynayır. Məsələn, Rumıniya, Bolqarıstan, İtaliya, Slovaniya, Albaniya, Macarıstanla enerji strategiyasının üçüncü mərhələsində əməkdaşlıq formatlarında Azərbaycan–Türkiyə–Gürcüstan formatı əsas yerlərdən birini tutmaqdadır. Deyək ki, "Əməkdaşlıq halqası" adlanan və Avropanın bir neçə dövləti ilə bərpaolunan enerji üzrə əməkdaşlıq formatında Azərbaycan



Gürcüstan və Türkiyə ilə birgə fəaliyyət göstərir, enerjinin ötürülməsi marşrutları həmin ölkələrin ərazisindən keçir. Bu da daha geniş kontekstdə Azərbaycanın Aİ ilə əməkdaşlığına əsaslı töhfə verir.

Dördüncüsü, Azərbaycan–Türkiyə–Gürcüstan əməkdaşlıq formatı əksəriyyətin böyük heyrətinə rəğmən Türk Dövlətləri Birliyinin real fəaliyyəti üçün olduqca vacib töhfələr verir. Gürcüstan TDT-nin tədbirlərinə müşahidəçi kimi dəvət edilir. Faktiki olaraq bu ölkənin də TDT-yə üzv ola biləcəyi mesajları verilir (əsasən Azərbaycan Prezidenti tərəfindən). Digər tərəfdən, Gürcüstanın Aİ ilə xüsusi isti münasibətlərinin olması fonunda Macarıstanın da TDT-də iştirakı əlavə təbii zərurət kimi görünür.

Ancaq məsələ bununla məhdudlaşmır. Çünki Gürcüstan Azərbaycan və Türkiyə vasitəsilə, bütövlükdə, türk dövlətləri ilə əməkdaşlığa ümid edir. Faktlar onu göstərir ki, Mərkəzi Asiya dövlətlərinin iştirak etdiyi və Azərbaycanla Türkiyənin də yer aldığı hər bir layihədə Gürcüstanın da iştirakı təmin edilir. Bu proses getdikcə daha geniş miqyas almaqdadır. Məsələn, Orta dəhlizin işləməsində və gələcəkdə Şimal–Cənub dəhlizində Gürcüstanın da iştirakının təmin edilməsində.

İndi Azərbaycan–Gürcüstan–Türkiyə formatı üzrə əməkdaşlığın ümumi mənzərəsini yarada bilərik. Belə görünür ki, bu əməkdaşlıq formatı, bütövlükdə, Qərblə Şərq arasında əlaqələrin sağlam müstəvidə inkişafına böyük töhfə verir. Asiya, Mərkəzi Asiya, Qafqaz və Avropa məkanlarının sintezində faydalı əməkdaşlıq və təhlükəsizlik mühitinin yaradılmasının stimullaşdırıcı faktorlarından biri kimi çıxış edir. Bu da geosiyasi aspektdə Azərbaycan multilaterallığının konkret pozitiv nəticələr verən nümunələrindən biridir. Həm də məsələ bununla məhdudlaşmır.

### Azərbaycan multilaterallığı daha geniş kontekstdə

Prezident İlham Əliyevin siyasi-diplomatik və təşəbbüskar yaradıcı liderlik keyfiyyəti sayəsində yalnız Azərbaycan–Türkiyə–Gürcüstan regional əməkdaşlıq (və ya təşkilatlanma) nümunəsi yuxarıda vurğuladığımız aspektlərdə konstruktiv rol oynamır. Bura eyni dərəcədə Azərbaycan–Rusiya–Türkiyə, Azərbaycan–İran–Türkiyə, Azərbaycan–Türkiyə–Mərkəzi Asiya ölkələri formatları da aiddir. Daha geniş geosiyasi miqyasda isə həmin formatlar Asiya (Çin və Pakistan, qismən Hindistan), Yaxın Şərq (İraq, Səudiyyə Ərəbistanı, Qətər, Birləşmiş Əmirliklər, Misir və s.) Avropa (Çinlə Aİ ölkələri arasında nəqliyyat-loqistika kommunikativ əlaqələrinin yaradılması) istiqamətlərində özünün müsbət funksional rolunu yerinə yetirir.

Bütün bunlar Asiya–Sakit okean regionu nümunəsində Asiya multilaterallığının bir qüsurunun Azərbaycan multilaterallığında olmadığı qənaətini almaq imkanı verir. Birincisi, Asiya–Sakit okean regionu üçün multilaterallığın regional miqyası ilə regionlararası miqyası arasında struktur-funksional bağlar mövcud deyildir. İkincisi, real olaraq Asiya multilaterallığı regional əməkdaşlıq formatları şəbəkəsi ilə regionlararası əməkdaşlıq formatları arasında sinxronluğu təmin edə bilmir.

Yuxarıdakı nümunələr göstərir ki, Azərbaycan multilaterallığında hər iki keyfiyyət mövcuddur. Azərbaycan regional miqyasda ikitərəfli və üçtərəfli əməkdaşlıq formatlarını mükəmməl şəkildə regionlararası miqyasda əməkdaşlıq formatları ilə sinxronlaşdırmışdır. Onun substantiv göstəricisi TDT-dir, funksional əlamətlərindən biri isə Orta dəhlizin aktuallığının daim saxlanmasıdır. Bunlardan əlavə, Azərbaycan həm ayrıca müstəqil dövlət, həm də TDT-nin, MDB-nin və Qoşulmama Hərəkatının fəal üzvü kimi regional, regionlararası və qlobal geosiyasi məkanda kifayət qədər maraqlı, əhəmiyyətli və nəticəverici təşəbbüsləri ilə seçilir. Bu tezis təkcə Azərbaycan liderinin təəsübkeşliyindən deyil, çoxlu sayda faktlardan yaranmışdır. Bir neçəsinə qısa nəzər salaq.

Azərbaycan "Bakı prosesi"nin müəllifidir. Fəaliyyət miqyasını və aldığı nəticələri yalnız məlumatsızlar bilmir. Humanitar forumun təşəbbüskarı Azərbaycan və Rusiyadır. Dünyanın dörd bir yanından bu forumun tədbirlərində iştirak edən yüksək səviyyəli mütəxəssislər və siyasilər vardır.

Azərbacyanın MDB-dəki fəaliyyətinin müsbət olması ilə bağlı Rusiya, Belarus və Qazaxstan prezidentləri dəfələrlə faktlar əsasında fikir söyləmişlər. Ayrıca KTM-də Azərbaycan üzv olmaya-olmaya Ermənistandan daha konstruktiv, faydalı və hüquqi mövqeyinə görə, xüsusi hörmətə malikdir.

Azərbaycan Prezidenti Qoşulmama Hərəkatının sədri kimi bütün üzv dövlətlər üçün ədalət, sülh, hüquqi təminat, yardımlaşma, paylaşma kimi məsələlərdə ən fəal lider olmadımı? İlham Əliyevin özünün yardıma ehtiyacı olmadan dünyanın bir sıra dövlətlərinə qarşı güclü dövlətlərin peyvənd məsələsində haqsız və ədalətsiz davrandığını mərdcəsinə BMT-yə çıxarmadımı? Bu suala yalnız cahillər və qərəzli olanlar mənfi cavab verə bilərlər.

Azərbaycan Prezidenti TDT-nin güclənməsi üçün nə dərəcədə aktiv olduğunu hətta ermənilər də etiraf edirlər. Birbaşa Azərbaycan Prezidentinin faydalı, aktual, müasir əməkdaşlıq və təhlükəsizlik təklifləri Mərkəzi Asiya dövlətləri başçılarının Xəzərin bu tayına axışmasına səbəb oldu. Bu proses indi də davam edir və Türkiyə rəhbərliyi tərəfindən böyük təqdirlə qarşılanır. Üstəlik, Azərbaycan bu tarixi missiyanı elə yerinə yetirir ki, Qərb, Rusiya və İran da qəbul etməli olur (burada müəyyən incəliklər mövcuddur, lakin o, başqa mövzudur).

Azərbaycan bütün təxribatlara baxmayaraq multilaterallığın çox əhəmiyyətli bir aspektini – Avropa ilə əməkdaşlığı uğurla inkişaf etdirir. Bunu konkret layihələr, siyasi-diplomatik fəaliyyət, ədalətsizliyə qarşı aktiv mübarizə kontekstində edir. Aİ-nin bir sıra üzvləri Azərbaycana şər-böhtan atanda belə rəsmi Bakı mərdcəsinə seçdiyi yolda davam etdi. O cümlədən, Fransa Ermənistan məsələsində tam qeyri-konstruktiv və təxribatçı mövqe tutanda Bakı Aİ ilə enerji sferasında əməkdaşlığı bütün sürəti ilə inkişaf etdirdi.

Bunların fonunda artıq dünyanın coğrafi olaraq ən uzaq regionlarında yerləşmiş ölkələrin belə Azərbaycana müstəmləkiçiliyə, azadlığa, ədalətə və hüquqsuzluğa qarşı mübarizədə nümunə kimi baxmaları xüsusi miltilateral mənaya malikdir.

Başqa faktlar da gətirə bilərik. Zənnimizcə, vurğulananlar da göstərir ki, Azərbacyan multilaterallığının zəngin məzmunu və konkret reallaşma mexanizmləri mövcuddur. Digər regionlardan fərqli olaraq bu möhtəşəm uğurlara xüsusi təkan verən prosesin də yaradıcısı Azərbaycandır! Biz II Qarabağ savaşını nəzərdə tuturuq.

**(ardı var)**

***Füzuli QURBANOV,***
***XQ-nin analitiki,***
***fəlsəfə elmləri doktoru***

# Türkiyə şirkətləri Qarabağın dirçəlişi cəbhəsində

**(əvvəli 1-ci səhifədə)**

Hazırda türk şirkətləri Toğana–Kəlbəcər–İstisu yolunun tikintisində iştirak edirlər. Bu yol başlanğıcını Göygöl rayonunun Toğanalı kəndindən götürməklə Kəlbəcər rayonunun ərazisindən keçir. Layihəni Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin 3 nömrəli Magistral Yolların İstismarı MMC-si ilə subpodratçı şirkətlər olan Türkiyənin "Kolin İnşaat" və "Cingiz İnşaat" şirkətləri birgə icra edirlər.

Yeri gəlmişkən türk şirkətlərii bu yolda xüsusi hazırlıq tələb edən tunel çəkilişlərini yerinə yetirir. Belə ki, Toğanalı–Kəlbəcər–İstisu yolunda 11 kilometr 600 metr uzunluğu olan Murovdağ tunelini Türkiyənin "Çingiz İnşaat" şirkəti inşa edir. İnşasının 2025-ci ildə tamamlanması gözlənilən tunel dünyadakı ən uzun tunellərdən biri olacaq. Bu şirkət eyni zamanda 3,5 kilometrlik Laçın–Kəlbəcər tuneli də inşa edir. Ümumilikdə, Qarabağ ərazisində Türkiyə şirkətləri tərəfindən toplam 62 kilometr uzunluqda tunel tikilir.

**Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin (AAYDA) mətbuat katibi Anar Nəcəfli** qeyd edib ki, yolun istifadəyə verilməsi Toğana kəndinin və Kəlbəcər rayonunun iqtisadi inkişafına əhəmiyyətli dərəcədə təsir göstərəcək. Təbii ki, yola nəzarət və xidmət üçün işçi qüvvəsi tələb olunacaq, sakinlərin bir çoxu burada özünə daimi iş yeri tapacaq. Digər tərəfdən, yeni yol dağların qoynunda, yaşıl meşələrin əhatəsində olan Kəlbəcərin turist sektorunun imkanlarını artıracaq. Bu üzdən sözügedən rayonun bir çox yaşayış məntəqələri ilə yanaşı, rayon mərkəzinə və məşhur İstisu ərazisinə qədər rahat gediş-gəliş təmin ediləcək.

Türkiyənin "Kolin İnşaat" və "Çingiz İnşaat" şirkətlərinin iştirak etdiyi layihələrdən biri də Horadiz–Cəbrayıl–Zəngilan–Ağbənd avtomobil yolunun tikintisidir. Başlanğıcını Horadizdən götürən yolun Ermənistan sərhədinə qədər uzunluğu təqribən 124 kilometrdir. İndiyədək "Kolin İnşaat" işlərin təqribən 90 faizini yerinə yetirib. "Çingiz İnşaat" şirkəti isə tunellərin tikintisini həyata keçirir.

Qeyd edək ki, Horadiz–Cəbrayıl–Zəngilan–Ağbənd avtomobil yolu işğaldan azad edilmiş rayon və kəndlərin sosial-iqtisadi inkişafında mühüm rol oynayacaq 10 yol infrastrukturu layihələrindən biridir. Sözügedən yol Hacıqabul–Horadiz–Ağbənd–Zəngəzur dəhlizi magistral avtomobil yolunun bir hissəsi olmaqla, Zəngilanı Azərbaycanın digər rayonları və Naxçıvan Muxtar Respublikası ilə birləşdirmək baxımından çox böyük əhəmiyyətə malikdir. Zəngəzur dəhlizi işə düşdükdən sonra bu yolla Naxçıvana və Türkiyəyə, hətta İstanbula getmək mümkün olacaq.

Qarabağda yol infrastrukturu layihələrinin reallaşdırılmasında iştirak edən Türkiyə şirkətlərindən biri də "Proyapı"dır. Şirkət Azərbaycanda avtomobil yollarının tikintisi və layihələndirilməsi sahəsində təqribən 50-dən çox layihə həyata keçirib. **"Proyapı" şirkətinin Azərbaycandakı idarəetmə heyətinin sədr müavini Akif Aygen** bu barədə deyib: "Hazırda biz Qarabağda yol infrastrukturunun tikintisində iştirak edirik və bu fəaliyyətimizlə qürür duyuruq. Qarabağ layihələri arasında Fizuli–Şuşa avtomobil yolu olan "Zəfər yolu", Əhmədbəyli–Füzuli–Şuşa avtomagistralının tikintisi, Xudafərin–Qubadlı–Laçın, Xanlıq–Qubadlı, Toğanalı–Kəlbəcər, Kəlbəcər–Laçın, Əhmədbəyli–Horadiz–Mincivan–Ağbənd, Füzuli–Ağdam avtomobil yollarının tikintisi çərçivəsində məsləhət və layihələndirmə xidmətlərimz var".

Türkiyə şirkətləri Füzuli Beynəlxalq Hava Limanının layihələşdirilməsində də iştirak edib. Hava limanında 12 Türkiyə şirkəti çalışıb və 8 aya tikinti tamamlanıb. Onun istifadəyə verilməsi işğaldan azad edilmiş ərazilərdə quruculuq işlərini sürətləndirib. Hava limanı həmin ərazilərin bərpa və yenidən qurulması üçün zəruri olan yüklərin daha tez və asan daşınmasına şərait yaradıb. Eyni zamanda, yükdaşımalar, xüsusən də beynəlxalq yükdaşımalar üçün geniş imkanlar açıb. Hava limanının açılması bölgədə turizmin inkişafına da şərait yaradıb. **Bu barədə iqtisadçı Vüqar Bayramov deyib:**

– Bərpa və yenidənqurma, eləcə də məskunlaşma prosesindən sonra işğaldan azad edilmiş ərazilərimizdə ölkə iqtisadiyyatının 8 faizinin formalaşacağı nəzərdə tutulur ki, bu da 5 milyard manatdan artıq yeni dəyər deməkdir. Bu imkan verəcək ki, həmin dəyərin fərqli bazarlara çıxarılması və yaranmış dəyərin realizasiyasında Füzuli Hava Limanının töhfəsi olsun. Turizmin inkişafına da bu limanın böyük töhfəsi olacaq. Çünki Füzuli şəhəri Şuşa şəhəri ilə "Zəfər yolu" vasitəsilə birləşir. Həmçinin, bu şəhərləri birləşdirəcək yeni yol inşa edilir".

Türkiyə şirkətləri həm də Zəngilan Beynəlxalq Hava Limanının tikintisində iştirak ediblər. O, Qarabağın mühüm nəqliyyat qovşağına çevrilməsini şərtləndirən əsas obyektlərdəndir. Həmçinin bu hava limanı Zəngəzur dəhlizinin hava nəqliyyatı infrastrukturu ilə gücləndirilməsi baxımından strateji əhəmiyyət kəsb edir. Qeyd edək ki, Zəngilan Beynəlxalq Hava Limanı işğaldan azad edilmiş ərazilərdə Füzulidəki hava limanından sonra istifadəyə verilən beynəlxalq statuslu ikinci aeroportdur. Üçüncü hava limanı isə Laçın rayonunun ərazisində inşa olunur.

Hazırda Horadiz–Ağbənd dəmir yolu xəttinin inşası da fəal fazadadır və işlərin 55 faizi icra edilib. Böyük strateji əhəmiyyəti olan dəmir yolu xəttinin inşası işğaldan azad edilmiş ərazilərimizin iqtisadi potensialına böyük töhfə verəcək. Həm vətəndaşların gediş-gəlişi, həm də yüklərin daşınması üçün böyük əhəmiyyətə malik olacaq. Bununla da Azərbaycan və onun ayrılmaz hissəsi olan Naxçıvan Muxtar Respublikası dəmir yolu ilə bir-birinə bağlanacaq. Oradan isə həmin dəmir yolu İran və Türkiyəyə keçəcək və nəhayət, Avropaya çatacaq. Beləliklə, ölkəmizin strateji, iqtisadi və siyasi məqsədləri həyata keçiriləcək. Horadiz–Ağbənd dəmiryolu xəttinin layihələndirilmə və tikinti işləri, həmçinin texniki



nəzarət Azərbaycan və Türkiyə şirkətləri tərəfindən yerinə yetirilir.

Türkiyə şirkətləri Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında yalnız yol infrastruktlarının, hava limanlarının tikintisində, tunellərin, su anbarlarının inşasında deyil, aqroparkların yaradılmasında da iştirak edirlər. Bu sahədə Zəngilan rayonunda yaradılan "Dost Aqropark"ı böyük əhəmiyyət daşıyır. O, Azərbaycan və Türkiyə şirkətlərinin birgə müəssisəsidir və həmin aqropark artıq fəaliyyətdədir. Burada ağıllı kənd təsərrüfatı texnologiyaları, bərpaolunan enerji və dayanıqlı kənd təsərrüfatı mexanizmlərinə əsaslanan fəaliyyət qurulub.

Tezliklə Zəngəzur dəhlizi də açılacaq. Artıq hava limanı istifadəyə verilib. Dəmiryolu çəkiləndən və Zəngəzur dəhlizi açılandan sonra bu ərazi logistika baxımından çox önəmli olacaq. Həm xaricdən bura arpa, buğda gətirmək, həm də aqroparkın istehsal etdiyi məhsulları ixrac etmək daha da rahatlaşacaq. Regionun infrastrukturunun bərpası təkcə Azərbaycanın deyil, bütün Cənubi Qafqazın inkişafına töhfə verəcək.

Beləliklə, Türkiyə Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında aparılan quruculuq fəaliyyətinin iştirakçısıdır.Bu ölkənin şirkətlərinin iştirakı ilə yollar salınır, dəmir yolları çəkilir, hava limanları və tunellər tikilir, infrastruktur layihələri gerçəkləşir, aqroparklar yaradılır. Bunlar Qarabağ və Şərqi Zəngəzurun inkişafının əsas strateji istiqamətlərindən biridir, yenidənqurma və bərpa işlərini sürətləndirirlər. Onlar davamlı iqtisadi inkişafına imkan yaradır.

***Pünhan ƏFƏNDİYEV***
***XQ***

# “Narahat” ABŞ konqresmenlərinə rahat cavab

## *Azərbaycanın Qeyri-Hökumət Təşkilatları ABŞ Konqresinin 26 üzvünə gerçəyi necə anlatdı?*

**Bu məktub COP29-un Azərbaycanda keçirilməsindən “narahat olan” konqresmenlərə ünvanlanıb. Həmin 26 konqresmen mayın 13-də ABŞ Dövlət katibi Antoni Blinkenə və ABŞ Prezidentinin baş müşaviri John Podestaya məktubla müraciət edərək, onları Azərbaycanın COP29-a sədrliyini pozmaq üçün hərəkətə keçməyə çağırıblar. Arqumentləri budur ki, guya, Azərbaycan neft-qaz hasilatçısı olmaqla, ekologiyaya ziyan vuran ölkələr sırasında yer tutur.**



Konqresmenlərin Ağ Ev təmsilçilərinə ünvanladıqları məktubda heç bir fakta, rəqəmə istinad edilməyib. Azərbaycanın müasir trendlərə uyğun olaraq, “yaşıl enerji” siyasəti yürütdüyü və bu yöndə ciddi uğurlar əldə etdiyi nəzərə alınmayıb. Özlərinin əsassız, absurd mülahizələrinə söykənərək, Azərbaycanın “yaşıl enerji” siyasətinin səmimiliyini şübhəyə almağa, qaralamağa çalışıblar.

* * *

Azərbaycan QHT-lərinin 26 konqresmenin fəaliyyətinə cavab olaraq hazırladıqları məktub isə faktlara əsaslanır. Rəqəmlərlə sübuta yetirilir ki, dünyada ətraf mühiti ən çox çirkləndirən ölkələr sırasında ABŞ liderlik edir. Məsələn, məktubda qeyd edilir ki, dünyada neft istehsalına görə birinci yeri ABŞ tutur. O, hazırda gündəlik 13 milyon barrel neft hasil etməklə, dünyada istehsal olunan neftin həcmində, təxminən, 15 faizlik paya malikdir. Yaxud, dünyada iqlim dəyişmələri böhranın yaranmasının köklü səbəblərindən biri kimi daş kömür yanacağından istifadə faktı götürülür. Kömür çirkli yanacaq növü kimi ekoloji tarazlığın pozulması prosesində həlledici paya malikdir. İstilik effekti yaradan qaz emissiyaları ən çox kömürün istehsalı, saxlanması, daşınması və yandırılması proseslərində formalaşır. Bu gün ABŞ-da hələ də kömürdən yanacaq kimi istifadə edilir. Həmçinin, ABŞ tarixən ən böyük kömür istehsal edən ölkə olub. 2022-ci ildə 540 milyon ton kömür istehsal edərək dünyada 4-cü yeri tutub.

Belə faktların sadalanmasından sonra vurğulanır ki, ABŞ-nin karbon emissiyalarının həcmi 430 milyard tondan çoxdur. Bu, dünyada ən yüksək göstəricidir.

Problem ondadır ki, ABŞ konqresmenləri özlərində cəsarət tapıb heç zaman bu faktların üzərinə getməyiblər. ABŞ-nin qlobal ekoloji tarazlığı pozan sənayesini tənqid hədəfinə çevirməyiblər. Öz ölkələrinin imicinə xələl gətirən faktlara göz yumaraq, başəriyyətə ciddi ekoloji zərbələr vurulmasına şərait yaradıblar. Qlobal iqlim dəyişmələrində əsas tarixi məsuliyyət daşıyan inkişaf etmiş ölkələri diqqətdən yayındıraraq, informasiya manipulyasiyaları ilə dünya ictimaiyyətini çaşdırıblar. Ekologiyanın korlanmasına görə bütün məsuliyyəti neft-qaz istehsal edən kiçik ölkələrin üzərinə qoymağa çalışıblar. Azərbaycan QHT-lərinin ABŞ konqresmenlərinə ünvanladıqları məktubda bütün bunlar faktlarla sübuta yetirilib.

* * *

Nəzərə almaq lazımdır ki, ABŞ Konqresinin manipulyasiya etdiyi mövzu təkcə ekoloji böhranla bağlı deyil. Onların geopolitik siyasət, lokal münaqişələr, demokratik inkişaf, insan haqları, media azadlığı və sair bu kimi mövzulara yanaşmaları da problemlidir. Öz maraqları naminə faktları dəyişirlər, saxtalaşdırıb kontekstdən çıxarırlar. Haqsız olsalar da, özlərini haqlı kimi göstərə bilir, yaratdıqları problemləri başqa ölkələrin adına



*Müşfiq ƏLƏSGƏRLİ,*
*“XQ”-nin media eksperti*

yazmağı bacarırlar. Saxtakarlıq üçün tam bir mexanizm hazırlayıblar. Bu mexanizmlərdən biri məhz 26 konqresmenin COP29 mövzusunda müraciəti zamanı üzə çıxır. Əllərində, təsirlərində olan media resurslarından istifadə edən 26 konqresmen öz müraciətlərini ABŞ Konqresinin ümumi mövqeyi kimi qələmə verirlər. ABŞ Konqresinin 535 nəfər üzvü var, müraciəti isə erməni diasporunun dostu olan 26 nəfərlik heyət imzalayıb. Azərbaycan QHT-lərinin hazırladıqları cavab məktubunda bu nüansa da diqqət yetirilir.

Beləliklə, deyə bilərik ki, Azərbaycan QHT-lərinin 26 ABŞ konqresmeninə cavab olaraq hazırladıqları müraciət formal olaraq COP29-un Azərbaycanda keçirilməsindən narahat olan 26 konqresmenə ünvanlansa da, ümumilkdə, ABŞ Konqresinin və ABŞ-nin geopolitik siyasətinin mahiyyətini açır.

REPLİKA

# “Qafqazşünas”ın strateji sapması

## Qarabağa “Azərbaycanın Qüdsü” demiş Tomas de Vaal indi nə deyir?

**Britaniyalı jurnalist, Karneqi Beynəlxalq Sülh Fondunun təhlilçisi, Qafqaz məsələləri, xüsusilə Qarabağ münaqişəsi üzrə mütəxəssis sayılan Tomas de Vaalın “Foreign Affairs” jurnalında çoxlu suallar doğuran məqaləsi dərc olunub.**



Məqalə müəllifi iddia edir ki, Rusiya sülhməramlılarının bölgədə 2025-ci ilə qədər mandatı vardı və onlar regionda Moskvanın təsirini proqnozlaşdırmaqla yanaşı, ermənilərin bəzilərinin Qarabağa qayıtmasına şərait yarada bilərdilər. Tomas “amma Rusiya regionu tərk etməyi seçməklə Azərbaycana zəfər qazandırdı, Azərbaycan Ordusuna uzun müddətdir “mübahisəli olan ərazi” üzərində maneəsiz nəzarəti əldə etməyə imkan yaratdi” – kimi geosiyasi reallıqdan uzaq, məntiqsiz açıqlaması ilə həm də yarıtmaz bölgəşünas olduğunu nümayiş etdirib. Çünki, o, Azərbaycanın Qarabağ Zəfərini nələrin bahasına əldə etdiyini çoxlarından yaxşı bilir. Burada kənar amillərin heç bir rol oynamadığı da hamıya bəllidir.

Qarabağdan bəhs edən “Qara bağ: Ermənistan və Azərbaycan sülh və savaş yollarında” kitabının (Nyu–York, 2003) müəllifi Tomas de Vaalın Azərbaycanın BMT və dünya tərəfindən tanınmış torpaqlarını “mübahisəli ərazi” adlandırması, ən azı, həmin beynəlxalq hüquqa hörmətsizlik əlamətidir. Məqaləsində Azərbaycanı Cənubi Qafqazın üç ölkəsindən ən böyüyü və ən zəngini kimi qələmə verən müəllif onun Rusiyanın bəzi bölgələrində baş verən dəyişikliklərdən hamıdan çox faydalandığını qabardır: “Bakı Şərq–Qərb enerji siyasətinin oyunçusudur. İki boru kəmərindən Gürcüstan və yaxın müttəfiqi Türkiyə vasitəsilə nəql olunan neft və qazını Avropa və beynəlxalq bazarlara çatdırır. İranla həmsərhəd olan Azərbaycan həm də Moskva ilə Yaxın Şərq arasında Şimal–Cənub qapısı rolunu oynayır”.

Sifarişin qoxusu gələn məqaləsində təzadlı olduğu qədər də ikibaşlı mülahizələrində irəli gedən de Vaal iddia edir ki, 2020-ci il müharibəsindən sonra Moskva Bakı ilə münasibətlərində yeni strateji dönüşə başlayıb: “Görünür, sülhməramlıların çıxarılması Bakı ilə Moskva arasında razılaşmanın əsas tərkib hissəsi idi. Rusiya sülhməramlıları Qarabağdan getdikdən cəmi beş gün sonra İlham Əliyev Moskvaya səfər edib və orada iki ölkə arasında əlaqələrin genişləndirilməsi müzakirə olunub”.

Rusiya Azərbaycanın strateji tərəfdaşıdır və iki ölkə arasında əməkdaşlığın miqyası o həddə çatıb ki, iki dövlətin rəsmilərinin qarşılıqlı səfərləri ənənəvi hal alıb. Bakının bunu gizlətmək niyyəti yoxdur və Azərbaycan Prezidenti bu faktı çıxışlarında açıq şəkildə vurğulayıb. Bunun altından gizli sövdələşmələrin, “məxfi planların” izini axtarmaq isə səmərəsiz cəhdlərdir.

Yeri gəlmişkən, bu, həmin de Vaaldır ki, 2021-ci ilin noyabrında Rusiya mətbuatına verdiyi müsahibəsində 44 günlük müharibəni şərh edərkən, indikindən fərqli olaraq, sağlam və məntiqi fikirlər söyləmişdi: “Bu, təkcə Qarabağ uğrunda yox, Azərbaycanın gerçək torpaqları üçün müharibə idi. O torpaqlar, rayonlar ki, orada yarım milyondan çox azərbaycanlı yaşayırdı. Azərbaycan bu rayonların itirilməsi ilə barışa bilməzdi. Gürcüstan Abxaziyasız, Moldova Dnestryanı ərazisiz yaşaya bilər, amma Azərbaycan Qarabağsız yox. Bu, həm də milli kimlik məsələsidir. Qarabağ azərbaycanlıların Qüdsüdür”.

İndi isə britaniyalı jurnalist, qafqazşünas müəllif Azərbaycanı Rusiyanın Cənubi Qafqazda dəyişən ambisiyalarını təmin etməkdə qınamağa cürət edir. Bu zaman o, məsələnin mahiyyətinə varmadan, havadan aldığı versiyasını irəli sürür: “Zəngəzur dəhlizini, Ermənistanın cənubundan keçən və Azərbaycanı həm İran, həm də Türkiyə ilə həmsərhəd olan Naxçıvanla birləşdirəcək avtomobil və dəmir yolu xəttini yenidən açmaqla, Bakı Moskvaya xidmət göstərmiş olacaq. Əslində, bu şimal-cənub oxu İkinci dünya müharibəsində “Fars dəhlizi” kimi tanınan – İrandan şimala, Azərbaycandan Rusiyaya gedən və ABŞ-nin SSRİ-yə “lend-liz” yardımının ən azı yarısını təmin edən avtomobil və dəmir yolu marşrutunu effektiv şəkildə canlandıracaq. Qəribədir ki, eyni ox indi Moskvanın ABŞ və Qərbə qarşı indiki mübarizəsində həyati əhəmiyyət kəsb edir”.

Bakı “böyük güclər”in öz aralarında apardığı geosiyasi və hərbi mübarizədən, qarşıdurmalardan məsafə saxladığını Qoşulmama Hərəkatına dördillik sədrliyi zaman (2019–2022) bütün dünyaya nümayiş etdirdi. İndi durub Azərbaycanı Rusiya – ABŞ və Qərb qarşıdurmasının iştirakçısı qismində qələmə vermək, sadəcə olaraq, siyasi korafəhmlikdən başqa bir şey deyil.

Korporativ maraqlara xidmətin aydın sezildiyi Tomas de Vaalın məqaləsində Ermənistanın mənafeyinin təbliği və bölgədəki mövcud reallığın təhrifi aydın şəkildə özünü göstərir. Bizim üçün isə məsələnin digər tərəfi – “qafqazşünas”ın siyasi-tarixi mövqeyində əmələ gələn kəskin dönüş, sözünün “mustafası”nın nədən ibarət olduğunu özünün də kəsdirməməsi daha maraqlı məqamdır...

***İ.HƏSƏNQALA***
***XQ***

# İki məsələyə nöqtə qoyan bir müraciət

## ABŞ Prezidenti uzunmüddətli sülh sazişinin Cənubi Qafqazı, Azərbaycanın regiondakı rolunu əsaslı şəkildə dəyişəcəyini bildirib

**Dünyanın baş “supergüc”ünün – ABŞ-nin liderinin dilindən ilk dəfədir ki, Azərbaycanın ünvanına təqdiredici, dəstəkləyici və xoşməramlı fikirləri eşidirik. “Bakı və İrəvan arasında sülh sazişi Cənubi Qafqazı dəyişəcək, eyni zamanda, Azərbaycanın da regiondakı rolunu əsaslı şəkildə dəyişəcək. ABŞ bu cəhdi dəstəkləməyə hazırdır. Biz gələcək nəsillərə borcluyuq ki, sülh və firavanlıq bizim başlıca prinsiplərimiz olaraq qalsın”.**



Ölkəmizin bölgədə güc və söz sahibi, əsas aktor olduğunun etirafı kimi qəbul edilə biləcək bu fikirlər Amerika Birləşmiş Ştatlarının Prezidenti Cozef Baydenin Bakı Ekspo Mərkəzində Bakı Enerji Həftəsi çərçivəsində keçirilən 29-cu Beynəlxalq Xəzər Neft və Qaz – “Caspian Oil&Gas” və 12-ci Xəzər Beynəlxalq Energetika və Yaşıl Enerji – “Caspian Power” sərgilərinin açılış mərasiminin iştirakçılarına ünvanladığı məktubunda yer alıb. Məktubu ABŞ Dövlət Departamentinin



Enerji Ehtiyatları Bürosunun çoxtərəfli enerji diplomatiyası üzrə baş müşaviri Harri Kemian oxuyub.

Bölgəyə sülhün ABŞ və Avropa platformalarından deyil, başqa coğrafiyadan gələcəyinə ilk dəfə müsbət münasibətin və yanaşmanın sərgiləndiyi açıqlama bölgədə Azərbaycanın yaratdığı reallığı Ağ Evin də qəbul ermәsinin təzahürüdür, – desək, yanılmarıq. Deməli, Cənubi Qafqazda uzunömürlü münaqişənin son nöqtəsinin vasitəçisiz, ikitərəfli formatda, həm də Xəzər hövzəsindəki qonşu ölkələrdən birində qoyulacağı artıq hamının, o cümlədən, bölgədə strateji maraqlarını gizlətməyən ABŞ-nin də razılaşdığı reallıqdır. Co Baydenin Bakıdakı tədbirə müraciətində səslənən tezis Ağ Evin bu məsələyə, fakriki olaraq, “xeyir-duası”nı verməsi deməkdir.

* * *

Co Baydenin sərgi iştirakçılarına ünvanladığı müraciətində diqqətdən yayınmayan ikinci vacib məqam isə Azərbaycanın cari ilin noyabrında evsahibliyi edəcəyi COP29-la bağlı idi. Əslində, ABŞ Prezidentinin bu məsələyə münasibətdə nümayiş etdirdiyi mövqe əhəmiyyətinə görə sülh sazişi barədə açıqlamasından heç də geri qalmır. “COP29 Azərbaycana əsas qlobal təşəbbüsləri irəlilətmək üçün unikal imkanlar yaradır”,– deməklə ABŞ lideri, eyni zamanda, ölkəmizin BMT-nin ən nüfuzlu sammitinə evsahibliyi edəcəyinə dəstəyini və bundan məmnunluğunu ifadə etmiş oldu. Etiraf etməliyik ki, Bakı Vaşinqtondan belə bir açıqlamanı gözləyirdi. Co Baydenin, xüsusilə, Azərbaycanın evsahibliyi edəcəyi COP29 Sammiti ilə bağlı birmənalı açıqlaması bir neçə gün əvvəl Konqresin 26 üzvünün ABŞ Dövlət Departamentinə ünvanladığı təxribatçı müraciətinə cavab statusuna malikdir. Məlum olduğu kimi, ermənipərəst konqresmenlər Azərbaycanın COP29-a evsahibliyinin qarşısını almaq üçün ABŞ Dövlət Departamentinə çağırış ediblər. Onların arqumentləri budur ki, guya, Azərbaycan neft-qaz hasilatçısı olmaqla, ekologiyaya zərər vuran ölkələr sırasında yer tutur və bu səbəbdən BMT-nin iqlim dəyişikliyi kimi qlobal sammitini keçirməyə haqqı çatmır. Co Bayden müraciətində Ermənistan–Azərbaycan münaqişəsinin həllinə sağlam və obyektiv yanaşma sərgilədiyi kimi, COP29 beynəlxalq layihəsinin ölkəmizdə reallaşmasına da birmənalı mövqeyini ortaya qoydu: “COP29 Azərbaycana neft-qaz sektorundan metan emissiyalarının məhdudlaşdırılması və “təmiz enerji” keçidinin inkişafı kimi əsas qlobal təşəbbüsləri irəlilətmək üçün unikal imkan yaradır. Azərbaycan enerji tarixi ilə bağlı növbəti fəsli yazmağa hazırlaşarkən, “təmiz enerji”yə, metanın azaldılmasına artan diqqət və öhdəlik məni ruhlandırır. Xəzər dənizinin külək enerjisinin əhəmiyyətli potensialı gələcəkdə Azərbaycanın “təmiz enerji” ixracının neft-qaz ixracını üstələməsi ilə nəticələnə bilər”.

Beləliklə, ABŞ Prezidenti Co Bayden regional sabitliyin və qarşılıqlı faydalı əməkdaşlığın Vaşinqton üçün prioritet məsələlərdən biri olduğunu təkcə Bakı Enerji Həftəsinə toplaşmış çoxsaylı xarici qonaqların diqqətinə deyil, bütün dünyaya bəyan etdi.

* * *

“COP29-a evsahibliyi edəcək ölkə kimi bu məsuliyyətli vəzifəni öz üzərimizə götürərkən bunun bütün üstünlüklərini və çətinliklərini çox yaxşı dərk edirik”. Bu sözləri Azərbaycan Prezidenti İlham Əliyev dünən Bakı Ekspo Mərkəzində Bakı Enerji Həftəsi çərçivəsində keçirilən sərgilərin açılış mərasimindəki çıxışında deyib. Dünyada iqlim dəyişikliyinin təsirinin ölkəmizdə də hiss olunduğunu, Xəzər dənizinin səviyyəsinin ildən-ilə aşağı düşdüyünü vurğulayan Azərbaycan Prezidenti bildirib: “Xəzər dənizinə axan çaylar başqa ölkələrdən qaynaqlanır. Bizim bu təbii fəlakətlə bağlı heç bir məsuliyyətimiz yoxdur. Biz buna çox ciddi yanaşmalıyıq. Biz əlimizdən gələni edəcəyik ki, yeni su bəndləri və kollektorları inşa edək”.

Dövlətimizin başçısının çıxışında səsləndirdiyi bu fikirləri Azərbaycanın bölgədəki, həmçinin dünyadakı gücünü və nüfuzunu hələ də qəbul etməkdə çətinlik çəkən bədxahlara mesaj sayıla bilər. Onlar, gec də olsa, bu reallıqla hesablaşmalı olacaqlar. Necə ki, dünyanın “böyük gücləri” Azərbaycanla bərabərhüquqlu tərəfdaş kimi danışmağa başlayıblar...

***İmran BƏDİRXANLI***
***XQ***

### Ekspert rəyi

**Rasim MUSABƏYOV,**
**Milli Məclisin deputatı**



Bakı Enerji Həftəsi tədbiri ilə bağlı ənənəvi müraciətlər həmişə olub. Amma ABŞ Prezidentinin budəfəki müraciəti onu göstərir ki, bu ölkənin Konqresində, Dövlət Departamentində Azərbaycanın əleyhinə çalışan qüvvələrin ermənipərəst fəaliyyəti heç bir nəticə vermədi. Bu, birmənalı şəkildə belədir.

Şükürlər olsun ki, ABŞ-nin xarici siyasətini yalnız Konqres və Dövlət Departamenti formalaşdırmır. Bu məsələlərdə Pentaqonun, Mərkəzi Kəşfiyyat İdarəsinin, Energetika Nazirliyinin mövqeyi, sözlərinin çəkisi kifayət qədər böyükdür. Hesab edirik ki, hazırda bu institutlar Ağ Evə öz təsirlərini göstərməyə başlayıblar. Bunun nəticəsidir ki, rəsmi Vaşinqton Erministan və Azərbaycan arasında sülh sazişinin bağlanmasını dəstəkləyir. Baxmayaraq ki, sülh danışıqları heç də Vaşinqtonun himayəsi altında deyil, sonuncu dəfə ikitərəfli formatda Almatıda keçirilib. Ağ Evin COP29-la bağlı mövqeyi də hamı üçün aydın və anlaşılandır. Bu məsələdə də ABŞ-dəki müəyyən qüvvələr Azərbaycanın neft-qaz ölkəsi olmasını, guya, bizdə demokratiyanın yoxluğunu bəhanə gətirərək, BMT-nin iqlimlə bağlı qlobal sammitinə evsahibliyi etməyimizə qarşı çıxırdılar.

Co Bayden öz məktubunda göstərir ki, Azərbaycan, sadəcə, Avropa qitəsi üçün neft və qaz ixracatçısı kimi yox, həm də “yaşıl enerji” sahəsindəki önəmli rolunu daha da artıracaq. Yəni, bu istiqamətdə ciddi planları var. Məhz buna görə Azərbaycanın qüdrətli dövlət, etibarlı tərəfdaş, sülhün təminatçısı kimi bölgədə əhəmiyyətini vurğulayan ABŞ Prezidenti ölkəmizin Avropanın energetika sahəsində də əhəmiyyətinin artmasına müsbət münasibətini bildirib.

Co Baydenin məktubundakı tezislər Azərbaycan–ABŞ münasibətlərini münasib çərçivəyə salmaqdan ötrü ciddi addım sayılmalıdır və bunu yalnız alqışlamaq olar.

# “Açıq Büdcə İndeksi – 2023”də 21 pillə yüksəliş

**Cari ilin may ayının 29-da “Açıq Büdcə İndeksi – 2023” hesabatı Beynəlxalq Büdcə Tərəfdaşlığı təşkilatı tərəfindən dərc edilib. Sözügedən hesabatda Azərbaycanın mövqeyi 2021-ci ilin reytinq göstəricisi (57 bal) ilə müqayisədə 10 bal daha yuxarı olub.**




Bununla da Azərbaycan büdcə barədə kifayət qədər məlumat dərc edən ən qabaqcıl ölkələr qrupuna daxil olub. Beləliklə, respublikamız müvafiq hesabatda 100 mümkün baldan 67 bal toplamaqla müstəqillik tarixi ərzində bu göstərici üzrə ən yüksək nəticə ilə qiymətləndirilib.

Azərbaycanın reytinqi dünya üzrə orta göstəricidən (45 bal) 22 bal yuxarı olmaqla ümumi reytinqdə ən çox irəliləyən ölkələrdən biri olub. 61 bal və ya daha yuxarı bal toplayan ölkələr adekvat büdcə açıqlığına malik ölkələr qrupuna aid edilir. Bununla da Azərbaycan “Açıq Büdcə İndeksi-2023” hesabatında qiymətləndirmədə iştirak edən 125 ölkə arasında 21 pillə irəliləyərək 23-cü yerə yüksəlib və yetərli məlumat dərc edən dövlətlər qrupuna daxil olub.

“Açıq Büdcə İndeksi-2023” hesabatının xüsusi önəmi ondan ibarətdir ki, 2021-ci ildən etibarən ardıcıl olaraq, Azərbaycanda büdcə ilə bağlı qiymətləndirilən səkkiz əsas büdcə sənədinin (ilkin büdcə bəyanatı, büdcə layihəsi, təsdiq edilmiş büdcə, vətəndaş büdcə bələdçisi, dövlət büdcəsinin icrasına dair aylıq hesabatlar, dövlət büdcəsinin icrasına dair yarımillik hesabat, dövlət büdcəsinin icrası üzrə illik hesabat, dövlət büdcəsinin icrasına dair audit hesabatı) hamısının ictimaiyyətə açıqlanması Beynəlxalq Büdcə Tərəfdaşlığı adlı qurum tərəfindən qeyd edilib. Bununla yanaşı, sözügedən sənədlər üzrə həm keyfiyyət, həm də məlumatlılıq səviyyəsinin artırılması üzrə irəliləyişlərə nail olunub.

Açıq Büdcə Sorğusu büdcə prosesinə dair 3 istiqamət üzrə (büdcə məlumatlarının ictimaiyyətə əlçatanlığı, büdcə prosesində ictimai iştirakçılıq səviyyəsi və qanunverici hakimiyyət orqanı və ali audit orqanının rolu və fəaliyyəti) qiymətləndirir. Ümumilikdə, sorğu üzrə 145 sualdan 109-u (indikatoru) büdcə məlumatlarının ictimaiyyətə əlçatanlığını dəyərləndirir və bu istiqamət üzrə yekun nəticə “Açıq Büdcə İndeksi” adlanır. 109 sualdan 107-si Maliyyə Nazirliyi tərəfindən hazırlanan büdcə sənədlərini əhatə edir.

Eyni zamanda, sorğu üzrə sualların 18-i ictimaiyyətin büdcə prosesində iştirakını, 18-i isə qanunvericiliyin və ali audit orqanının bu məsələdə rolunu qiymətləndirib, 7 sualla əhatə edilən büdcəyə nəzarət üzrə ali audit orqanı subindeksi üzrə isə Hesablama Palatasının fəaliyyəti 100 baldan 100 olmaqla, “adekvat” nəticə kimi yüksək hesablanıb.

Büdcə prosesinə dair diaqnostik qiymətləndirmə aləti hesab olunan Açıq Büdcə Sorğusu 2006-cı ildən başlayaraq, Beynəlxalq Büdcə Tərəfdaşlığı Təşkilatı tərəfindən hər iki ildən bir tərtib edilir və Azərbaycan ilk qiymətləndirmədən etibarən müvafiq sorğuda iştirak edir. Sorğuda hər bir sual 100 ballıq şkala ilə qiymətləndirilir. Müvafiq olaraq cavablar təsdiqləyici sənədlərə istinad verilməklə (sənədin linki yerləşdirməklə) əsaslandırılır.

Açıq Büdcə Sorğusu bir qayda olaraq akademik sfera, qeyri-hökumət təşkilatları və ya müstəqil iqtisadçı-ekspertlər qrupu tərəfindən ilkin qiymətləndirmə aparıldıqdan sonra Beynəlxalq Büdcə Tərəfdaşlığının komandasına təqdim edilir. Büdcənin tərtibinə məsul olan müvafiq icra hakimiyyəti orqanı tərəfindən sorğunun ilkin versiyasına baxılır, daha sonra sorğu ilə bağlı rəylər təşkilata bildirilir.

Yeri gəlmişkən, Azərbaycan üzrə sorğunun ilkin qiymətləndirmələrinə dair Maliyyə Nazirliyinin rəyləri 2023-cü ilin avqust ayında qarşı tərəfə bildirilib və müvafiq olaraq təşkilat tərəfindən nəzərə alınıb.

Açıq Büdcə Sorğusunun tələbləri dövlət maliyyə idarəedilməsi sahəsində bir sıra mühüm beynəlxalq standartlara əsaslanır və bunlara Dünya Bankının “Dövlət Xərcləri və Maliyyə Hesabatlılığı”, Beynəlxalq Valyuta Fondunun “Fiskal Şəffaflıq Məcəlləsi”, İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının “Fiskal şəffaflıq üzrə Ən Yaxşı Təcrübələr” sənədi, həmçinin “Fiskal Şəffaflıq üzrə Qlobal Təşəbbüs” təşkilatının prinsipləri (Büdcə siyasətində ictimai iştirakın təmin edilməsi) aid olunur.

Beynəlxalq Büdcə Təşkilatının qiymətləndirməsində yalnız büdcə rəqəmlərinin açıqlanması yetərli sayılmır. Bu zaman büdcə siyasəti və onun əsaslandığı dataların hərtərəfli diqqətə çatdırılması tələb olunur. Başqa sözlə, hökumətin büdcə ilə bağlı proqnozuna üstünlük verilir və bunun əsaslandırılmasına mühüm məqam kimi yanaşılır.

Ümumiyyətlə, Açıq Büdcə İndeksində müsbət irəliləyişin əldə olunmasında büdcə müzakirələrində ictimai iştirakçılıq və büdcə üzərində parlament nəzarətinin təmin olunması əsaslı rol oynayır. Bu tələblərin gerçəkləşməsi istiqamətində Azərbaycan hökumətinin fəaliyyəti diqqət çəkir, eyni zamanda, gələcəkdə də sözügedən istiqamətdə müəyyən tədbirlərin həyata keçirilməsi tələb olunur.

Açıq Büdcə İndeksində yüksək nəticənin əldə olunmasında Maliyyə Nazirliyin yayımladığı “Vətəndaşın büdcə bələdçisi” də önəmli rol oynayır. Bundan savayı, respublikada büdcə müzakirələrində ictimai iştirakçılığın təşviqi, büdcəöncəsi debatların və açıq müzakirələrin aparılması diqqətdə saxlanılır. Eyni zamanda, “Dövlət və icmal büdcələrinin ilkin göstəricilərinə dair açıqlama” (“İlkin Büdcə Bəyanatı”) Maliyyə Nazirliyinin rəsmi internet səhifəsində yerləşdirilməsi Açıq Büdcə İndeksində ölkəmizin mövqeyinin yaxşılaşmasına müsbət təsir göstərir.

Xatırladım ki, Maliyyə Nazirliyinin “İlkin Büdcə Bəyanatı”nda ortamüddətli dövr üzrə makroiqtisadi proqnozların, xərc və gəlir siyasətinin əsas istiqamətlərinin, dövlət borcu üzrə proqnozların, habelə icmal və dövlət büdcəsinin növbəti il və sonrakı üç il üzrə əsas parametrlərinin yer alması da Azərbaycanın Açıq Büdcə İndeksində layiqli sırada qərarlaşmasını şərtləndirir.

Bütün bu müsbət məqamlar isə Açıq Büdcə İndeksinin nəticəsi kimi “Qlobal Rəqabətqabiliyyətlik Hesabatı”nda nəzərə alınır. Bu baxımdan “Açıq Büdcə İndeksi – 2023” hesabatında əldə olunan uğurlu göstərici Azərbaycanın rəqabətqabiliyyətliliyinin daha yüksək qiymətləndirilməsinə əlverişli zəmin yaradır.

# Ölkəmiz “OPEC+” razılaşmasına qoşulub

**Energetika naziri Pərviz Şahbazov Neft İxrac edən Ölkələr Təşkilatına (OPEC) üzv və qeyri-üzv ölkələrin nazirlərinin onlayn formatda keçirilən 37-ci iclasında iştirak edib. Bu barədə Energetika Nazirliyi açıqlama yayıb.**



Bildirilib ki, iclasda mövcud “Əməkdaşlıq Bəyannaməsi”nin müddətinin 1 yanvar 2025-ci ildən 31 dekabr 2025-ci ilədək uzadılması ilə bağlı qəbul edilmiş qərarı Azərbaycan da dəstəkləyib. Yeni qərar “OPEC plus” ölkələrində mövcud xam neft istehsal səviyyəsinin gələn il sabit saxlanılmasını, üç müstəqil mənbə tərəfindən istehsal göstəricilərinin qiymətləndirilməsinin 2025-ci ilin noyabrın sonuna qədər uzadılmasını və bu nəticələr əsasında 2026-cı il üçün yeni baza səviyyəsinin müəyyənləşdirilməsini nəzərdə tutur. Yeni qərara uyğun olaraq gələn il Azərbaycanın 551 min barrel həcmində gündəlik xam neft hasilat kvotası dəyişməz qalır.

Cari ilin aprel ayında respublikada gündəlik neft (kondensatla birlikdə) hasilatı 596 min barel olub. Energetika Nazirliyinin məlumatına görə, bunun 476 min barelini xam neft, 120 min barelini kondensat təşkil edib.

Yeri gəlmişkən, Səudiyyə Ərəbistanının paytaxtı Ər-Riyadda keçirilən tədbirdə hasilatın azaldılması qərara alınıb. Bildirilib ki, hazırkı sutkalıq hasilat səviyyəsi 1 yanvar 2025-ci ildən 31 dekabr 2025-ci ilədək saxlanılacaq.

Bundan başqa, 8 ölkə ümumi razılıqdan əlavə olaraq hasilatı könüllü şəkildə azaldacağını bildirib. Bu da bazara sutkada 2 milyon barel daha az neft çıxarılması ilə nəticələnəcək. Məqsəd hazırkı qiymət səviyyəsini saxlamaqdır.

Qeyd edək ki, OPEC-ə üzv və qeyri-üzv ölkələrin nazirlərinin növbəti görüşü bu il dekabrın 1-nə təyin edilib.

# 4,5 min mənzil kirayə yolu ilə satılıb

**İpoteka və Kredit Zəmanət Fondu (İKZF) tərəfindən indiyədək 50 min 216 borcalana 3 milyard 92 milyon 763 min manat kredit verilib.**



Fondun məlumatına görə, ötən müddətdə 475 milyon 296 min manat məbləğində biznes kreditlərinə zəmanət verilib, 4510 mənzil isə kirayəyə vermək yolu ilə realizə edilib.

Xatırladaq ki, adı çəkilən fond 2017-ci ilin sonunda “Azərbaycan İpoteka Fondu” və “Kredit Zəmanət Fondu” ASC-lərin birləşməsi nəticəsində yaradılıb və onların hüquqi varisidir. Qurum milli maliyyə təsisatlarına uzunmüddətli subsidiyalaşdırılmış ipoteka kreditlərinin verilməsi və ucuz maliyyə resurslarına çıxışın təmin edilməsi ilə bağlı likvidlik dəstəyini verən dövlət agenti kimi fəaliyyət göstərir.

# Dünya Bankı ölkəmizlə əməkdaşlığı genişləndirir



**İqtisadiyyat nazirinin müavini Səməd Bəşirli Dünya Bankının Avropa və Mərkəzi Asiya üzrə makroiqtisadiyyat, ticarət və investisiya sahələrində praktika meneceri Antonio Nusifora ilə görüşündə adıçəkilən beynəlxalq maliyyə qurumu ilə səmərəli əməkdaşlığın əhəmiyyəti qeyd edilib.**

İqtisadiyyat Nazirliyinin məlumatında daha sonra bildirilir ki, görüşdə Dünya Bankı ilə Azərbaycan arasında investisiya mühitinin əlverişliliyinin daha da artırılması, dövlət-özəl sektor tərəfdaşlığı, innovasiyalar, idarəetmə texnologiyalarının inkişafı barədə ətraflı danışılıb.

Bütün bunlarla bərabər, ölkəmizdə sosial-iqtisadi inkişaf prioritetlərinə və Dayanıqlı İnkişaf Məqsədlərinə nail olunması istiqamətində həyata keçirilən tədbirlər barədə məlumat verilib. Eyni zamanda, respublikada aparılan iqtisadi islahatların beynəlxalq maliyyə qurumları tərəfindən dəstəkləndiyi və Azərbaycanın iştirakçısı olduğu nəhəng layihələrin regionda dayanıqlı inkişafı şərtləndirdiyi diqqətə çatdırılıb.

Tərəflər ticarətin şaxələndirilməsi, “yaşıl” keçid, iqlim, COP29 və digər məsələlərlə bağlı əməkdaşlığın inkişafını müzakirə ediblər.

# 4 ayda kənddə 2 faiz artım

**Bu ilin ilk 4 ayında ölkəmizdə 2 milyard 115 milyon manat dəyərində (ötən ilin eyni dövrü ilə müqayisədə 1,6 faiz çox) kənd təsərrüfatı məhsulu istehsal edilib.**



Dövlət Statistika Komitəsinin bununla bağlı yaydığı məlumatda daha sonra bildirilir ki, son bir ildə ölkədə istehsal olunmuş bitkiçilik məhsullarının dəyəri 2,7 faiz artaraq 165,8 milyon manat, heyvandarlıq məhsullarının dəyəri isə 1,5 faiz artaraq 1 milyard 950 milyon manat olub.

2024-cü ilin yanvar–aprel aylarında diri çəkidə 190,1 min ton ət, 701,9 min ton süd, 764,3 milyon ədəd yumurta, 1,9 min ton yun, 131,5 min ton tərəvəz və 50,9 min ton kartof istehsal olunub.

*Səhifəni hazırladılar:*
***Vaqif BAYRAMOV, Mirbağır YAQUBZADƏ***
***XQ***

# Cəbrayılda içməli su təchizatı şəbəkəsi qurulur

**Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyindən (ADSEA) bildirilib ki, agentliyin sifarişi ilə icra olunan Cəbrayıl şəhərinin xarici su təchizatı və kanalizasiya sistemlərinin tikintisi layihəsi 2040-cı ilədək perspektiv inkişaf nəzərə alınmaqla 15 min nəfərin tələbatının ödənilməsinə hesablanıb. Cəbrayıl şəhərini dayanıqlı və keyfiyyətli içməli su ilə təmin etmək məqsədilə 2023-cü ildə 1 geoloji kəşfiyyat quyusu qazılıb. Seçilmiş mənbənin məhsuldarlığı və suyun keyfiyyət göstəriciləri şəhəri və ətraf kəndləri içməli su ilə təmin etməyə imkan verir.**



Cəbrayıl şəhərinin şimalında yerləşən quyu zonasında, ümumilikdə, 9 subartezian quyusunun qazılması layihələndirilib və artıq bu istiqamətdə işlərə başlanılıb. İlkin mərhələdə 3 quyu qazılacaq, şəhərdə məskunlaşacaq əhalinin sayı artdıqca yeni quyuların qazılması da təmin ediləcək.

Layihə çərçivəsində Cəbrayıl şəhərində ümumi tutumu 7 min kubmetr olan 6 ədəd su anbarı inşa ediləcək. Hazırda 2 min kubmetr tutumu olan su anbarının və suyun Cəbrayıl şəhərinə çatdırılmasını reallaşdırmaq üçün 3 kilometr uzunluğunda magistral su kəmərinin, həmçinin tullantı sularının təmizləyici qurğuya ötürülməsini təmin edən 6 kilometr uzunluğunda kanalizasiya kollektorunun inşası həyata keçirilir.

Cəbrayıl şəhərində 52 kilometr içməli, 38 kilometr tullantı və 40 kilometr yağış su şəbəkələri inşa olunacaq. Şəhərdə formalaşacaq tullantı sularının təmizlənib zərərsizləşdirilməsi məqsədilə məhsuldarlığı sutkada 6 min kubmetr olan tullantı sutəmizləyici qurğu tikiləcək. Təmizləyici qurğu və kollektor Cəbrayıl şəhəri ilə yanaşı, bəzi kəndlərin də tullantı sularının toplanaraq təmizlənməsinə imkan verəcək.

Cəbrayıl şəhərində yaradılan yeni infrastruktur “Ağıllı su” sistemi əsasında idarə olunacaq. Layihə çərçivəsində hər bir infrastruktur elementi SCADA sistemilə təmin ediləcək.

Yaxın vaxtlarda Böyük Qayıdış proqramı çərçivəsində Cəbrayıl rayonunun Horovlu və Şükürbəyli kəndlərinə məskunlaşmanın başlanması nəzərə alınaraq həmin kəndlərdə su təchizatı sistemlərinin yaradılmasına hazırlıq işləri görülür.

Yeri gəlmişkən, Füzuli şəhərinin də içməli və tullantı su sistemlərinin yaradılması layihəsi icra olunana qədər burada məskunlaşan əhalinin, habelə dövlət və özəl sektora aid binaların və obyektlərin içməli su ilə təmin edilməsi məqsədilə Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyi tərəfindən təxirəsalınmaz tədbirlər həyata keçirilib. Bu məqsədlə 1980-ci illərdə Quruçayın məcrasında tikilmiş və işğal dövründə yararsız hala salınmış drenaj sistemləri bərpa edilərək istismara qaytarılıb. Eyni zamanda su mənbəyində ümumi tutumu 100 kubmetr olan 2 sutoplayıcı rezervuar və nasos stansiyası, magistral su kəməri inşa edilib. Şəhərdə formalaşan tullantı sularının təmizlənib kənarlaşdırılması məqsədilə təxirəsalınmaz tədbir kimi ümumi məhsuldarlığı sutkada 600 kubmetr olan 4 ədəd modul tipli təmizləyici qurğu da quraşdırılıb.

Laçın şəhərində isə içməli su və kanalizasiya sistemlərinin yenidən qurulması layihəsi çərçivəsində qısa müddətdə böyük işlər görülüb. Perspektiv inkişaf nəzərə alınmaqla şəhəri dayanıqlı və keyfiyyətli içməli su ilə təmin etmək məqsədilə Sus kəndi ərazisində 6 subartezian quyusu bərpa edilib. Quyu zonasında sutoplayıcı anbar və nasos stansiyası, zərərsizləşdirici qurğu inşa olunub.

Su mənbəyindən 10 kilometr uzunluğunda yüksəktəzyiqli magistral su kəməri çəkilib, nasos stansiyası və ümumi tutumu 4 min kubmetr olan 9 anbar inşa edilib. Laçın şəhərində 58 kilometr içməli, 49 kilometr tullantı, 4 kilometr yağış su şəbəkələri yaradılıb, 7 kilometr kanalizasiya kollektoru və 4 kanalizasiya nasos stansiyası tikilərək istismara verilib.

# Xəzər sahilində beynəlxalq neft və qaz təntənəsi

**Bugünlərdə dünyanın enerji mərkəzlərinin diqqəti yenidən Azərbaycan paytaxtına yönəlib. Dünən öz işinə başlayan Bakı Enerji Həftəsinin ilk günündə 29-cu Beynəlxalq Xəzər neft-qaz (“Caspian Oil&Gas”) və 12-ci Xəzər Beynəlxalq Energetika və Yaşıl Enerji Sərgisi (“Caspian Power”) sərgilərinin təntənəli açılış mərasimi keçirilib.**

Xatırladaq ki, builki sərgidə 37 ölkədən gəlmiş 300 şirkət iştirak edir. Onların bir çoxu ənənəvi neft-qaz sərgisinin daimi iştirakçıları olsalar da, bu mötəbər tədbirin debütantları da az deyil. Belə ki, İsveç, Hindistan və Sloveniyadan olan şirkətlər ilk dəfədir ki, tədbirə qatılırlar. Onu da qeyd edək ki, builki sərginin tərkibi iştirakçıların ümumi sayının 15 faizini təşkil edən yeni şirkətlər hesabına genişlənib. Onların da əksəriyyəti Azərbaycanın “yaşıl enerji” sahəsinə yüksək maraq göstərən xarici iştirakçılardır. Sərgi sahəsinin 40 faizi isə tanınmış şirkətlərə, sərgilərin daimi iştirakçılarına məxsusdur.

Xəzər regionunun ən nüfuzlu enerji tədbirinin açılışında Azərbaycan Prezidenti İlham Əliyevin, eləcə də bir çox dünya ölkələrinin dövlət xadimlərinin, şirkət nümayəndələrinin, yüksək səviyyəli qonaqların və beynəlxalq enerji ekspertlərinin iştirakı sərginin əhəmiyyətini qat-qat artırırdı. Məlum olduğu kimi, Azərbaycan paytaxtı artıq uzun müddətdir ki, nüfuzlu tədbirlərin keçirildiyi və mühüm qərarların qəbul edildiyi, əməkdaşlıqların müzakirə olunduğu məkana çevrilib. Bundan əlavə, Azərbaycanın enerji sahəsində həyata keçirdiyi uğurlu siyasət nəticəsində ölkəmiz artıq enerji sektorunda öz sözünü deməyə müvəffəq olub. Belə ki, hazırda Azərbaycan yalnız özünün deyil, digər ölkələrin də enerji təhlükəsizliyinin təmin edilməsində mühüm rol oynayır.

Azərbaycanın həm regionda, həm də Avropada enerji təhlükəsizliyi sahəsində önəmli rol oynadığını bir daha təsdiqləyən Bakı Enerji Həftəsinin təşkilatçıları isə “Iteca Caspian” və “Caspian Event Oraganisers” və onların beynəlxalq tərəfdaşları “İCA Events” və “Caspian Event Management FZ LLC” şirkətləridir. Baş tərəfdaşı SOCAR olan Bakı Enerji Həftəsinin builki sponsorlarının siyahısı da olduqca genişdir. Bu da, heç şübhəsiz, Bakı Enerji həftəsinin nüfuzunu və yüksək statusunu təsdiqləyir.

Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin (SOCAR) ayrı-ayrı müəssisələrinin öz nailiyyət və perspektivlərini geniş nümayiş etdirməsi tədbirə marağı qat-qat artırırdı. Bundan əlavə, ölkəmizdə həyata keçirilən iri neft-qaz layihələrinin opreatoru olan BP şirkəti, qardaş Türkiyənin TPAO, Fransanın Total, Özbəkistanın “Uzbekneftegaz”, Azərbaycanda bərpaolunan enerji layihələrinin iştirakçısı olan Birləşmiş Ərəb Əmirliklərinin “Masdar”, Səudiyyə Ərəbistanının “Acwa Power”, eləcə də dünyanın neft-qaz, nəqliyyat-logistika və təchizat sahələrində fəaliyyət göstərən onlarca firma və şirkəti öz qabaqcıl təcrübə və nailiyyətlərini sərgidə nümayiş etdirmək üçün yaxşı imkan qazanmışdılar. Yeri gəlmişkən, iştirakçıların istər bu müəssisələrin, istərsə də öz ekspozisiyalarını göstərən digər ölkələrin şirkətlərinin imkanları, nailiyyət və perspektivləri ilə yaxından maraqlanmaları bir daha sübut edirdi ki, ənənəvi Xəzər neft və qaz sərgisi beynəlxalq əməkdaşlıq meydanı kimi mühüm statusunu qoruyub saxlaya bilib. Elə sərgi barədə rəy və təəssüratlarını öyrəndiyimiz iştirakçılar da bu mötəbər tədbirdə əməkdaşlıq əlaqələrini genişləndirmək, sərginin yaratdığı imkanlardan səmərəli istifadə etmək məqsədində olduqlarını vurğulayırdılar.

**Murad SADIXOV, Birləşmiş Ərəb Əmirliklərinin “Masdar–Azərbaycan” şirkətinin direktoru:** – Bakı Enerji Həftəsi şirkətimiz üçün olduqca faydalı və dəyərli bir proqramdır. Biz 2022-ci ildən etibarən bu mühüm beynəlxalq tədbirdə iştirak edirik.



2022-ci ildə məhz iyunun 4-də Bakı Enerji Həftəsi çərçivəsində biz toplam olaraq 10 qiqavat gücündə iki müqavilə imzaladıq. Bu gün təməli qoyulan layihələr məhz iki il qabaq Şuşada imzalanmış həmin müqavilələrin reallaşdırılmasına başlanılması deməkdir. Göründüyü kimi, artıq biz bu sərgilər çərçivəsində qazandığımız təcrübələrimizi həyata keçiririk. Bundan başqa, sərgi bizim üçün, həm də çox böyük sosial xarakter daşıyır. Yəni, “Masdar” şirkətini təbliğ etmək baxımından əla fürsətdir. Sərginin gedişində çoxlu yeni şirkətlər, insanlarla tanışlıq imkanı qazanırıq.

Sərginin əhəmiyyəti olduqca böyükdür. Çünki sərginin gedişində imzalanan sazişlər, layihələr, elan olunan yeniliklər bütün dünyada yayımlanır. Bu baxımdan sərgi çərçivəsində nailiyyətlərimizin, layihələrimizin nümayişi çox əhəmiyyətlidir. Əməkdaşlığa gəldikdə isə, sərgi bu baxımdan da əla fürsətdir. Məsələn, bu gün biz SOCAR-la əməkdaşlıq müqaviləsi imzaladıq. Artıq Azərbaycanda həyata keçirəcəyimiz bütün layihələr SOCAR-la əməkdaşlıq çərçivəsində reallaşdırılacaq. Bildiyiniz kimi, SOCAR “yaşıl” layihələri törəmə şirkəti olan SOCAR GREEN şirkəti vasitəsilə həyata keçirəcək. Bu da bizim üçün çox vacibdir. Çünki biz Azərbaycanın enerji lideri ilə iş birliyinə başlayırıq.

Bugünkü açılış mərasimində cənab Prezident İlham Əliyevin iştirakı ilə ümumi gücü 1 qiqavat olan üç böyük layihənin təməli qoyuldu. Həmin layihələrə Biləsuvarda 445 meqavatlıq, Neftçalada, Bankə qəsəbəsində 315 meqavatlıq günəş və Bakı-Şamaxı yolunun üstündə 240 meqavatlıq Abşeron-Qaradağ külək elektrik stansiyaları daxildir. İnşallah yaxın zamanlarda həmin stansiyaların da açılışını qeyd edəcəyik.

Bir məsələni də qeyd etmək istəyirəm. Bu sərgi ilk dəfə Azərbaycanda ənənəvi enerji sahəsinin nailiyyətlərinin nümayişi məqsədi ilə təsis olunmuşdu. Amma indi, göründüyü kimi, dünyada, o cümlədən Azərbaycanda ümumi trend dəyişib. Hazırda sərgidə “yaşıl enerji” daha çox təbliğ olunur. Bunu sərgi iştirakçılarının pavilyonlarından da hiss etmək mümkündür. Hətta nəhəng net-qaz şirkətləri də burada daha çox bərpaolunan enerji sahəsindən bəhs edirlər. Gördüyünüz kimi, sərginin əsas hissəsində “yaşıl enerji” şirkətlərinin sayı xeyli artıb. Bu da Azərbaycanın iqlim dəyişiklikləri ilə mübarizə işinə verdiyi önəmin nəticəsidir.

Yeri gəlmişkən, COP29 dünya miqyasında iqlim sahəsi ilə bağlı ən böyük tədbirdir. Bu mötəbər toplantıya çox ciddi hazırlaşan Azərbaycanın onu yüksək səviyyədə həyata keçirəcəyinə heç bir şübhə ola bilməz. Bir məqmı da vurğulayım ki, COP29, həm də Azərbaycanda “yaşıl enerji” layihələrinin icrasını xeyli sürətləndirib. Bunu bir neçə saat əvvəl təməli qoyulan layihələr də təsdiqləyir. Azərbaycan hökuməti və “Masdar” şirkəti “yaşıl enerji” layihələrinin reallaşdırılmasına çox böyük diqqət göstərirlər.



**Süleyman BABAYEV, “Acwa Power” şirkətinin müqavilələr və dövlətlə əlaqələr üzrə meneceri:** – Hər şeydən öncə qeyd etmək istəyirəm ki, Bakı Enerji Həftəsi və onun əsas hissəsi olan “Caspian Oil&Gas” və “Caspian Power” şirkətləri dünyanın enerji sektorunda fəaliyyət göstərən şirkətlər üçün olduqca önəmli bir tədbirdir. İştirakçıların çoxluğu isə tədbirin əhəmiyyətini qat-qat artırır. Düşünürəm ki, sərgi şirkətlərə həm öz nailiyyətlərini nümayiş etdirmək, həm də yeni əməkdaşlıq əlaqələri yaratmaq baxımından son dərəcə əhəmiyyətlidir. Sərginin təşkilatçılığı da çox yüksək səviyyədədir. “Acwa Power” şirkətinə gəldikdə isə, 2022-ci ildə Bakı Enerji Forumunda iştirak etsək də, sərgiyə ilk dəfədir ki, qatılırıq. Burada öz nailiyyətlərimizi nümayiş etdirməklə yanaşı, yeni şirkətlərlə də əməkdaşlıq imkanı qazanacağımıza ümid edirik.

“Acwa Power” dünyada günəş və külək enerjisi, duzsuzlaşdırma və hidrogen qurğularının istehsalı, eləcə də enerji saxlama layihələrini icra edən yeganə şirkətdir. Təkcə onu qeyd etmək kifayətdir ki, şirkətimiz dünya üzrə 85 milyard dollarlıq sərmayəyə malikdir. Hazırda dünyanın bir sıra ölkələrində uğurla fəaliyyət göstəririk. Azərbaycanda isə “Xızı–Abşeron” külək enerjisi layihəsini icra edirik. Artıq layihə üzrə işlərin 17 faizi tamamlanıb. Bura, əsasən, mühəndislik işləri daxildir. Layihə çərçivəsində hər birinin gücü 6,5 meqavat olan 37 külək turbini quraşdırılacaq. Stansiyanın illik gücü 893 qiqavat-saat “yaşıl enerji” təşkil edəcək. Bu da 400 min ton karbon emissiyasının azaldılmasına imkan yaradacaq.

Baş podratçı “Power China HOEC” şirkəti tərəfindən mobilizasiya işləri tam başa çatdırılıb. İyul ayında stansiyanın tikintisi üçün tələb olunan turbinlərin birinci partiyası Ələtdə yerləşən Bakı Beynəlxalq Dəniz Ticarəti Limanına gətiriləcək. Stansiyanın 2025-ci ilin 3-cü rübünün sonlarında istismara verilməsi nəzərdə tutulub. Yeri gəlmişkən qeyd etmək istəyirəm ki, Azərbaycan hökuməti, Energetika Nazirliyi, Bərpa Olunan Enerji Mənbələri Dövlət Agentliyi, KOBİA və “Azərenerji” layihənin icra olunmasına bizə böyük dəstək verir.



**Turxan ƏHMƏDOV, “Nobel Energy” şirkətinin ictimaiyyətlə əlaqələr və kommunikasiya şöbəsinin rəhbəri:** – “Nobel Energy” Azərbaycan və dünya səviyyəsində aparıcı enerji həll yollarını təqdim edən şirkətdir. Bir yerli şirkət olaraq Azərbaycan üçün çox böyük işlər görürük. Uğurlarımıza gəldikdə isə, qeyd etməliyəm ki, biz Amerika Birləşmiş Ştatlarında NASA üçün kosmik fəzaya buraxılacaq raket sisteminin dayaq blokunu hazırlamışıq. Bu, Azərbaycanı təmsil edən bir şirkət üçün olduqca qürurvericidir.

Bugünkü sərgidə nümayiş etdirdiyimiz digər bir nailiyyətimiz isə yarımdalma dəniz qurğusudur. Həmin platforma ən çətin, yəni köhnə neft quyularından səmərəli şəkildə, daha ucuz qiymətə və innovativ üsullarla hasilata dəstək verir. Bu da bir Azərbaycan şirkəti üçün yüksək nailiyyətdir. Çünki şirkətimiz dünya səviyyəli bir qurğu istehsal edib. Həm dizayn edib, həm də həm də tikib. Həmin qurğu hazırda Meksika körfəzində fəaliyyət göstərir. “Nobel Energy” yarandığı gündən beynəlxalq şirkətə çevrilməyi hədəfləyib. Artıq qürurla deyə bilərik ki, şirkət ötən 20 il ərzində bu məqsədinə nail olmağı bacarıb. Artıq ABŞ, Kolumbiya, Türkiyə, Mərkəzi Asiya və Qazaxıstanda və bir sıra digər ölkələrdə çoxsaylı uğurlara imza ata bilmişik.

Hazırda “Nobel Energy” şirkəti Azərbaycanda BP və SOCAR-ın mühüm strateji işlərini həyata keçirir. Belə ki, biz platformada qazma əməliyyatlarından tutmuş texniki işlərədək çoxsaylı xidmətlər göstəririk. Uzun illər Azərbaycan bazarında olsaq da, qrup olaraq sərgidə ilk iştirakımızdır. Səhər tezdən cənab Prezident İlham Əliyevin açılışını etdiyi sərgidəyik. Yeri gəlmişkən, enerjinin transformasiyası fonunda builki neft-qaz sərgisinin əhəmiyyətini xüsusi qeyd etmək lazımdır. Həmişəki kimi böyük enerji şirkətləri BP, Total, SOCAR və digərləri sərgidə yüksək fəallıqla iştirak edir. Fikrimcə, bu şirkətlərlə müştərək layihələrimiz olduğundan onlarla eyni sərgidə iştirakımız olduqca vacib və əhəmiyyətlidir…

# Azərbaycan və Türkiyənin neft şirkətləri də qardaşlaşdı

**Azərbaycan Respublikası Dövlət Neft Şirkəti (SOCAR) ilə Türkiyənin BOTAŞ şirkəti arasında təbii qaz təchizatı, nəqli və tranziti sahəsində bir sıra müqavilələr imzalanıb.**



SOCAR-dan aldığımız məlumata əsasən, imzalanma mərasimində Azərbaycanın iqtisadiyyat naziri, SOCAR-ın Müşahidə Şurasının sədri Mikayıl Cabbarov və Türkiyənin energetika və təbii sərvətlər naziri Alparslan Bayraktar iştirak ediblər.

İmzalanan müqavilələr iki ölkə hökumətləri arasında bu ilin mayın 14-də imzalanmış “Təbii qaz sahəsində Əməkdaşlıq haqqında” Sazişdən irəli gəlməklə, SOCAR tərəfindən Türkiyəyə təbii qaz təchizatı, Azərbaycan qazının Türkiyə vasitəsilə Bolqarıstan bazarına çatdırılması, Naxçıvana qaz təchizatı sahəsində əməkdaşlıq və Türkmən qazının Azərbaycan və üçüncü ölkələr vasitəsilə Türkiyəyə nəqli ilə bağlı müddəaları əhatə edir.

Mərasimdə, eyni zamanda, Azərbaycan Qaz Təchizatı Şirkəti və BOTAŞ arasında “Şahdəniz” yatağından qazın Türkiyəyə təchizatının davam etdirilməsini nəzərdə tutan müqavilə imzalanıb.

Xatırladaq ki, “Şahdəniz” perspektiv sahəsinin kəşfiyyatı, işlənməsi və hasilatın pay bölgüsü haqqında saziş 1996-cı il iyunun 4-də imzalanıb. “Şahdəniz” üzrə hasilatın pay bölgüsü (PSA) sazişi 17 oktyabr 1996-cı ildə ratifikasiya olunub.

2013-cü il dekabrın 17-də Bakıda imzalanmış sənədlərə görə “Şahdəniz” yatağının işlənməsi ilə bağlı PSA sazişinin müddəti 2036-cı ildən 2046-cı ilə qədər uzadılıb.

“Şahdəniz-1” yatağından Azərbaycan qazının tədarükünə dair uzadılmış sazişə əsasən, 2030-cu ilə qədər Türkiyəyə tədarükün həcmi ildə 3,5 milyard kubmetr təşkil edəcək.

Göründüyü kimi, iqtisadiyyatın müxtəlif sahələrində, o cümlədən enerji sahəsində, ölkəmizin tranzit potensialının gücləndirilməsi istiqamətində qlobal əhəmiyyətli layihələrin icrası ölkəmizin imkanlarını artırmaqla yanaşı, regional və beynəlxalq əməkdaşlığını da inkişaf etdirir. Avropanın enerji arxitekturasının qurulmasında və enerji təhlükəsizliyində mühüm rol oynayan Azərbaycan bütün iqtisadi-siyasi maneələrə və böhranlara baxmayaraq, indi də yeni layihələrini uğurla davam etdirir.

Azərbaycanın təşəbbüsü və liderliyi ilə icra olunan, Azərbaycan qazını Avropa bazarlarına çatdırmaqla Avropanın enerji təhlükəsizliyinin möhkəmləndirilməsinə də öz töhfəsini verəcək Cənub Qaz Dəhlizi layihəsi bu sıradandır.

Bu gün Azərbaycan neft və qaz ehtiyatlarını tədarük etməklə təkcə regionda deyil, həm də Avropa İttifaqının enerji təhlükəsizliyinin təmin olunmasında həlledici rol oynayır. Bu layihələrin həyata keçirilməsində “Şahdəniz” yatağının əhəmiyyəti olduqca böyükdür. Sözügedən yataq uzun illərdir ki, Azərbaycanın və Avropanın enerji təhlükəsizliyinin təminatına mühüm töhfələr verir. Xəzərin Azərbaycan sektorunda yerləşən “Şahdəniz” yatağı 1999-cu ildə kəşf olunub.

Bakıdan 70 kilometr cənub-şərqdə, suyun dərinliyinin 50-500 metr arasında dəyişdiyi Xəzər dənizinin şelfində yerləşən bu yataq dünyanın iri qaz-kondensat yataqlarından biridir. “Şahdəniz” yatağının kəşf edilməsi və “Şahdəniz” qaz layihəsinin uğurla həyata keçirilməsi Azərbaycanı dünyaya qaz ixrac edən ölkə kimi tanıdır.

Hələ 1999-cu ilin iyul ayında Ümummilli lider Heydər Əliyev yataqda əldə edilmiş nəticələrin təqdimat mərasimində çıxışı zamanı “Şahdəniz” yatağını dünya əhəmiyyətli yataq adlandıraraq onun Azərbaycan üçün nə qədər əhəmiyyətli olduğunu bəyan etmişdi: “Biz “Şahdəniz” yatağının potensialını bilirdik. Ona görə də bu yatağın əsasında müqavilə imzalamışdıq və bilirdik ki, bundan yaxşı nəticələr əldə edəcəyik. Onlar hamısı proqnozlar idi. Amma indi görünür ki, bu proqnozlar əsaslı olub, düz olubdur. Bu, Azərbaycan neftçilərinin, alimlərinin, Azərbaycan geoloqlarının nə qədər yüksək səviyyəli biliyə malik olduqlarını göstərir ki, belə bir şəraitdə proqnoz verirlər və bu proqnoz da artıqlaması ilə təsdiq olunur”.

“Şahdəniz” yatağının təsdiqlənmiş ehtiyatı 1 trilyon kubmetr qaz və 240 milyon ton kondensatdan ibarətdir. Bu da Azərbaycanın qaz potensialının təxminən 50 faizini təşkil edir. “Şahdəniz” yatağının istismara verilməsi ilə Azərbaycan dünyanın potensial qaz ixracatçısına çevrilməklə yanaşı, ölkə sənayesinin qazlaşdırılması üçün də imkan yarandı.

Ötən müddətdə Azərbaycan metanol, karbomid, eləcə də bir sıra qaz-kimya zavodları kimi sənayedə əlavə dəyər yaradan sahələr əldə etdi. Bu gün ölkəmiz “Şahdəniz” qazının ixracı üçün dünyanın ən uzun enerji dəhlizinə malikdir. Belə ki, hazırda 3500 kilometrlik Cənub Qaz Dəhlizi Bakıdan İtaliyaya qədər uzanmaqla Azərbaycanı birbaşa olaraq Avropa İttifaqı ilə bağlayır. Bu da ölkəmizin etibarlı enerji tərəfdaşı kimi mövqeyini xeyli gücləndirir.

# “Masdar”ın ölkəmizdə yeni “yaşıl” layihələri

**Energetika naziri Pərviz Şahbazov və BƏƏ-nin sənaye və yüksək texnologiyalar naziri, “Masdar” şirkətinin idarə heyətinin sədri Sultan Əhməd Əl-Cabirin rəhbərlik etdiyi nümayəndə heyətləri arasında görüş olub.**



Energetika Nazirliyindən “XQ”yə verilən məlumata görə, görüşdə “Masdar” şirkəti ilə quruda və dənizdə “yaşıl enerji” layihələrinin icrası, hər iki ölkənin apstrim sektorunda dövlət şirkətlərinin iştirakı, həmçinin COP29 çərçivəsində əməkdaşlıq məsələləri müzakirə edilib, 1000 meqavat gücündə günəş və külək enerjisi stansiyalarının inşası ölkələrimizin “yaşıl enerji” keçidinə birgə töhfəsi kimi dəyərləndirilib.

Görüşün yekununda Energetika Nazirliyi və “Azərenerji” ASC ilə Birləşmiş Ərəb Əmirliklərinin “Masdar” şirkəti arasında 445 meqavatlıq Biləsuvar və 315 meqavatlıq Neftçala günəş elektrik stansiyaları, eləcə də 240 meqavatlıq Abşeron-Qaradağ külək elektrik stansiyası layihələri üzrə “İnvestisiya müqaviləsinə Əlavə”, “Enerji alqı-satqı müqaviləsi”, “Ötürücü şəbəkəyə qoşulma müqaviləsi” və “Torpaq icarə müqaviləsi” imzalanıb.

Sənədləri Azərbaycan tərəfindən energetika naziri Pərviz Şahbazov və “Azərenerji” ASC-nin prezidenti Baba Rzayev, “Masdar” şirkəti tərəfindən isə baş icraçı direktor Məhəmməd Cəmil Əl-Ramahi imzalayıblar.

# İğdırdan Naxçıvana “qaz körpüsü”

**Bakı Enerji Həftəsi çərçivəsində energetika naziri Pərviz Şahbazovla Azərbaycanda səfərdə olan Türkiyənin energetika və təbii sərvətlər naziri Alparslan Bayraktarın rəhbərlik etdiyi nümayəndə heyəti arasında görüş olub.**

Görüşdə Azərbaycan–Türkiyə qardaşlığı və strateji müttəfiqliyinin enerji əməkdaşlığını möhkəmləndirən töhfələrindən məmnunluq ifadə edilib. Hər iki ölkə liderlərinin Azərbaycan–Türkiyə enerji əməkdaşlığına böyük önəm verdiyi vurğulanıb. Neft-qaz sahəsində birgə həyata keçirilən enerji layihələrinin region və Avropa ölkələrinin enerji təhlükəsizliyinin təminatındakı rolundan ətraflı danışılıb.

Çoxşaxəli enerji tərəfdaşlığının yeni mərhələdə inkişafını təmin edən təbii qaz və “yaşıl enerji” sahələrindəki prioritetlər və gündəlikdə olan layihələr nəzərdən keçirilib. Bildirilib ki, İğdır–Naxçıvan qaz kəmərinin inşası tezliklə yekunlaşacaq və ilin sonunadək Naxçıvan Türkiyə üzərindən qazla təchiz olunacaq. Hazırda Azərbaycan və Türkiyə arasında təbii qaz sahəsində çoxşaxəli əməkdaşlıq gündəliyinin olduğu, müvafiq hökumətlərarası sazişlə Azərbaycandan və üçüncü ölkələrdən Türkiyə və Avropaya qaz tədarükünə imkanlar yarandığı bildirilib.

*Hazırladılar:*
***V.BAYRAMOV,***
***M.QULİYEV***
***XQ***

# Əbədiləşmiş ömrün akkordları



**Elə insanlar olur ki, gördükləri çox böyük işlərin müqabilində heç vaxt öndə görünməyə can atmır, özləri barədə əfsanələr qoşulmasını istəmirlər. Beləleri dövlət və xalq mənafeyi üçün hər fədakarlığa hazır olanlardır. Görkəmli Azərbaycan alimi, ictimai və siyasi xadim, akademik Musa Əliyev də belə şəxsiyyət kimi tanınıb.**

**İlk olaraq ondan başlayım ki, əfsanəvi Neft Daşlarının istismarı layihəsinə məhz Musa Əliyev həyat verib və tək elə bu fakt da onun tarixdə qalmasını təmin edir. O, eyni zamanda neçə-neçə faydalı qazıntı yatağını üzə çıxarıb, Yura dövrünün elmə məlum olmayan molyuska növünü aşkarlayaraq onu Vətənimizin şərəfinə "Seramus-Azerbaycanius" adlandırıb. Musa Əliyev Azərbaycan Sənaye İnstitutunda rektorluğu zamanı "O illərdə aldığım təhsil, tərbiyə, intizam, biliklər həyatımda çox böyük rol oynadı", – deyən Heydər Əliyev kimi bir dahi məzunla öyünə bilən, Azərbaycan Elmlər Akademiyasına prezidentlik edərkən elm məbədinin qızıl dövrünün müəllifinə çevrilən, 350-yə yaxın elmi əsərin müəllifi olan, 60-dan artıq elmlər doktoru və fəlsəfə doktoru yetişdirən görkəmli alim olub.**

**Dövlət Plan Komitəsinin sədri ikən Bakının simasına mükəmməl arxitekturaları ilə seçilən binalarla, o cümlədən Bakı Metrosu ilə gözəllik qatan, Qırmızı terrordan Səməd Vurğun, Mirzə İbrahimov kimi dahilərimizi qoruyan, həbslə, sürgünlə hədələnsə belə, bir an da ümumxalq mənafeyindən geri çəkilməyən, zorən qürbətə gedib bu dəfə ruslara geologiyanın sirlərini açan, daha sonra Əlcəzair prezidentinin neft məsələləri üzrə müşaviri işləyərək neftlə zəngin Saharanı kəşf edən də Musa Əliyev olub. O, ömrünün sonlarında vətən həsrəti ilə qovrulub, görmə qabiliyyətini büsbütün itirib, bütün bunlarla bərabər, adını şöhrət tariximizə yazdırıb.**

## Şamaxı qırğını

Musa Əliyev bir bahar günündə – 1908-ci il aprelin 11-də Şamaxı şəhərində dünyaya gəlib. Atası Mirzə Mahmud zəngin iş adamı, əmisi Məmmədtağı Əliyev tanınmış maarifçi olub. Əmisi hətta bir müddət Sankt-Peterburqda yaşayıb və I Dövlət Dumasına deputat seçilib. Bu faktlar göstərir ki, insanın formalaşmasında nəsil şəcərəsi əhəmiyyətli rol oynayır.

Musa 1 yaşından gəzməyə başlayanda artıq duyulurdu ki, fərqli uşaq olacaq. Sakit, həlim, yaraşıqlı, gur qara saçlı, saatlarla öz-özüylə oynayan bir oğlan imiş. Uşaqlıqdan yaşayış yerləri taleyin hökmü ilə Şamaxıdan Bakıya, ordan Aşqabada, sonra yenə də Bakıya dəyişilmişdi.

1917-ci ildə Musa anasını, 1 il sonra qardaşını itirdi. O zaman ermənilər Şamaxıya basqın edib misli görünməmiş qırğın törətdilər. Əmisi Məmmədtağı Əliyev həmin dönəmdə Sankt-Peterburqdan ata yurdu Şamaxıya köçmüşdü, ailəsi ilə birgə orada yaşayırdı. Təpədən dırnağadək silahlanmış erməni qəsbkarları hücum edəndə çaxnaşma düşür, əliyalın insanlar evlərini, mal-dövlətlərini atıb qaçmağa başlayırlar, Məmmədtağı Əliyev isə qaçmır. Onun olduqca zəngin kitabxanası varmış – orada ən dəyərli kitablar, nadir tarixi sənədlər, hətta Nizami Gəncəvinin əlyazması toplanmışdı. Belə bir sərvəti qoyub qaça bilmir. Evinin qarşısında durub, düşmənə müqavimət göstərir və vəhşicəsinə öldürülür. Musanın atası bu xəbəri eşitcək həyatını riskə atıb Aşqabaddan gəlir, salamat qalmış əzizlərini, o cümlədən də qardaşının qızı Sonanı ölümün ağuşundan qopararaq xilas edə bilir və özü ilə Türkmənistana aparır. Sonra Aşqabadda vəziyyət qarışır, hamılıqla Bakıya gəlirlər. Mən bu epizodu boşuna xatırlatmadım. Çünki sonradan Sona Musanın həyatında ən əsas yeri tutacaqdı...

O illərdən Musanın uşaq yaddaşında bir də Azərbaycan Xalq Cumhuriyyətinin rəsmən tanınması münasibətilə İçərişəhərdə düzənlənən parad qalacaqdı. Bu adi parad deyildi, illərlə çarizm boyunduruğu altında inləyən bir xalqın şirin azadlığı dadması idi, bundan başgicəlləndirici sərməstlik duyması idi. Tarix tək onu görüb yaşamaq deyil ki. Tarix həm də ondan öyrənmək, ibrət dərsi almaq üçün ən böyük müəllimdir.

Amma 1920-ci il bolşevik istilasından sonra Musagil yenidən Aşqabada qayıdası oldular. O dönəmdə Musa əlinə pul keçən kimi Aşqabad bazarındakı bukinistdən kitablar almağa başlamışdı. Cek Londonu, Uilyam Lokkanı, Viktor Marqeriti uşaq yaşlarında maraqla oxuyub. Bakıya təhsil almağa yollananda kitabxanasını da özüylə gətirib.

## Sonalı günlər

Musa Bakıda Sənaye institutunda oxuyanda əmisigildə yaşayırdı. Qəflətən qarın yatalağı xəstəliyinə tutuldu. Xəstəlik sonradan quru plevrit kimi daha dərin fəsad verdi. Həmin vaxt tibb institutunda təhsil alan əmisi qızı Sona ev şəraitində onun müalicəsi ilə özü məşğul olurdu. Bəlkə də, Musanı həyata məhz Sonanın fədakarlığı qaytardı. Məhz o dönəmdə onların arasında qırılmaz ülvi bağlılıq yarandı. Sonaya çox imkanlı bir yerdən elçi gəlsə də, razılıq vermədi. Sonradan Musa məhz Sona ilə ömür-gün yoldaşı olacaqdı. Bu, 1930-cu ilin 30 sentyabrında baş verəcəkdi...

1928-ci ildə institutun palentologiya və tarixi geologiya kafedrasının müdiri Vladimir Boqaçov əlaçı tələbə olan Musanın istedadını görüb dəyərləndirdi və onu Musanı öz köməkçisi təyin etdi, ardınca isə öz kafedrasına laborant. Təqaüddən əlavə, 60 manat maaş da almaq Musanın işinə lap yaradı. Ən əsası isə tələbənin bu cür yüksələ bilməsi üstünlüyünün avantajı idi ki, bu da Musaya qol-qanad verirdi. O, geoloji ekspedisiyalara gedir, hətta ən təhlükəli olanları seçir, biliyi, intuisiyası sayəsində zəngin qızıl, kobalt, molibden yataqları kəşf edirdi. Bir dəfə hətta qayadan yıxıldı, uçuruma yuvarlanarkən bir təsadüf onu həyatda saxladı, sıldırımda bitmiş tikan koluna ilişib qaldı və onu xilas etdilər. Sonradan hər dəfə həyatına təhlükə duyulanda, hər dəfə facia onu ağuşuna alanda hansısa sehirli bir əl onu çəkib çıxarır, bir sehirli qüvvə onu hifz edirdi.

Musa Əliyev 1931-ci ildə Azərbaycan Sənaye İnstitutunun geoloji-kəşfiyyat fakültəsini fərqlənmə diplomu ilə bitirdi, sonra aspiranturada oxudu, 27 yaşında namizədlik dissertasiyası müdafiə etdi, inanılmaz bir yüksəlişlə karyerasını qurmağa başladı.

## Sürətli yüksəliş

Çox savadlı, istedadlı, təşəbbüskar, əzmkar olması, geoloji ekspedisiyalarda özünü ən yaxşı cəhətdən göstərə bilməsi tezliklə öz sözünü dedi və 1935-ci ildə Musa Əliyev Mərkəzi Komitənin təqdimatı ilə Zaqafqaziya Geologiya Trestinin nəzdindəki Azgeolbüroya rəis təyin olundu. İdarəyə ən layiqli kadrları topladı, ekspedisiyaların sayını 30 dəfəyə qədər artırdı.

1936-cı ildə Musaya daha bir vəzifə verildi – Azərbaycan Sənaye İnstitutunda fakültə dekanı. 28 yaşında dekanlıq o dövrdə heç kəsə müyəssər olmamışdı. Sonradan institutun rektoru vəzifəsinə irəli çəkildi. Qısa bir müddətdə ali təhsil ocağı neft sahəsi üzrə SSRİ-də 1-ci oldu, nüfuzlu Moskva Neft İnstitutunu da qabaqlayaraq keçici qırmızı bayrağa layiq görüldü.

1941-ci il Musa Əliyevin Moskvaya çağırılması ilə yadda qaldı. Ona SSRİ Xalq Sənayesi Komissarlığının Tədris müəssisələri baş idarəsinin müdiri vəzifəsində işləmək təklif olunmuşdu. İkinci Dünya müharibəsinin taleyini Bakı nefti həll edirdi, Musa Əliyev də ölkə başçısı İosif Stalinin mandatı ilə gənc neftçilərin yetişdirilib artıq Mozdoka qədər gəlmiş faşistlərin üzərinə şığıyan texnikanı cana gətirmələri ilə şücaət göstərirdi. Onun tabeliyində 25 neft məktəbi var idi.

## Bağırovun təqibi

O dönəmdə Bağırov dəfələrlə Kremlə əlaqə yaradır, israrla Musa Əliyevi Bakıya qaytarmaq istəyirdi. Stalindən mandat almış və Moskvada xidmət göstərən uğurlu bir azərbaycanlının şöhrəti Bağırovda qıcıq yaradır, onu özünə təhlükə mənbəyi sayırdı.

Onu Bakıya qaytartmağa nail olan Bağırov özündənrazı halda söyləyir: "– Elə bilirdin, mənim yanımdan getmək belə asandır? Gördün, yenə mənim tabeliyimə düşdün?" Və onu öz sahəsi olmayan Energetika şöbəsinə müdir müavini təyin edir. Bu, Bağırovun ona tor qurması deyildi, onun bacarığı və işgüzarlığı sayəsində bərbad vəziyyətdə olan respublika energetikasını dirçəltmək istəyi idi. Çox qısa müddətdə Musa Əliyev bu sahədə də inanılmaz nəticələrə imza atır, tezliklə Azərbaycan KP MK-nın Baş energetiki təyin edilir. İşlər nizama salınan kimisə yenidən vəzifəsi dəyişdirilir, bu dəfə onu öz sahəsinə qaytarırlar, Geologiya İdarəsinin müdiri qoyurlar. Daha 1 il keçməmiş bu dəfə MK-nın Təhsil şöbəsinin müdiri təyin olunur. O, hər bir sahədə dönüş yarada bilirdi. Hara qoyurdular, işləri sahmana salırdı, dərhal da yerini dəyişirdilər.

35 yaşında artıq saçları ağarmağa başlamışdı... 1947-ci ildə onu MK-nın sənaye üzrə 3-cü katibi təyin etmiş, respublika Ali Sovetinə deputat seçmişdilər. Bir neçə aydan sonra da Nazirlər Soveti Sədrinin müavini və Dövlət Plan Komitəsinin sədri təyin edildi. Bu, başgicəlləndirici bir yüksəliş idi. Amma daha yüksəkliklərdən yıxıldıqda sağ qalmamaq ehtimalı da böyük idi.

## Neft daşları epopeyası

Plan Komitəsinə rəhbərlik etdiyi dönəmdə onun təşəbbüsü ilə paytaxtın simasına gözəllik, insanlara hədsiz fayda gətirən Respublika Kitabxanasının, Dram Teatrının, Akademiya şəhərciyinin, metronun, Astrofizika rəsədxanasının inşasına başlanıldı. Moskvadan bu qədər böyük tikintilərə vəsait qoparmaq inanılmaz dərəcədə çətin idi. Elə həmin dönəmlərdə Musa Əliyev Azərbaycan üçün ən taleyüklü bir məsələnin ağır yükü altına çiynini qoydu. O, Dəniz Neft İdarəsi təşkil etmək, Neft Daşlarının istismarını həyata keçirmək kimi bir möhtəşəm layihə hazırladı. Moskvada layihəsi təsdiqləndi.

Neft Daşları epopeyası beləcə başlandı. Bakıya dönən kimi dənizə ilk desant çıxarıldı, köhnə gəmilər neftçilərin ilk sığınacağı oldu, polad estakadalar qurulmağa başladı. Tezliklə 25 metrlik ilk estakada istifadəyə verildi. İlk neft tankeri ilk nefti daşıdı. Musa Əliyev sevincindən uşaq kimi ağlayırdı. Bir şəxs öz xalqı, vətəni üçün bundan artıq daha nə edə bilərdi ki? Amma haqsızlıq, ədalətsizlik cövlan edirdi. Dənizdə neft kəşfiyyatının banisi olan Musa Əliyev dənizdə ilk neft hasilatına görə təltif olunanların siyahısında öz adını görmədi. Bu, diktatorun növbəti qisası idi.

## Səməd Vurğunun və Mirzə İbrahimovun xilası

1950-ci ildə o, Azərbaycan SSR Elmlər Akademiyasının prezidenti təyin edildi. Tale elə gətirmişdi ki, Bağırov rejiminin sərt təpkiləri zamanı Musa Əliyevin ən yaxın dostu, sirdaşı milyonların sevimlisi Səməd Vurğun olmuşdu. Şair həm də Akademiyanın vitse-prezidenti idi. Onun əqidədaşı idi. 1953-cü ilin fevralında səhər saatlarında Bağırov Musa Əliyevə zəng vuraraq dərhal Səməd Vurğunla Mirzə İbrahimovun Akademiyadan xaric edilməsi əmrini verdi, "tapşırığımı yerinə yetirməsən, özündən küs" dedi. Bu, iki böyük şəxsiyyətin yalnız Akademiyadan xaric edilməsi deyildi, onların vurulma prosesinin başlanğıcı idi. Gerisi nə olacaqdı, aydın duyulurdu.

Musa Əliyev tam çıxılmaz vəziyyətə düşmüşdü. Belədə, Allah özü onun köməyinə yetişdi. Ölkə rəhbəri İosif Stalinin vəfatı xəbəri gəldi, Mir Cəfərin başı qarışdı, verdiyi ultimatum bir müddət yaddan çıxdı. Amma sonradan Bağırov yenidən bu məsələnin üstünə qayıtdı. Onun emissarı Musa Əliyevin yanına gedib ertəsi gün saat 11-ə kimi məsələni həll etməyi tapşırdı. Musa Əliyev səhərədək gözünü yuma bilmədi. O, xalqın ən öndə olan ziyalılarını güdaza verə bilməyəcəkdi, buna onun kişiliyi, ləyaqəti yol verməzdi, deməli, özü qurban gedəcəkdi. Allah böyükdür, bu dəfə də gözlənilmədən Musa Əliyev xilas oldu. Həmin dönəmdə o, Akademiya prezidentliyi ilə yanaşı, SSRİ Ali Soveti deputatı kimi ağır sənaye seksiyasının sədri idi. Və deyilən vaxta sayılı saatlar qalanda Kremldən onun adına teleqram gəldi ki, təcili Moskvaya gəlsin, Ali Sovetin növbədənkənar iclası keçiriləcək. O, Moskvaya uçası oldu, bir həftə davam edən iclaslarda iştirak etdi. Amma təbii ki, fikri Bakıda qalmışdı, orada Mir Cəfər onun hökmünü verməyə hazır vəziyyətdə yolunu gözləyirdi.

Möcüzə bəzən insanın bütün ümidləri üzüləndə, hətta yapışmağa saman çöpü belə qalmayanda gəlir. Həftənin tamamına bir gün qalmış – iyulun 12-si səhər ertə bir xəbər ildırım kimi çaxdı, gündəmi zəbt etdi: SSRİ rəhbərliyinin elitasında qərarlaşmış ən mənfur şəxs, Mir Cəfər Bağırovun da havadarı Lavrentiy Beriya həbs edilib, Bağırov da işdən qovulub. Beləliklə, Bakıda növbəti ziyalı terroru baş tutmadı.

Musa Əliyev 8 il Akademyaya prezidentlik etdi. O, işə başlayanda akademya əməkdaşlarının sayı 1050 nəfər idi, bunların da cəmi 30 faizi azərbaycanlılar idi. O, işdən çıxanda isə artıq burada 2500 nəfər çalışırdı və heyətin 70 faizini məhz azərbaycanlı alimlər təşkil edirdi.

İrtica, repressiya dövründə daim üzdə olmaq, böyük vəzifə daşımaq, eyni zamanda əyilməmək, sınmamaq, qürurunu qorumaq, bir də milli ləyaqət hissini qoruyub saxlamaq, demək olar ki, mümkünsüz idi. Səni tutacaq, sürgün edəcək, güllələyəcəkdilər, bunların heç biri olmasa da, ən azından, ürəyini partladacaqdılar. Musa Əliyevi tək Allahmı qoruyurdu? Tək talemi ona qarşı ədalətli mövqe tutmağa and içmişdi? Yox. O, SSRİ-yə lazım idi, onun bildiklərini başqaları bilmir, bacardıqlarını bacarmırdı. Ona görə də onu sıxma-boğmaya salsalar, hədə-qorxularla yamanlasalar belə, necə deyərlər, zərərsizləşdirə bilmirdilər.

## Qürbət dönəmi

Həyatın sınaqları isə davam edirdi. Respublikanın yeni rəhbəri İmam Mustafayevlə heç yola gedə bilmədi. 1957-ci ildə işdən getməsi barədə Mustafayevə ərizə yazdı, əvəzində özü yaratdığı Paleontologiya və strafiqrafiya institutunda çalışmaq istədiyini bildirdi. Uzun müddət Mustafayevdən cavab gəlmədi. Yalnız 58-ci ildə, Musa Əliyevin 50 illiyində Mustafayevdən ona 2 cavab birdən gəldi. Öncə respublikanın rəhbəri onun istefa ərizəsini qəbul edirdi, ardınca isə Paleontologiya və strafiqrafiya institutunun ləğv edildiyini bildirirdi. Beləcə, Musa Əliyev havada qaldı. Həmin il ona daha bir zərbə atasının ölümü oldu. Tam depressiya halında, tam ruhdan düşmüş halda ikən xilas teleqramı aldı. Onu Moskvaya çağırırdılar...

Bağırovun yerinə gələn İmam Mustafayevlə Vətənin qəribə bir cazibəsi olur. Onu tərk edib gedəndə heç cür bu cazibə səni rahat buraxmır. Hey çəkir, çəkir... Neft qoxulu, küləkli Bakınınsa bir ayrı cazibəsi var. Bakıdan gedib başqa yerdə yaşamaq ən ağır sınaqdır.

58-ci ildə Musa Əliyev ailəsiylə Moskvaya köçdü, Aşqabadda yaranmış, ordan Bakıya köçürülmüş zəngin kitabxananı da özləri ilə apardılar, ömürlərinin növbəti dönəmi başladı. Musa Əliyev SSRİ EA nəzdindəki Yanar Qazıntı Yataqlarının Geologiyası və İşlədilməsi İnstitutunun direktor müavini təyin edilmişdi, ömrünün sonunadək də bu institutda işlədi. Onun elmi fəaliyyətinin coğrafiyası geniş oldu, Cənubi Qafqazdan Qərbi Sibirə, Orta Asiyaya qədər uzandı. Arada ömrünün Əlcəzair mərhələsi də oldu, Əlcəzair prezidentinin neft məsələləri üzrə müşaviri kimi çalışdı, Sahara neft yatağını kəşf etdi. Bu isə 1967-ci ildə baş verdi.

Bakıda yaşadıqları dönəmdə 1952-ci ildə Neftçilər (ovaxtkı Stalin) prospektində, Funikulyorun yaxınlığında alimlər üçün inşa edilmiş gözəl binaya köçmüşdülər. 3-cü mərtəbədə yaşayırdılar, 4-cüdə isə tanınmış yazıçı Mir Cəlal ailəsi ilə birgə yaşayırdı. Dərhal dostlaşdılar, uşaqları – Musa Əliyevin qızı Rəna və Mir Cəlalın oğlu Hafiz eyni sinifdə – 6 nömrəli məktəbin 8-ci sinfində oxudular. Qeyri-adi bir şirinliyi vardı Rənanın, Hafizi dərhal cəzb etmişdi. İllər sonra Musa Əliyev ailəsi ilə Moskvaya köçəndə institutu bitirən Hafiz də seçimini etmiş, Moskva Kurçatov adına İnstitutun aspiranturasında təhsilini davam etdirmişdi. Köhnə qonşular kimi Hafiz onlara gəlib-gedirmiş. Və Musa Əliyevin Əlcəzairdə yaşamaq məsələsi çıxanda qızı Rənanı Moskvada tək qoymaq istəməyən və bunun sıxıntısını çəkən Musa müəllim üçün gənclərin bir-birini sevməsi xəbəri lap göydəndüşmə oldu. Tezliklə onların toylarını edərək həyat yoldaşı ilə rahatca Əlcəzairə yollandı.

## Xatirə dəftəri

...Sakit bir yay axşamı. Açıq pəncərədən əsən yüngül meh içəri ağac yarpaqlarının xışıltısını daşıyırdı. Musa Əliyev bu səsi dinləyir və düşünürdü. İstəyirdi anlasın ki, insan niyə doğulur, nə səbəbə yaşayır, məqsədi və məramı nədir. 70 yaşı vardı. Bir anda həyatı kino lenti kimi gözünün önündən keçdi. Özü də bilmədən bir də gördü ki, kağız-qələmə sarılıb və yazır.

İlk cümlələri də bunlar oldu: "...1978-ci il. Moskva ətrafında yerləşən Perxuşkovo Akademiya qəsəbəsi. Böyük, amma sükutlu. Elə indi də sakit bir yay axşamıdır. Pəncərəm açıqdır. İliq, xumarlanan bir külək kollarda astaca xışıldayır. Mən bu xışıltını dinləyir və düşünürəm..."

Beləcə, o, 1978-ci ildə memuarlarını yazmağa başladı. Yaxşı da ki, yazdı. Tələtümlü bir ömrün ən vacib məqamları orada əks olundu. Ömrünün axırına yaxın görmə qabiliyyətini tam itirmişdi. Bununla belə, yenə yazır, uzun, keşməkeşli, hadisələrlə bol ömrünün məqamlarını fiksə edirdi.

Biz zamanın içərisindən keçirik. Yaşadığımız illər ömür adıyla taleyimizə pərçimlənir. Amma zaman da eynən bizim içimizdən keçir. Gah öz tələtümləri ilə bizi çalxaladıqca çalxalayır, gah da öz sükutu ilə bizi rahat buraxır. 1985-ci ilin mayı gələndə Moskva səması sıx qara buludlarla örtülmüşdü, fasiləsiz yağışlar yağırdı. Musa Əliyev xatirələrinin son vərəqlərində övladlarından bəhs edib. Oğulları Ömər Xəyyam və İkram barədə qeydlər verib, daha sonra yazıb: "Üçüncü uşağım Rəna isə ən sevimli övladımdır. Anam Nabata çox bənzəyir. O, ciddi, ağıllı və gözəldir. Moskva Dövlət Universitetinin nəzdindəki Moskva İnstitutunun Şərq dilləri fakültəsini bitirib. Ərəb, fransız, ingilis, rus və əlbəttə ki, Azərbaycan dillərini bilir. Uğurla ərəb ədəbiyyatı üzrə namizədlik işi müdafiə edib. Onun həyat yoldaşı Hafiz Paşayev Kurçatov İnstitutunun məzunudur. Tanınmış fizik, ağıllı, savadlı bir adamdır. Azərbaycan Elmlər Akademiyasının fizika-riyaziyyat institutunda laboratoriya müdiridir. Onlar çox gözəl, bir-birilərini sevən cütlükdür. Onların iki övladı var: oğulları Camal və qızları Cəmilə. Bax, mənim varislərim bunlardır."

O çiskinli may günləri ağır xəstəliklə güc gələndə Musa Əliyev vəsiyyətini etdi. Cəmi iki istəyi vardı. O da əmisi kimi çox unikal kitabxana yaratmışdı, əmisinin özü də, kitabxanası da ermənilərin güdazına getmişdi, o isə öz kitabxanasını qorumaq istəyirdi, bir vəsiyyəti bu oldu ki, həmin kitabxanası doğma Bakısına aparılıb Dövlət Universitetinin Paleontologiya kafedrtasına təhvil verilsin. İkinci vəsiyyəti isə Bakıda dəfn edilməsi oldu. O, 1985-ci il may ayının 3-də 77 yaşında vəfat etdi, Bakıda, I Fəxri Xiyabanda dəfn edildi.

Musa Əliyev böyük çətinliklə yazdığı xatirələrinin dərcini vəsiyyət etməmişdi. Qızı Rəna illərlə bu yazıları qoruyub saxladı, onları oxuduqca atasının tək onların ailələrinə deyil, bütün Azərbaycana, hətta daha böyük coğrafiyaya aid olması həqiqətini dərk etdi. Amma çox təəssüf ki, atasının xatirələrini dərc etmək məqamı gələndə əcəl Rəna xanıma imkan vermədi. Bu missiyanı həyat yoldaşı Hafiz Paşayev həyata keçirdi. Musa Əliyevin xatirələri "Ömrüm" adlı nəfis tərtibatlı bir kitabda əbədiləşdi.

Qəribə məxluqdur insan. Bütün həyatı boyu çalışır, vuruşur. Bütün çətinliklərə, əzab və ağrılara rəğmən, həyatdan gedəndə yaşadıqca heç də işıqlı olmadığını duyduğu, daim gileyləndiyi ömrün sanki işığını duyur, ondan dördəlli yapışmaq istəyir. Əbədi tərk etdiyi bu dünyadan qopmaq istəmir. Amma Musa Əliyev 1985-ci ilin 3 may günündə dünyadan çox sakit köçdü. Çünki o, yalnız ömrünün cismani qismini itirdiyini gözəl duyurdu. Tam əmin idi ki, tarixdə qoyduğu izlər onun ömrünün bitməsinə imkan verməyəcək. Və onun ömür kitabının ömrü uzandıqca uzanacaq.

***VARİS,***
***Ümumdünya Yazıçılar Təşkilatının katibi, Əməkdar jurnalist***

# Leylək yuvasının sığırçın "qonaqları"

**Bu yaxınlarda aran rayonlarımızdan birində maraqlı hadisənin şahidi oldum. Yol boyu uzanıb gedən yüksəkgərginlikli elektrik dirəklərinin başında çoxsaylı leylək yuvası var idi. Əslində, burada qeyri-adi heç nə yoxdur. Göl, bataqlıq, nəm ərazilərin yaxınlığında meşəlik və ya hündür ağac yoxdursa, leyləklər yuvanı insanların quraşdırdığı texniki vasitələrin üstündə qururlar. Mən bu lövhələri İranda da görmüşəm, İraqda da.**

Ötən ay gördüyüm leylək yuvalarının fərqi isə o idi ki, az qala bir at arabası qədər tutumu olan çubuq, ağac toplanmış həmin yuvaların arasında çoxsaylı xırda quşlar da yuva qurublarmış. Dirəklər yola o qədər də yaxın olmadığına görə pul ödəməyən "kirayənişinlərin" hansı quşlar olduğunu dəqiqləşdirə bilmədim. Yerli sakinlərdən biri dedi ki, həmin ərköyünlüyü sığırçınlar edirlər. Xatırladım ki, sığırçınlar leyləyin yuvasını mənimsəmirlər, onun daşıyıb gətirdiyi ağacların arasında özlərinə xas, öz "miqyaslarında" yuva qururlar. Yəni yuva qurmaq üçün onlar da nə isə daşıyır, deməli, zəhmət çəkirlər. Leylək isə onları nəinki qovmur, heç narahat da eləmir. Hərə öz ailəsinin problemləri ilə məşğuldur.

"Qanadlı qonşuların" həmin mehribanlığını görəndə fikirləşdim ki, biz də nə zamansa gəlmə quşlara öz yuvamızın ətrafında yaşamaq şansı vermişdik. Sonra nə oldu?

Amma, dərhal da fikrimi dəyişdim: Sığırçınlar da erməni deyil ki, yuvasında sığınacaq tapdığı kimisə qovub oradan çıxaralar. Sığırçın elə şərəfsizlik eləməz.

***İttifaq MİRZƏBƏYLİ***



5 İyun Şairlər Günü

# Poetik sözün milli günü



**Düz 25 ildir ki, martın 21-də dünyada Poeziya Günü qeyd edilir. Bu əlamətdar gün bizim Novruz bayramını keçirdiyimiz tarixə düşdüyü üçün Azərbaycan Yazıçılar Birliyinin qərarı ilə ölkəmizdə iyunun 5-də – Mikayıl Müşfiqin doğum günündə duyğu və düşüncələrimiz sırf şeiriyyətə köklənir.**

Azərbaycan Şairlər Gününə müxtəlif ölkələrdən – Türkiyə, Özbəkistan, Qırğızıstan, İran, Rusiya, Gürcüstandan qonaqlar dəvət edilirlər. Ənənə üzrə, tədbirdən öncə Fəxri Xiyaban və Şəhidlər Xiyabanı ziyarət olunandan sonra nakam şairimizin rəmzi məzarı olan Xəzər dənizinə qırmızı qərənfillər səpilərək xatirəsi yad edilir. Ardınca poetik məclislər keçirilir.

Bu il daha çox poeziya ilə nəfəs alırıq, desək, yanılmarıq. Prezident İlham Əliyevin sərəncamı ilə dahi Azərbaycan şairi və mütəfəkkiri Məhəmməd Füzulinin 530 illiyi müxtəlif tədbirlərlə qeyd olunur. “Artıran söz qədrini sidq ilə qədrin artırar”, – deyən Füzuli babamızın yaradıcılığı yenə də dillər əzbərinə çevrilib. Elmi konfranslar, ədəbi gecələr bir-birini əvəz edir.

Builki Şairlər günü isə həm də unudulmaz Xalq şairi Vaqif Səmədoğlunun 85 illiyinə təsadüf edir. Yadıma gəlir ki, 2014-cü ildə 75 yaşı ərəfəsində Sumqayıtdakı mərkəzi kitabxanada onunla maraqlı bir görüş oldu. Çıxışçılar şairə sevgi etiraflarını dilə gətirdilər, əzbərdən xeyli şeir söylədilər. Poeziya pərvanələri onun yeni kitablarından nüsxələrə avtoqraf yazdıranda mən yarım əsrə qədər şəxsi kitabxanamda qoruyub saxladığım balaca “Yoldan teleqram” (1968) adlı ilk kitabına imza atmasını xahiş etdim. Şair xeyli təəccübləndi və həvəslə avtoqraf yazdı...

Xatırladım ki, Böyük Səməd Vurğun ocağının yadigarı Vaqif Səmədoğlu da atası, eləcə də böyük qardaşı – unudulmaz yazıçımız Yusif Səmədoğlu kimi, dəyərli əsərləri ilə oxucu qəlblərində özünə taxt-tac qurmuş ünlü qələm adamlarımızdan idi. Ədəbiyyata xidmətlərinə görə “İstiqlal” və “Şərəf” ordenlərinə layiq görülüb. “Günün baxtı”, “Mən burdayam, İlahi”, “Uzaq, yaşıl ada”, “Gürzəçöl yazıları” kimi kitabları, maraqlı dram əsərləri, filmləri ilə mədəniyyətimizin daha da zənginləşməsinə töhfələr verib. 2015-ci ildə xatirələrə köç edib.

Yeri gəlmişkən, “Ulduz” aylıq ədəbiyyat dərgisi və AYB Ədəbiyyat Fondu unudulmaz Xalq şairi Vaqif Səmədoğlunun 85 illik yubileyinə həsr edilmiş poeziya müsabiqəsi keçirib və 35 yaşadək qələm adamları arasından Vaqifin poetik ruhunu yaşadan ən yaxşı şairləri müəyyənləşdirib. Cavid Qasımov 1-ci, Rəşad Nağı Mustafa və Allahşükür Ağa 2-ci, Eminquey, Seyidəli Sübhi və El Roman isə 3-cü yerləri tutublar.

Yaxın günlərdə “Kəpəz hospital”ın təşkilati, “Ədəbiyyat və İncəsənət” portalının informasiya dəstəyi ilə təqdimat və qaliblərin mükafatlandırılması olacaq.

Əslində, xalqımızın həyatının, demək olar, bütün günləri poeziyaya sıx bağlıdır. Elə bu yaxınlarda 8 gün ərzində AMEA-nın əsas binasının önündəki Akademiya parkında təmtəraqla keçirilmiş III Türk Dünyası Ədəbiyyat və Kitab Festivalının (III LitBookFest) isti təəssüratları hələ də ürəklərimizdədir. Türk dünyasının mənəvi körpüsü olan festivalın hər günü bir Turan ölkəsinə – Qırğızıstan, Özbəkistan, Macarıstan, Qazaxıstan, Azərbaycan, Türkiyə, Türkmənistan və Şimali Kipr Türk Respublikasına həsr edildi.

Türksoylu ölkələrdən alimlərin, qələm adamlarının, naşirlərin dəvət edildiyi festival “Şeir adam” məclisləri, poeziya saatları, müzakirələr, kitab təqdimatları, konfranslar, konsert proqramları ilə yadda qaldı. 1934-cü ilin iyununda Bakıda Azərbaycan yazıçılarının I qurultayında yaradılmış AYB-nin 90, azadlıq mücahidi Məhəmməd Əmin Rəsulzadənin və böyük ədib Salman Mümtazın 140, qırğız şair-ozanı Toktoqul Satılqanovun 160, ədəbiyyatşünas ailm, akademik Həmid Araslının 115, eləcə də 20 Yanvar şəhidi olan şair Ülvi Bünyadzadənin 55 illiyi qeyd olundu. Eyni zamanda, müxtəlif nəşriyyatların yeni kitabları oxuculara endirilmiş qiymətlərlə təqdim edildi...

Bu gün Bakıda, Gəncədə və Goranboyda Şairlər Gününə həsr olunmuş ənənəvi mərasimlər olacaq. Gənclik şəhərində isə, hər il olduğu kimi, AYB Sumqayıt bölməsinin təşkilatçılığı ilə Xəzər dənizinə gül səpməklə nakam taleli şairimiz Mikayıl Müşfiq və digər unudulmaz söz adamlarımız yad ediləcək, şeirlər dinləniləcək.

*Əli NƏCƏFXANLI*
*XQ*

# MDB gənclərinin Almatı Teatr Forumu

**Artıq 3-cü gündür ki, keçmiş SSRİ məkanından olan 200-dən çox gənc rejissor, dramaturq, aktyor, səhnə rəssamı və teatrşünas Qazaxıstanın Almatı şəhərində bir araya gəlib. Orada geniş tədbirlər proqramına tamaşaların, rəssam kataloqları və gənc dramaturqların pyeslərinin təqdimatları, ustad dərsləri, seminarlar, tanınmış teatr xadimlərinin məruzələri daxil edilmiş teatr forumu keçirilir.**



Forum MDB-nin üzvü olan ölkələrin Dövlətlərarası Humanitar Əməkdaşlıq Fondunun dəstəyi ilə Beynəlxalq Teatr İttifaqları Konfederasiyası tərəfindən təşkil edilib. Gənclərin teatr bayramında Qazaxıstan, Rusiya, Belarus, Qırğızıstan, Moldova, Özbəkistan, Baltikyanı ölkələr, Gürcüstan və Tacikistanla bərabər, Azərbaycan da təmsil olunur. Başlıca məram postsovet məkanında mədəni əlaqələrin qorunub saxlanılması və inkişafıdır. Teatr sənətinin inkişafına mühüm töhfə sayılan və beynəlxalq mədəni qarşılıqlı əlaqə üçün yeni üfüqlər açan bu layihə yaradıcı gənclərə dəstəkdir.

Münsiflər heyətinin sədri, Rusiyanın Xalq artisti, Puşkin Teatrının bədii rəhbəri Yevgeni Pisarev, fəxri üzvü Yaponiyanın “Çiten” Teatrının bədii rəhbəri, rejissor Motoi Miura, üzvləri isə rejissorlar Denis Azarov və Oleq Lipovetski, aktyor Andrey Kuziçev və başqalarıdır.

Gənc sənətçilərimiz bu teatr bayramına Azərbaycan Teatr Xadimləri İttifaqının təşəbbüsü, Mədəniyyət Nazirliyinin dəstəyi və Akademik Milli Dram Teatrının iştirakı ilə qatılırlar. Ölkəmizi təmsil edənlər sırasında dramaturq Cavid Zeynallı, teatrşünas Dağlar Yusif, rejissorlar Abdulla Elşadlı, Ümid Abbaszadə, Sahib Əhmədov, Elmira Üzeyirova və Fərəh Quliyeva yer alıblar. Forum çərçivəsində K.Kujamyarov adına Dövlət Musiqili Komediya Teatrında iyunun 7-də Akademik Milli Dram Teatrının “Sənsiz” tamaşası nümayiş olunacaq. Yazıçı-dramaturq Şıxəli Qurbanovun eyniadlı pyesi əsasında hazırlanan səhnə əsərinin quruluşçu rejissoru Nihad Qulamzadə, bəstəkarı Vüqar Babayev, rəssamı Vüsal Rəhim, işıq üzrə rəssamı Rafael Vaqifoğludur. Rolları Xalq artisti Mehriban Zəki (Sevinc), Əməkdar artist Füzuli Hüseynov (Tərlan), aktyorlar İlahə Həsənova (Maral), Elçin Əfəndi (Fərhad), Elsevər Rəhimov (gənc Tərlan), Lalə Süleymanova (gənc Sevinc) canlandırırlar.

Qaliblərə pul mükafatları və MDB ölkələrinin Gənclər Teatr Forumunun birləşdirici simvolu olan qızıl, gümüş və bürünc çətir şəklində xatirə hədiyyələri təqdim olunacaq. Forumun ən yaxşı tamaşası gələn il Moskvada böyük rus yazıçısı Anton Çexovun xatirəsinə həsr olunmuş XVII Beynəlxalq Teatr Festivalında iştirak edəcək.

Forum iyunun 9-dək davam edəcək.

*XQ*

# Omanda musiqili Şuşa gecəsi

**Diasporla İş üzrə Dövlət Komitəsindən verilən məlumata görə, Oman Sultanlığının Muskat şəhərində “Şuşa - Şərqin mədəniyyət beşiyi” adlı musiqili gecə keçirilib.**



Əvvəlcə Diasporla İş üzrə Dövlət Komitəsinin sədri Fuad Muradovun tədbir iştirakçılarına həm 28 May Müstəqillik Günü, həm də konsert münasibətilə ünvanladığı təbrik səsləndirilib.

Konsertdə Səidə Xəlilovanın həmtəsisçisi olduğu konservatoriyanın müxtəlif xalqların nümayəndələrindən ibarət olan müəllim və şagird kollektivi ölkəmizin və dünyanın görkəmli bəstəkarlarının əsərlərini səsləndirib. Azərbaycanın xalq musiqiləri, hindli ifaçının təqdimatında “Sarı Gəlin”, Arif Məlikovun “Alegiya” baleti qonaqların zövqünü oxşayıb. Ölkəmizin zəngin mədəni irsi, turizm potensialı, incəsənəti və tarixi abidələri nümayiş etdirilən videoçarxlar böyük maraqla qarşılanıb.

Tədbirdə Qarabağın tacı Şuşaya həsr olunmuş tədbirin önəmindən bəhs edilib. Qeyd olunub ki, 2023-cü ildə Doha şəhərində keçirilən İslam Dünyası Mədəniyyət Nazirlərinin 12-ci Konfransında Azərbaycanın mədəniyyət paytaxtı Şuşa şəhəri 2024-cü il üçün “İslam dünyasının mədəniyyət paytaxtı” elan edilib. Şuşa ilə bağlı verilən bu qərar İslam aləminin həmrəyliyinin bariz nümunəsi kimi dəyərləndirilib.

Azərbaycan icmasının üzvləri, yerli ictimaiyyətin nümayəndələri və əcnəbi qonaqların iştirak etdikləri musiqili gecənin sonunda konservatoriyanın müəllim və şagird heyətinə sertifikatlar təqdim olunub.

*XQ*

Bülbül adına IX Beynəlxalq Müsabiqə

**Xəbər verdiyimiz kimi, Bakıda vokalçıların Bülbül adına IX Beynəlxalq Müsabiqəsi başlanıb. 150-dən çox ifaçının qələbə uğrunda yarışa qoşulduğu müsabiqədə 18–36 yaş arasında gənclər iştirak edirlər.**

Dünən müsabiqənin rəsmiləri və iştirakçıları Bakıda Azərbaycan vokal sənətinin banisi, görkəmli xanəndə Bülbülün abidəsi önünə toplaşaraq açılış mərasimi keçiriblər. Sonra Azərbaycan Dövlət Akademik Filarmoniyasında ifaların dinlənilməsinə başlanıb. Azərbaycan, Türkiyə, Rusiya, Qazaxıstan, Qırğızıstan, Cənubi Koreya, Makedoniya və digər ölkələrdən olan vokalçılar bir-birindən gözəl səsləri ilə çıxışlar etməyə başlayıblar.

# Dünya vokalçılarının Bakı yarışması





**Bülbül Beynəlxalq Fondunun rəhbəri və müsabiqənin sədri, Xalq artisti, bəstəkar-müğənni Polad Bülbüloğlu jurnalistlərə müsahibəsində dedi:**

– Çox şadam ki, 1997-ci ildən bəri təşkil olunan bu müsabiqə ənənə halını alıb. Daha bir ilk isə budur ki, indi artıq müsabiqədə məhz azərbaycanlı məşhur vokalist, dünyaşöhrətli Xalq artistimiz, Dövlət Akademik Opera və Balet Teatrının direktoru Yusif Eyvazov baş münsifdir. İyunun 9-da Şuşada – Bülbülün evində, onun məkanında vokal yarışmasına yekun vurulacaq. Hər bir iştirakçıya uğurlar arzu edirəm.

**Mahnılar, ecazkar ifalar bir-birini əvəz edir. Müxbirlər arada fürsət tapıb, münsiflər heyətinin sədri, ünlü həmyerlimiz Yusif Eyvazovu da danışdırırlar.**

– Səslər gözəldir, – deyə o, bildirir. – Əla ifaçılar var. Əlbəttə, hamı qalib ola bilməz. Ona görə də biz ifalara çox diqqətlə qulaq asırıq.

**İştirakçılardan biri – Əlişir Nəvai adına Özbəkistan Böyük Teatrının solisti, bir çox beynəlxalq müsabiqənin qalibi Otabek Nazirov çıxışından sonra ürək sözlərini bizimlə bölüşdü:**

– Çox yaxşıdır ki, Azərbaycana gəlib ilk dəfə bu müsabiqədə iştirak edirəm. Doğrusu, əvvəlcə bir az həyəcan keçirdim, sonra ifama başladım. Bülbül müsabiqəsi mənə olduqca xoş təsir bağışlayır. Özümə də, həmkarlarıma da uğurlar diləyirəm.

**Azərbaycanlı iştirakçı, bariton Mahir Tağızadə isə dedi:**

– Bu müsabiqənin özünəməxsus yeri var. Çünki bizim öz Vətənimizdə keçirilir. Mən hələ illər öncə, Bakı Musiqi Akademiyasında tələbə olarkən artıq Bülbül vokal müsabiqəsində iştirak etmiş, “Ümid” mükafatı qazanmış və Polşanın Böyük Teatrında ustad dərsləri dinləmək fürsəti əldə etmişdim. Artıq bir peşəkar kimi qərara gəldim ki, bu il də müsabiqəyə qatılım. Görək, necə olacaq.

Qeyd edək ki, vokalçıların Bülbül adına IX Beynəlxalq Müsabiqəsinni qalibləri Şuşada qala-konsert zamanı elan ediləcək.

*Ə.DOSTƏLİ*
*XQ*

# Azərbaycanlı arxeoloq Qazaxıstanda



**Qazaxıstanın Pavlodar şəhərində Marqulan adına Pedaqoji Universitetdə “Marqulan oxumaları–2024” adlı beynəlxalq elmi-praktik konfrans keçirilib.**

Akademik Ə.X.Marqulanın 120 illik yubileyinə həsr olunmuş konfransda Milli Azərbaycan Tarixi Muzeyinin arxeologiya şöbəsinin böyük elmi işçisi, tarix üzrə fəlsəfə doktoru Laçın Mustafayev iştirak edib.

Muzeydən bildirilib ki, soydaşımız konfransda “Şimal-şərqi Azərbaycanda Sasanilər dövrünə aid yeni arxeoloji abidə” mövzusunda məruzə ilə çıxış edib.

Məruzə iştirakçılar tərəfindən maraqla qarşılanıb və verilən suallar ətraflı cavablandırılıb.

*XQ*

# Azərbaycan Respublikasının Dövlət Turizm Agentliyi

# Azərbaycan Turizm və Menecment Universiteti

## 2024/2025-ci tədris ilində aşağıdakı ixtisaslar üzrə təkrar ali təhsil almaq üçün qəbul elan edir

- Turizm işinin təşkili
- Turizm bələdçiliyi
- Menecment
- Marketinq
- Maliyyə
- Mühasibat
- Qida mühəndisliyi
- Nəqliyyatda servis (nəqliyyat növləri üzrə)
- Sosial iş
- Muzeyşünaslıq, arxiv işi və abidələrin qorunması
- Beynəlxalq münasibətlər
- Dövlət və bələdiyyə idarəetməsi

Təkrar ali təhsil almaq üçün əvvəlki ali təhsili və ya hazırda işlədiyi vəzifəsi seçdiyi ixtisasa uyğun gələn şəxslər ATMU-nun müəyyənləşdirdiyi qaydaya əsasən müsabiqədə iştirak edə bilərlər.

Təkrar ali təhsil almaq istəyənlər aşağıdakı sənədləri təqdim etməlidirlər:

- təhsil müəssisəsi rəhbərinin adına ərizə;
- ali təhsil haqqında sənədin (diplomun) notarial qaydada təsdiq edilmiş surəti və qiymət kitabçasından çıxarış;
- əmək kitabçasından çıxarış
- şəxsiyyət vəsiqəsinin surəti
- 3x4 sm ölçüdə 4 ədəd fotoşəkil
- Tibbi arayış
- İş yerindən arayış

Sənədlər 2024-cü il mayın 31-dən həftənin I-V günləri saat 9.00-dan 17.00-dək ATMU-nun əsas korpusunda qəbul edilir.

Təkrar ali təhsil almaq üçün ATMU-ya sənədlərini təqdim etmiş şəxslərlə ATMU-da yaradılan komissiya müsahibə aparır. Müsahibədən uğurla keçənlər seçdikləri əlavə təhsil ixtisası üzrə təkrar ali təhsil alan tələbələr sırasına qəbul edilirlər. Təkrar ali təhsil almaq şansı əldə etmiş və tələbələr sırasına qəbul olunmuş şəxslər əvvəlki ali təhsil ixtisaslarının uyğunluğundan asılı olaraq müvafiq ixtisaslara qəbul edilir və onlar üçün təhsil müddəti müəyyənləşdirilir.

Xaricdə təhsil almış şəxslər təkrar ali təhsil almaq üçün Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyində müvafiq prosedur (nostrifikasiya) keçməklə şəhadətnamə aldıqdan sonra sənədlərini təqdim edə bilərlər.

Təhsil ödənişlidir. Təhsil haqqı ixtisaslara uyğun olaraq müəyyənləşdirilir.

Qeyd–sənəd təqdim edənlər, həmçinin elektron formada Elm və Təhsil Nazirliyinin www.portal.edu.az saytından da qeydiyyatdan keçməlidirlər. Yuxarıda qeyd olunan sənədlərin hər birinin sistemə yüklənilməsi mütləqdir.

Azərbaycan Turizm və Menecment Universiteti

AZ 1072, Bakı şəhəri,

K.Rəhimov küçəsi, 822/23-cü məhəllə

Telefonlar: (+99412) 5645411, (+99412) 5644233(daxili: 125)

Email: info@atmu.edu.az

URL: www.atmu.edu.az


# Keçmiş ABŞ kəşfiyyatçısı Rusiyaya niyə buraxılmadı?

**Rusiyanın öz Davosu var, Sankt-Peterburq Beynəlxalq İqtisadi Forumu adlanır. İqtisadi mövzulara həsr olunan illik tədbirdə Rusiya Prezidenti Vladimir Putin də iştirak edir. Rusiya KİV-i yazır ki, tədbirə dünyanın müxtəlif ölkələrindən yüzlərlə qonaq qatılacaq. Onların arasında amerikalı mütəxəssislər də olmalıdır. Lakin dünən belə bir məlumat yayıldı ki, rusların şimal paytaxtda gözlədikləri hərbi mütəxəssis Skott Ritter tədbirə gələ bilməyəcək. Səbəb onun ABŞ hava limanında pasportunun əlindən alınması və təyyarəyə buraxılmamasıdır. S.Ritter ABŞ hökumətini onu Rusiyaya buraxmamaqda ittiham edir. Moskava da Ağ evi amerikalı mütəxəssisin pasportunu müsadirə etdiyinə görə qınadı.**



Bəs Skott Ritter kimdir ki, pasportu əlindən alınır, ona Rusiyaya getmək qadağan olunur? 63 yaşlı amerikalı hərbi ekspert Skott Ritterin 1980-ci ildə ABŞ ordusunda xidmətə başladığı və Dəniz Piyadaları Korpusunda kəşfiyyat zabiti rütbəsinə qədər yüksəldiyi bildirilir. Daha sonra onun keçmiş SSRİ-nin Əfqanıstana müdaxiləsi və İran–İraq müharibəsi üzrə aparıcı analitik kimi çalışdığı da qeyd edilir. 1991-ci ildən 1998-ci ilə qədər S.Ritterin BMT-nin silah müfəttişi və İraqda kütləvi qırğın silahlarının və onların istehsal müəssisələrinin tapılması və məhv edilməsi ilə məşğul olan UNSCOM-un xüsusi komissiyasının üzvü olduğu məlumdur. UNSCOM-dan ayrıldıqdan sonra o, Amerika televiziyasında analitik proqramların və tok-şouların tez-tez qonağı olur və burada ABŞ rəhbərliyinin İraqla bağlı siyasətinin müdrikliyini və effektivliyini şübhə altına alırdı.

2000-ci illərin əvvəllərində S.Ritter Ağ evin Yaxın Şərq siyasətinin kəskin tənqidçilərindən birinə çevrilmişdi. İraqda növbəti hərbi kampaniyanın başlamasına qarşı çıxan sabiq kəşfiyyatçı "1998-ci ildən İraqın tərksilah olunduğunu iddia edirdi. O, kütləvi qırğın silahları ilə bağlı bəyanatların müharibəyə başlamaq üçün sadəcə, bəhanə olduğunu söyləməyə başlayan ilk natiqlərdən biri olmuşdu.

Uzun illərdir ki, S.Ritter ABŞ-ın xarici siyasətinin, ilk növbədə, Yaxın Şərqdəki siyasətinin qatı tənqidçisi olaraq qalır. Onun köşə yazıları "Əl-Cəzirə" kanalında yayımlanır və Rusiyanın dövlət kanalı RT ilə əməkdaşlıq edir. Ekspertin şərhləri tez-tez Rusiya mediasında yer alır, burada onun ifadələri YouTube-dakı videolarda da yayımlanır. 2022-ci ilin fevralında Rusiya-Ukrayna müharibəsi başlayandan bəri o, mütəmadi olaraq Qərbin Ukraynaya silah tədarükünə şübhə ilə yanaşır.

S.Ritter "Twitch" striminq xidmətindəki podkastında Amerika sərhədçilərinin onu Rusiyaya uçan təyyarəyə buraxmamasının səbəbini belə açıqlayır: "Pasportumu müsadirə etdilər və bununla da məni getmək imkanından məhrum etdilər. Bu, kortəbii bir vəziyyət deyil, qəsdən qurulmuş pusqu idi. Bu, Sankt-Peterburq Beynəlxalq İqtisadi Forumunda iştirak etmək üçün mənim təyyarəyə minməyimə mane olmaq üçün Birləşmiş Ştatlar hökuməti tərəfindən planlaşdırılan bir hərəkət idi".

S.Ritterin sözlərinə görə, Sankt-Peterburqda keçirilən Beynəlxalq İqtisadi Forum İsveçrənin Davos şəhərində keçirilən Dünya İqtisadi Forumundan daha əlamətdar hadisədir: "Bu, xüsusilə, BRİKS-in indiki çağında daha vacib insanlarla daha böyük görüşdür. Şübhə etmirəm ki, ABŞ hökuməti "Siz çıxış etməyəcəksiniz" dedi. Və onlar mənim pasportumu müsadirə etdilər". S.Ritter onunla yanaşı, Rusiyadakı tədbirdə iştirak etməyi planlaşdıran Nyu-Cersi Ali Məhkəməsinin sabiq hakimi Endryu Napolitanonun da təyyarəyə buraxılmadığını iddia edir.

ABŞ Dövlət Departamenti isə S.Ritterlə bağlı vəziyyəti şərh etmir. Amerikanın xarici siyasət idarəsindən TASS-a bildiriblər ki, "Biz özəl vətəndaş olan ABŞ vətəndaşının pasportunun statusunu şərh edə bilmərik". RİA Novosti də analoji xəbər verir.

Rusiya Xarici İşlər Nazirliyinin rəsmi nümayəndəsi Mariya Zaxarova "Telegram" kanalındakı paylaşımında S.Ritterin pasportunun əlindən alınmasını tənqid etdi. M.Zaxarova paylaşımında Skot Ritterin pasportunun müsadirə edilməsinin ABŞ Konstitusiyasına zidd olduğuna ehyam vurur.

Xatırladaq ki, Sankt-Peterburq Beynəlxalq İqtisadi Forumu iyunun 5-dən 8-dək keçiriləcək. Forumun əsas mövzusu "Çoxqütblü dünyanın əsası – yeni artım nöqtələrinin formalaşması" olacaq.

***S.ELAY***
***XQ***

# "Boksçu beşlik" Parisə inamla gedəcək

**Paris Olimpiadasında mübarizə aparacaq boksçuların siyahısı hazırdır. Tailandın paytaxtı Banqkokda keçirilmiş II Dünya Olimpiya Təsnifat Turnirində daha 2 boksçumuz uğurla çıxış edərək Olimpiadada təmsil olunmaq hüququ qazandı. Bununla da, dördilliyin ən mötəbər idman yarışında iştirak edəcək boksçularımızın sayı 5-ə çatdı.**




Xatırladaq ki, dünyanın yalnız 3 ölkəsi lisenziya sayında Azərbaycandan irəlidədir. Özbəkistan və Qazaxıstan yarışda maksimal – 7, Avstraliya 6 çəkidə iştirak edəcək. Lisenziya sayı baxımında ilk 5-likdə yer alan ölkəmiz, Kuba kimi boks lideri ilə eyni göstəriciyə nail olub. Olimpiadalarda lider mövqeyi ilə seçilən ABŞ-ın isə cəmi 4 lisenziyası var.

Düzdür, yarışda boksçularımızın yekun göstəriciləri daha önəmlidir.

**Olimpiadaya vəsiqəni son yarışda qazanan Alfonso Dominqes (92 kq) "Tokio-2020"nin bürünc medalçısı olmuşdu. O, Yaponiya bürüncünü Fransada qızılla əvəzləmək istəyir:**

–Tokio Oyunlarındakı 3-cü yeri, Parisdə 1-ci mükafata çevirmək istəyirəm. Fransanın paytaxtından yaxşı nəticələrlə dönəcəyimizə inanıram. Həm özümə, həm komandama inanıram.

Vəsiqəni son yarışda qazanan digər boksçumuz Malik Həsənov (63,5 kq) da Olimpiadada yüksək mükafata iddialıdır. Lisenziya mübarizəsinin olduqca yüksək rəqabət şəraitində keçdiyini deyən rinq ustası Paris Oyunlarında ən yüksək pilləyə qalxmaq arzusunda olduğunu dedi:

–"Olimpiya Təsnifat Turnirində mənim çəkimdə 80-ə yaxın ölkənin boksçusu mübarizə aparırdı. Onlardan yalnız 5-i Olimpiadaya vəsiqə qazandı. 4 döyüşdə qələbə qazanıb, lisenziyanı təmin etdim. Qarşıdakı hədəf Olimpiya çempionluğudur. "Paris-2024"də idman tariximizə yeni qələbə səhifəsi yazmaq istəyirəm.

Millimizin üzvlərindən Nicat Hüseynov (51 kq) I Dünya Olimpiya Təsnifat Turnirində Parisə vəsiqə qazanıb. İkiqat Avropa çempionu da açıqlamasında Fransanın paytaxtındakı mötəbər yarışda yalnız çempionluq barədə düşünəcəyini dedi. Polşada keçirilmiş III Avropa Oyunlarında Olimpiadada iştirak hüququ qazanmış Dünya çempionatının ikiqat bürünc mükafatçısı Məhəmməd Abdullayev (+92 kq) və Avropa Oyunlarının mükafatçısı Murad Allahverdiyev (81 kq) də Parisdən mükafatsız qayıtmayacaqlarını iddia edirlər.

Beləliklə, millimizin hər bir üzvü ən mötəbər multiidman yarışından Vətənə yüksək mükafatla qayıtmaq arzusundadır.

Yığmamızın baş məşqçisi Pedro Roke nəticənin yaxşı olması üçün əllərindən gələni edəcəklərini dedi. Qeyd edək ki, 2016-cı ildə Lorenzo Sotomayor məhz onun rəhbərliyi ilə Olimpiadada Azərbaycan yığmasına gümüş medal qazandırmışdı. Bu, rekord nəticə idi. Bəs Parisdə necə? Ən yüksək göstərici qazana bilərikmi?

**Pedro Roke jurnalistlərə açıqlamasında əsas hədəfin qızıl medal olduğunu dedi:**

–2016-cı ildə mənim rəhbərliyim ilə Azərbaycan yığması Olimpadada gümüş medal qazandı. Əsas hədəf həmin medal əyarını yüksəltməkdir. Bunun üçün potensialımızdan tam istifadə etməliyik. Komandamızın uğur qazanması üçün hər cür şərait yaradılıb. Biz də üzərimizə düşən vəzifənin öhdəsindən gəlmək üçün bütün gücümüzü toplayacağıq.

Onu da qeyd edək ki, Parisdə, dünyanın 48 ölkəsindən, ümumilikdə, 121 kişi boksçu mübarizə aparacaq. Onlardan yalnız 48 boksçu Avropanı təmsil edir. "Köhnə qitə"nin cəmi 20 ölkəsi Olimpiya lisenziyası qazana bilib. Avropa rinqinin lideri olduğunu sübut edən millimiz qitədə 1-ci yerə şərikdir. Ölkələrdən, yalnız İspaniyanın Azərbaycan qədər – 5 vəsiqəsi var.

Ümid edirik ki, boksçularımız Paris Olimpiadasında da yüksək nəticə qazanıb, Vətənə lider komanda kimi qayıdacaqlar.

***Leyla QURBANOVA***
***XQ***


## "Xətai Təchizat" ASC-nin 2023-cü il dekabrın 31-nə maliyyə vəziyyəti haqqında hesabatı

**manatla**

| Aktivlər | 31 dekabr 2023-cü il | 31 dekabr 2022-ci il |
|---|---|---|
| Uzunmüddətli aktivlər | | |
| Əsas vəsaitlər | 33 525,00 | 35 289,00 |
| Cəmi uzunmüddətli aktivlər | 33 525,00 | 35 289,00 |
| Qısamüddətli aktivlər | | |
| Ticarət və digər debitor borcları | 63 432,05 | 147 370,00 |
| Pul vəsaitləri və pul vəsaitlərinin ekvivalentləri | 13 695,29 | 25 603,00 |
| Mal-material ehtiyatları | 0,00 | 13 450,00 |
| Cəmi qısamüddətli aktivlər | 77 127,34 | 186 423,00 |
| Cəmi aktivlər | 110 652,34 | 221 712,00 |
| Kapital və öhdəliklər | | |
| Kapital | | |
| Nizamnamə kapitalı | 62 322,00 | 62 322,00 |
| Hesabat dövrünün xalis mənfəəti | (9 573,47) | 9 507,56 |
| Əvvəlki dövrlər üzrə bölüşdürülməmiş mənfəət | 42 268,81 | 61 022,76 |
| Cəmi kapital | 95 017,34 | 132 852,32 |
| Öhdəliklər | | |
| Qısamüddətli öhdəliklər | | |
| Ticarət və digər kreditor borcları | 15 635,00 | 88 859,68 |
| Cəmi qısamüddətli öhdəliklər | 15 635,00 | 88 859,68 |
| Cəmi öhdəliklər | 15 635,00 | 88 859,68 |
| Cəmi kapital və öhdəliklər | 110 652,34 | 221 712,00 |

### Mənfəət və zərər haqqında hesabat

| | | |
|---|---|---|
| Satışdan gəlirlər | 309 217,00 | 428 547,53 |
| Əməliyyat və digər inzibati xərclər | (297 332,55) | (382 615,05) |
| Əməliyyat mənfəəti | 11 884,45 | 45 932,48 |
| Vergidən əvvəl mənfəət (zərər) | 11 884,45 | 45 932,48 |
| Mənfəət vergisi | (2 376,89) | (9 186,50) |
| Cəmi il üzrə mənfəət (zərər) | 9 507,56 | 36 745,98 |

### Kapitalda dəyişikliklər haqqında hesabat

| | Nizamnamə Kapitalı | Bölüşdürülməmiş mənfəət | Cəmi kapital |
|---|---|---|---|
| 2022-ci il yanvarın 1-nə | 62 322,00 | 61 022,76 | 123 344,76 |
| Hesabat ili üzrə cəmi mənfəət (zərər) | - | 9 507,56 | 9 507,56 |
| Dividend ödənişi | - | 0,00 | 0,00 |
| Mənfəətin istifadəsi | - | 0,00 | 0,00 |
| 2022-ci il dekabrın 31-nə | 62 322,00 | 70 530,32 | 132 852,32 |
| 2023-cü il yanvarın 1-nə | 62 322,00 | 70 530,32 | 132 852,32 |
| Hesabat ili üzrə cəmi mənfəət (zərər) | - | (9 573,47) | (9 573,47) |
| Dividend ödənişi | - | 0,00 | 0,00 |
| Mənfəətin istifadəsi | - | (28 261,51) | (28 261,51) |
| 2023-cü il dekabrın 31-nə | 62 322,00 | 32 695,34 | 95 017,34 |

### Pul vəsaitlərinin hərəkəti haqqında hesabat

| | | |
|---|---|---|
| Əməliyyat fəaliyyəti | | |
| Vergidən əvvəl mənfəət (zərər) | (9 573,47) | 11 884,45 |
| Vergidən əvvəl zərəri xalis pul vəsaitlərinin hərəkəti ilə üzləşdirmək məqsədilə aparılmış qeyri-nağd düzəlişlər | | |
| Əsas vəsaitlərin amortizasiyası | 1 764,00 | 1 877,00 |
| Digər xərclər | (28 261,51) | 1 056,00 |
| Dövriyyə vəsaitlərində dəyişikliklər | (36 070,98) | 14 817,45 |
| Mal-material ehtiyatlarının azalması (artması) | 13 450,00 | (10 946,00) |
| Ticarət və digər kreditor borclarının artması(azalması) | (73 224,68) | (12 342,36) |
| Ticarət və digər debitor borclarının azalması(artması) | 83 937,95 | (7 083,09) |
| Əməliyyat fəaliyyəti üzrə istifadə olunan xalis pul vəsaitləri | 24 163,27 | (30 371,45) |
| İnvestisiya fəaliyyəti | | |
| İnvestisiya fəaliyyətində istifadə olunan xalis pul vəsaitlərinin hərəkəti | 0,00 | 0,00 |
| Maliyyələşdirmə fəaliyyəti | | |
| Maliyyələşdirmə fəaliyyəti üzrə daxil olan pul vəsaitləri | 0,00 | 0,00 |
| İlin əvvəlinə pul vəsaitləri və pul vəsaitlərinin ekvivalentləri | 25 603,00 | 41 157,00 |
| Pul vəsaitləri və pul vəsaitlərinin ekvivalentlərində xalis artım (azalma) | (11 907,71) | (15 554,00) |
| İlin sonuna pul vəsaitləri və pul vəsaitlərinin ekvivalentləri | 13 695,29 | 25 603,00 |

## "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyəti

tabeliyindəki "Zığ" Gəmi Təmiri və Tikintisi Zavodunun yarımstansiyaları üçün lazım olan avadanlıqların satın alınması məqsədilə

### AÇIQ MÜSABİQƏ ELAN EDİR

Müsabiqədə iştirak etmək istəyən şəxslər www.asco.az səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumat əldə edə bilərlər.

Müraciət üçün son müddət 2024-cü il iyunun 12-si saat 17.00-dəkdir.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir). Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

Əlaqə telefonu: (012) 404-37-00, daxili: 1177

Ünvan: AZ1003, Bakı şəhəri, Mikayıl Useynov küçəsi 2.

## "Güzgü-Furnitur" ASC səhmdarlarının nəzərinə!

21 iyul 2024-cü il saat 9.00-da səhmdarların növbəti illik ümumi yığıncağı keçiriləcəkdir.

Gündəlikdəki məsələlər:

1. 2023-cü ilin maliyyə-təsərrüfat fəaliyyətinin yekunlarının müzakirəsi və təsdiqi.
2. Digər məsələlər.

Bütün səhmdarların iştirakı vacibdir.

Telefon- 070-379-94-04.

Ünvan - Bakı, Keşlə qəsəbəsi, Abdulla Mirzəyev küçəsi 3.

***Müşahidə şurası***

## "Finex Kredit" BOKT ASC səhmdarlarının nəzərinə!

5 iyul 2024-cü il saat 12.00-da Bakı şəhəri, S.Rüstəm küçəsi 11 nömrəli ünvanda "Finex Kredit" BOKT ASC səhmdarlarının növbədənkənar ümumi yığıncağı keçiriləcəkdir.

Gündəlikdəki məsələ:

1. Müşahidə şurasının tərkibi barədə müzakirə.

Səhmdarlar yığıncaqda müzakirəyə verilmiş məsələ ilə bağlı sənədlərlə hər həftənin çərşənbə axşamı günləri saat 12.00-dək tanış ola bilərlər.

Əlaqə telefonu – (+994 12) 440-56-15.

E-mail – info@finexkredit.az

Ünvan – Bakı şəhəri, S.Rüstəm küçəsi 11.

## "F.S" ASC səhmdarlarının nəzərinə!

22 iyul 2024-cü il saat 10.00-da "F.S" ASC səhmdarlarının növbəti illik ümumi yığıncağı keçiriləcəkdir.

Ümumi yığıncağın gündəliyi :

1. Cəmiyyətin 2023-cü və 2024-cü illər üzrə maliyyə hesabatlarının və maliyyə balansının təsdiq edilməsi.
2. 2023-cü və 2024-cü illərin dividendlərinin bölüşdürülməsi.
3. ASC-nin bölünməsi və bölünmə şəklində yenidən təşkili.
4. ASC-nin bölünməsi nəticəsində yenidən təşkil olunan MMC-lərin təsis edilməsi və nizamnamə kapitalının formalaşması.
5. Bölünmə balansının təsdiq edilməsi.
6. ASC-nin bölünmüş əmlakının təhvil verilməsi qaydasının müəyyən edilməsi.
7. ASC-yə məxsus səhmlərin ləğv edilməsi və dövriyyədən çıxarılması.
8. Digər məsələlər.

Səhmdarlar gündəlikdəki məsələlərə aid sənədlərlə tanışlıq üçün həftənin iş günləri saat 10.00-dan 13.00-dək cəmiyyətin icra orqanının rəhbərinə müraciət edə bilərlər.

Əlaqə telefonu- 012-564-25-76.

Ünvan- Bakı şəhəri, Nərimanov rayonu, Dərnəgül qəsəbəsi, 1999-cu məhəllə.

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 117 (30521) 5 iyun 2024-cü il, çərşənbə

İDMAN

## Gimnastlarımız da “Paris-2024”ə gedəcəklər

**Beynəlxalq Gimnastika Federasiyası Azərbaycanın bədii gimnastika üzrə qrup hərəkətləri komandasının “Paris-2024” Yay Olimpiya Oyunlarına lisenziyasını təsdiqləyib.**




Komandamız Avropa çempionatının yekunlarına görə, Fransa paytaxtına vəsiqə qazanıb. Zeynəb Hümmətova, Darya Sorokina, Güllü Ağalarzadə, Ləman Əlimuradova, Kamilə Əliyeva və Yelizaveta Luzandan ibarət komanda çoxnövçülükdə 4-cü yeri tutmaqla bu uğura nail olub.

Bu, Azərbaycanın gimnastika millisinin Paris Olimpiadasına əldə etdiyi 3-cü vəsiqə olub. Buna qədər bədii gimnastika üzrə fərdi proqramda çıxış edən Zöhrə Ağamirova və batut gimnastikası üzrə təmsilçimiz Selcan Mahsudova eyni nailiyyətə imza atıb.

## “Montenegro Cup”da 17 medal

**Azərbaycanın bədii gimnastları Monteneqronun Budva şəhərində keçirilmiş “Montenegro Cup” beynəlxalq turnirində uğurla çıxış edərək 17 medal qazanıblar.**



Böyüklər arasında Mədinə Dəmirova halqa və gürzlərdə qızıl, lent və toplarla hərəkətdə gümüş, Zəhra Cəfərova isə halqa və lent proqramında bürünc mükafata yiyələnib.

Gənclərin yarışında Nilufər Oruclu B kateqoriyasında halqa və toplarla çıxışda qalib adını qazanıb. Şəms Müvəffəqi topla 1-ci, gürzlər və lentlə 2-ci, halqada isə 3-cü yeri tutub. Mədinə Abbaslı isə top, gürzlər və lentlərlə hərəkətlərin icrasında bürünc mükafat alıb.

Yeniyetmələrin mübarizəsində Nur Sadıqova və Məryəm Baloğlanova, müvafiq olaraq, qızıl və gümüş medal əldə ediblər.

***L.QURBANOVA***
***XQ***

Bakı milyonçuları

# “Dəyirmanlar kralı” Ağabala Quliyev

**Onun haqqında ilk dəfə Bakı kəndlərinin yaşlı adamlarından eşitmişdim. Deyirdilər ki, min bir əziyyət bahasına özünə gün-güzəran qurub. İllər ötüb, zəhmətsevərliyi ona şöhrət gətirib. Milyonçu olub. O dövrlərdə onun adı çox məşhurlaşıb. Amma ömrünün son günləri təbəddülatlarla keçib...**



Ağabala Hacıqulu oğlu Quliyev 1862-ci ildə Bakının Keşlə kəndində anadan olub. Ailələri yoxsulluq içərisində yaşayıb. Atası aftafa düzəldib satmaqla məşğul olub. Ailənin dolanışığı o qədər ağır olub ki, Ağabala kiçik yaşlarından bazarda işləməyə məcbur olub. O, anasının bişirdiyi qutabları satmaqla evə gündəlik ruzi gətirib.

Bir müddət sonra Ağabala şəhərdəki böyük dəyirmanların birində fəhləlik etməyə başlayıb. İlk vaxtlar çətinliklərlə üzləşsə də, burada çalışdıqca qarşısında yeni yollar açılıb. O, işgüzarlığı ilə dəyirman sahibi, erməni milyonçusu Tatasovun etimadını qazanıb. Buna görə Tatasov 16 yaşlı Ağabalanı öz dəyirmanına müdir təyin edib. Dəyirman müdiri işləməyə başlayandan sonra Ağabalanın qazancı xeyli artıb. O, bir qədər sərmayə toplayandan sonra müstəqil fəaliyyət göstərməyə qərar verib.

Ağabala yaxşı bilirdi ki, dəyirmanı olan kənd çörəkli sayılır. Bu məqsədlə doğma kəndi Keşlədə köhnə bir dəyirman alıb. Dəyirmanı işə


Ağabala Quliyevin evi

salmaq elə də asan olmayıb. İmkanlı bir iş adamından sələmə pul götürüb. Köhnə dəyirman üçün yeni texnika alıb və dəyirmanın fəaliyyətini bərpa etdirib. Günlər keçdikcə Ağabalanın dəyirmanının üyütdüyü una böyük tələbat yaranıb. Hətta Tağıyev və Sadıxov kimi milyonçuların dəyirmanları gücünə və üyütdüyü unun keyfiyyətinə görə Keşlədəki dəyirmandan geri qalıb. Qeyd etmək yerinə düşər ki, Ağabalaya məxsus dəyirmanlar Rusiyanın Stavropol, Krasnodar və Rostov şəhərlərindən Bakıya vaqonlarla gətirilən yüksək növ taxılla təmin olunurdu.

...Tezliklə Ağabala Quliyev təkcə Bakının deyil, bütün Qafqazın “Dəyirmanlar kralı”na çevrilib. Daha sonra Rusiyanın ayrı-ayrı şəhərlərində tikdirdiyi dəyirmanlar ona şöhrət qazandırıb. Onun adı o illərdə artıq məşhur milyonçular Hacı Zeynalabdin Tağıyev, Şəmsi Əsədullayev, Musa Nağıyev, Əjdər bəy Aşurbəyov, İsa bəy Hacınskinin adı ilə yanaşı çəkilirdi.

Vikipediyada onun haqqında oxuyuruq: “Yalnız Bakıda deyil, İran, Şimali Qafqaz və Rusiyada da dəyirmanlar sahibi, tez-tez Qərbi Avropa ölkələrinə səyahət edən, Bakının “inhisar padşahları”ndan biri olan Ağabala Quliyev milli memarlıq ənənələrində ev inşa etdirməyi qərara alır. O, şəhər tikililərində istifadə olunan Avropa dəbinə qarşı etirazını bildirərək, məşhur memar Y.Y.Skibinskini Bakıya dəvət edib və ona layihə sifariş edib. Ondan Şirvanşahlar sarayı, bütövlükdə, Yaxın Şərq və ərəb memarlığı ənənələrindən bəhrələnməyi tələb edib. Skibinski yeni binanın layihəsini qısa müddətdə işləyərək hazırlayıb”.

Qısa müddətdən sonra Bakıda Ağabala Quliyevin gözəlliyi hər kəsi heyrətləndirən son dərəcə yaraşıqlı evi inşa edilib. Bina Skibinskinin yaradıcılığında mühüm əhəmiyyət tutmaqla, Azərbaycan milli memarlığının ən yaxşı nümunələrindən biri kimi dəyərləndirilir.

Təsadüfi deyil ki, Ş.Fiqarov-Fətullayev qeyd edir ki, Ağabala Quliyevin evinin memarlığının təsiri altında 1898–1901-ci illərdə Nikolayevskaya (indiki “İstiqlaliyyət”) küçəsində digər məşhur memar V.Qoslavskinin layihəsi əsasında H.Z.Tağıyevin “Qızlar məktəbi”nin binası inşa edilmişdir.

Hörmətli oxucu, Ağabala Quliyev haqqında məlumatları araşdırarkən bir çox maraqlı faktlara rast gəldim. Məsələn, sən demə, məşhur Molla Nəsrəddinçi rəssam Əzim Əzimzadə Quliyevin dəyirmanlarından birində fəhlə edib. Sonralar onun fitri istedadını görən milyonçu Ağabala Quliyev Əzim Əzimzadənin rəssam kimi fəaliyyət göstərməsinə şərait yaradıb və ona təqaüd ayırıb.

Ağabala Quliyev bir ictimai xadim kimi xalqın mənafeyini müdafiə edib. Bakıda 1916-cı ildə baş vermiş “Qadın qiyamı”ndan sonra əhaliyə pulsuz un paylayıb. Eyni zamanda, Bakıdan Batuma neft kəmərinin çəkilməsində xüsusi xidmətləri olub.

Birinci Dünya müharibəsi zamanı Osmanlı Türkiyəsinin Nargin adasına sürgün edilən minlərlə əsgər və zabitlərinin azad edilməsində milyonçu Ağabala Quliyev öz sinəsini qabağa verənlərdən biri olub. Əsirlərin çoxu Nargindən Astaraya qaçırılıb, oradan da Osmanlı Türkiyəsinin İrandakı konsulluğuna təhvil verilib.

Birinci cahan savaşından sonra Bakı Müsəlman Xeyriyyə Cəmiyyəti öz fəaliyyətini daha da genişləndirib. Həmin vaxtlarda Bakıya Turkiyədən gələn qaçqınları yerləşdirmək, yedizdirmək, isti pal-paltarla təmin etmək baxımından da Ağabala Quliyev xeyli iş görüb. Xeyriyyə cəmiyyətinin vasitəsilə qaçqınların qayğısına qalıb.

Bütün bunlarla bərabər, milyonçunun ictimai-siyasi fəaliyyətində sapındırmalar da olub. O, gözlənilmədən “Rus xalqının ittifaqı” adlı qaragüruhçu təşkilata üzv yazılıb. Buna görə də cəmiyyətdə nüfuzunu kəskin itirməyə başlayıb. Bir müddət hətta həbsdə olub. 1920-ci ilin yazında milyonçu həbsdən çıxıb və İrana gedib. O zaman bolşeviklər Bakını işğal etmişdilər. Ağabalanın mülkləri müsadirə olunub, ev-eşiyi talan edilib. Ailəsi öz evindən çölə atılıb. Ağabala Quliyev min bir əziyyətlə ailəsini Bakıdan çıxara bilib. Arvadını və uşaqlarını İrana, sonra Türkiyəyə keçirib. Qızları Sara və Rübabəni İstanbulda kollecə düzəldib. Onlar burada ailə qurublar. Oğlu Ağaismayıl isə gənc yaşlarında vəfat edib.

Bəli, milyonçu Ağabala Quliyevin ömrü acılı-şirinli nağıla bənzəyir. Təəssüf ki, ömrünün son illərində taleyi üzünə gülməyib. Onun nə vaxt və harada vəfat etdiyi barədə də dəqiq məlumat yoxdur. Yalnız o məlumdur ki, ömrünün sonuna yaxın Təbrizdə sərgərdan həyat yaşayıb və keçmiş milyonçu acınacaqlı vəziyyətdə dünyasını dəyişib.

***Həzi HƏSƏNLİ,***
***şair-publisist***

Galaktika



## Plutonda buzlu okean

**Plutonun qalın buz təbəqəsinin altında okean var. Bu barədə ilk məlumatı “New Horizons” kosmik aparatı verib. Aparat Plutonun yaxınlığından keçən zaman onun üzərində yeraltı okean olduğuna dair dəlillər tapıb.**

“Plutonun okeanı azot, metan və su buzunun qalın xarici qabığının altında yaxşı gizlənir. Biz onu heç vaxt kosmik gəmidən görə bilməyəcəyik. Lakin NASA-nın “Yeni üfüqlər” missiyasının aparatları səthin dərin qatlarında okeanı aşkar edə bildi”, – deyə alimlər bildiriblər.

Xatırladaq ki, 1930-cu ildən 2006-cı ilədək Pluton Günəş sistemində 9-cu planet kimi qəbul edilirdi. Ancaq XX əsrin sonları və XXI əsrin əvvəllərində Günəş sistemində plutonsayağı xeyli səma cismi kəşf edildi. Onlardan Erida kütlə baxımından Plutondan 27 faiz böyükdür. 24 avqust 2006-cı ildə Beynəlxalq Astronomiya İttifaqı özünün XXVI assambleyasında ilk dəfə olaraq "planet" anlayışına tərif verdi. Pluton bu tərifdə deyilən əsaslara uyğun gəlmədiyindən planet kateqoriyasından kənarda qaldı.

***PÜNHAN***
***XQ***

## “Qan verək – can verək”

**Balakən rayonunda qanvermə aksiyası keçirilib. Balakən Rayon Mərkəzi Xəstəxanasından aldığımız məlumatda deyilir ki, aksiyada 68 könüllü qan verib.**



Elmi-Tədqiqat Hematologiya və Transfuziologiya İnstitutunun nəzdindəki Mərkəzi Qan Bankının səyyar həkim briqadasının keçirdiyi aksiyanın məqsədi talassemiya və hemofiliyalı xəstəliklərdən əziyyət çəkən insanlara kömək göstərmək, onlara dəstək olmaqdır.

Aksiyada rayonun ayrı-ayrı əmək kollektivlərinin nümayəndələri, sakinlər fəal iştirak ediblər. Əvvəlcə hər bir donorun sağlamlığı yoxlanılıb, səhhəti imkan verən şəxslərdən qan götürülüb.

Toplanan qan laboratoriya müayinəsindən keçirildikdən sonra Mərkəzi Qan Bankına təhvil veriləcək və irsi qan xəstəliklərindən əziyyət çəkən insanların müalicəsində istifadə olunacaq.

***XQ***

## Samuxda ərik festivalı

**İyunun 8-də Samux Rayon İcra Hakimiyyətinin təşəbbüsü ilə rayonda ilk dəfə ərik festivalı keçiriləcək. Bu barədə xəbərdə bildirilir ki, rayon ərazisində 2333 hektar meyvə bağları var ki, bunun 15,5 faizi ərik bağlarıdır.**



Rayonda ərik bağlarının 28,3 hektarı fermerlərin, 333,4 hektarı isə həyətyanı təsərrüfatların payına düşür. Bar verən 200,3 hektar ərik bağları var. Ötən il bu bağlardan 1301,9 ton məhsul yığılıb. Məhsuldarlıq hər hektardan 6,5 ton olub.

***AYTƏN***
***XQ***

Hava

# Aranda yağmursuz, dağlarda yağış və duman...



**Ekologiya və Təbii Sərvətlər Nazirliyi Milli Hidrometeorologiya Xidmətinin verdiyi məlumata əsasən, iyunun 5-də Bakıda və Abşeron yarımadasında hava yağmursuz keçəcək. Mülayim cənub-şərq küləyi əsəcək. Gecə 19-24°, gündüz 31-36° isti olacaq.**

Atmosfer təzyiqi norma daxilində 760 mm civə sütunu, nisbi rütubət gecə 60-65, gündüz 40-50 faiz olacaq. Azərbaycanın rayonlarında əsasən yağmursuz keçəcək. Lakin gündüz bəzi dağlıq rayonlarda qısamüddətli leysan xarakterli yağış yağacağı, şimşək çaxacağı, dolu düşəcəyi ehtimalı var. Gecə və səhər arabir duman olacaq. Şərq küləyi əsəcək. Havanın temperaturu gecə 18-23°, gündüz 33-38°, dağlarda gecə 8-13°, gündüz 16-21°, bəzi yerlərdə 26° isti olacaq.

***Q. QASIMOV***
***XQ***

**ALLAH RƏHMƏT ELƏSİN**

Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin rektorluğu və professor-müəllim heyəti xalq-çalğı alətləri ifaçılığı kafedrasının professoru, Xalq artisti Vamiq Məmmədəliyevə bacısı

**XARİQƏ MƏMMƏDƏLİYEVANIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75 Mühasibatlıq: 498-85-29
Məsul katib: 493-61-02 E-mail: xalqqazeti@gmail.com
Texniki şöbə: 493-59-64 info@xalqqazeti.az
+994(51) 280-16-44

“Xalq qəzeti”nin kompüter mərkəzində yığılıb və səhifələnib, “Azərbaycan” nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 4047
SİFARİŞ 1229
QİYMƏTİ 60 qəpik

Növbətçi redaktor
Əli NƏCƏFXANLI
Çapa imzalanmışdır 00:00